Xalqın qəzeti!

# Xalq qəzeti

№ 77 (30771) 19 aprel 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Yeni yaşayış və istirahət kompleksləri paytaxta rahatlıq, gözəllik gətirir

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Sea Breeze" mərkəzində

**Aprelin 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Bakıda "Sea Breeze" istirahət mərkəzinin ərazisində həyata keçirilən və qarşıdakı dövrdə planlaşdırılan layihələrlə tanış olublar.**

"Agalarov Development" şirkətinin təsisçisi Emin Ağalarov əvvəlcə dövlətimizin başçısına və birinci xanıma "Sea Breeze"də istismara verilmiş "Park Residences 2" layihəsi barədə məlumat verdi.

Bildirildi ki, bu layihə çərçivəsində 1260 mənzildən ibarət yeddimərtəbəli 10 bina tikilib. Sakinlərin rahatlığını təmin etmək üçün burada müasir infrastruktur - hovuzlar, istirahət zonaları nəzərdə tutulub, həmçinin ərazidə geniş yaşıllaşdırılma işləri həyata keçirilib. Ölkəmizdə keçirilən COP29 çərçivəsində? "Sea Breeze", ümumilikdə, 4 minə yaxın qonaq qəbul edib ki, onlardan da çoxu məhz "Park Residences 2" layihəsinin binalarında yerləşib.



Sonra Prezident İlham Əliyevə "Sea Breeze"in ümumi baş planı və həyata keçirilmiş layihələr barədə məlumat verildi. Qeyd olundu ki, kompleksin ərazisində indiyədək 500-dən artıq daşınmaz əmlak obyekti tikilib. İstirahət mərkəzində sakinlər və qonaqlar üçün yüksək səviyyədə rahat şərait yaratmaq, həmçinin onların asudə vaxtlarını səmərəli təşkil etmək məqsədilə açıq və qapalı hovuzlar, fitnes mərkəzləri, restoranlar, kafelər, uşaq və idman meydançaları, qaçış və velosiped yolları, fəvvarələr yaradılıb. Burada məktəb, uşaq bağçası və xəstəxana da var.

*(ardı 2-ci səhifədə)*

## "Dünyanın kəsişməsi" – İrəvanın qondarma layihəsi

*Ermənistan rəhbərliyi avantürizmindən əl çəkmir*



**Bir neçə gün əvvəl jurnalistlər Ermənistanın baş naziri Nikol Paşinyana "Dünyanın kəsişməsi" ideyası ilə bağlı sualı təsadüfən ünvanlamamışdılar. Məsələ ondadır ki, 2025-ci il başlayandan rəsmi İrəvanın təmsilçiləri bu ideyadan bir o qədər söz açmırdılar. Daha doğrusu, erməni iqtidar nümayəndələri, əslində, "Dünyanın kəsişməsi"ndən qaynaqlanan planlarını dilə gətirir, ancaq bunu ad çəkmədən edirdilər. Ola bilər, Azərbaycanı qıcıqlandırmamağı düşünür, habelə beynəlxalq aləmə ölkəmizi qıcıqlandırmaqdan uzaq durduqlarını göstərmək istəyirdilər.**

Məlumdur ki, "Dünyanın kəsişməsi" Azərbaycanın 44 günlük müharibədən sonra irəli sürdüyü Zəngəzur dəhlizi təşəbbüsünə alternativ mahiyyət daşıyır. Məqsəd Ermənistanın Şimaldan Cənuba Şərqdən Qərbə doğru qlobal tranzitin açar fiquruna çevirməkdir. Qısaca, əsas yollar Ermənistanda birləşəcək və ölkə bundan gəlir götürəcək. Gəlir isə erməni avantürizminin saxlanılmasını təmin edəcək. Qərbin bəzi dairələrinin baxışlarında isə "Dünyanın kəsişməsi", necə deyərlər, Ermənistanı pul xərcləmədən əldə saxlamaq vasitəsidir. Görünür, xaricdə quyuya daimi su tökməklə onu sulu saxlamağın mümkünsüzlüyünü düşünənlər var.

*(ardı 4-cü səhifədə)*

## Mirzoyanın yanlış təfsirçiliyi

Səhifə ⇨ 5

## "Öncə Amerika": Supergüc təcridetmə siyasətinə qayıdırmı?



Səhifə ⇨ 11

## Azərbaycan – Çin əməkdaşlığı Böyük İpək yoluna yeni həyat bəxş edir



**Azərbaycan Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin səyləri nəticəsində bu gün hər iki ölkə arasında dövlətlərarası münasibətlər dinamik və hərtərəfli inkişaf mərhələsinə qədəm qoyub. Ölkə başçılarının qarşılıqlı etimada əsaslanan şəxsi münasibətləri və mütəmadi təmasları bu inkişafın əsas hərəkətverici qüvvələrindən birinə çevrilib.**

(ardı 7-ci səhifədə)

## "Erməni soyqırımı": uydurmalar və gerçəklər



Səhifə ⇨ 8

## Xocalıda dinc insanları öldürən erməni cinayətini boynuna alıb



Səhifə ⇨ 5

## Köhnə avtomobilini gətir, yenisini apar!



Səhifə ⇨ 7

## Müsyö Be xüsusi mükafata "layiqdir"



Səhifə ⇨ 3

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Sea Breeze" mərkəzində

(əvvəli 1-ci səhifədə)



Abadlıq işlərinə xüsusi diqqət yetirilib, 10 milyona yaxın bitki və ağac əkilib, yaşıllıq zonalarının ümumi sahəsi 300 hektara çatdırılıb.

Daimi yaşayış və yüksəksəviyyəli istirahət infrastrukturunu özündə birləşdirən "Sea Breeze" gələcəyin şəhəri kimi inamla inkişaf edir. Sahə üzrə ekspertlərin fikrincə, bu, çoxlu sayda müxtəlif formatlı daşınmaz əmlak obyektlərini bir ərazidə birləşdirən qlobal miqyaslı nadir layihədir.

Xəzər dənizinin sahilində, Bakının mərkəzindən cəmi 30 dəqiqəlik məsafədə yerləşən "Sea Breeze" 500 hektar ərazini əhatə edir. Burada 1,5 milyon kvadratmetrdən çox yaşayış və kommersiya daşınmaz əmlak layihəsi həyata keçirilib və istifadəyə verilib. Rekreasiya zonaları, parklar və çimərliklər üçün 150 hektardan çox ərazi ayrılıb.



Əsas layihələri sahil zolağında yerləşən "Sea Breeze" gələcəkdə ölkəmizin turizm imkanlarını artıracaq və Azərbaycanı turizm baxımından daha cəlbedici edəcək.

Nəhəng 11 mərtəbəli layner formasında inşa edilən mənzillərdən və hotel nömrələrindən ibarət flaqman daşınmaz əmlak layihəsi olan "Caspian Dream Liner" süni adada tikiləcək. Burada apart-hotel, ticarət mərkəzi və hovuzlar yaradılacaq. Bu unikal memarlıq quruluşu sayəsində "Sea Breeze" qlobal turizm xəritəsində daha da cəlbedici məntəqəyə çevriləcək.

İrimiqyaslı layihə fondunun hazırlanmasında bir neçə yerli və xarici memarlıq bürosu işləyir, layihələndirmə işlərinə dünyaşöhrətli memarlar cəlb olunur.

2028-ci ilədək burada daha 700 binanın tikilməsi, həmçinin ümumilikdə 50 hektar sahəni əhatə edən aypara şəklində nadir süni yarımadanın yaradılması nəzərdə tutulub. Bu layihədə dünyanın aparıcı mehmanxana şəbəkələrinin hotelləri, ticarət mərkəzləri, yaxtalar üçün dayanacaqlar, 40 mindən çox tamaşaçı tutumu olan konsert meydançası yer alacaq.

"Sea Breeze"də həyata keçirilən işlər həm də mühüm sosial rol oynayır, yeni iş yerlərinin açılmasına töhfə verir. Hazırda kompleksdə 6560 nəfər işlə təmin edilib və gələcəkdə bu rəqəmin xeyli artırılması nəzərdə tutulur. Burada yatırılan investisiyaların ümumi həcmi artıq 3 milyard dollar təşkil edir, yaxın beş ildə isə daha 5 milyard dollardan çox sərmayələrin cəlb edilməsi planlaşdırılır. 2024-cü ilin yekunlarına görə, "Sea Breeze" ölkə iqtisadiyyatına mühüm töhfə verərək Azərbaycan Respublikasının ən iri vergiödəyiciləri sırasında yer alıb.

***AZƏRTAC***

# Azərbaycanın pravoslav xristian icmasına

**Hörmətli həmvətənlər!**

Sizi və Azərbaycanın bütün xristian icmasını müqəddəs Pasxa bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzularımı yetirirəm.

Zəngin tolerantlıq ənənələrinə malik Azərbaycanda tarixin heç bir dönəmində din və məzhəb zəminində ayrı-seçkilik halları olmamış, etnomədəni müxtəliflik günümüzədək qorunub saxlanılmışdır. Cəmiyyətimizdə qarşılıqlı hörmətə və etimada əsaslanan birgəyaşayış mədəniyyətinin, mütərəqqi ictimai-əxlaqi dəyərlərin təbliği və təşviqi dövlət siyasətinin başlıca istiqamətlərindəndir.

Bu gün milli-mənəvi həmrəyliyin və nümunəvi dözümlülük mühitinin hökm sürdüyü cəmiyyətimizdə xristian icmasının özünəməxsus yeri vardır. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, xristian etiqadlı vətəndaşlarımız ölkənin ictimai-siyasi və mədəni həyatında layiqincə təmsil olunur, doğma evimiz Azərbaycanın inkişafına və tərəqqisinə əhəmiyyətli töhfələr verirlər.

**Əziz dostlar!**

Pasxa bayramı yeniliyi, dirçəlişi, mərhəmət və xeyirxahlıq duyğularını təcəssüm etdirir. Bu nurlu gündə bir daha hər birinizə xoş bayram ovqatı, ailələrinizə sevinc və rifah arzulayıram.

**Bayramınız mübarək olsun!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 aprel 2025-ci il**

# Türkiyə Böyük Millət Məclisinin millət vəkili cənab Mövlud Çavuşoğluya

**Hörmətli cənab Çavuşoğlu!**

Ailənizə üz vermiş ağır itki – atanız Osman Çavuşoğlunun vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu üzüntülü anlarda dərdinizə şərik çıxır, Sizə və ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verir, səbir diləyirəm.

**Allah rəhmət eləsin!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 aprel 2025-ci il**

# Hikmət Hacıyevin diplomatların Qarabağa səfəri barədə paylaşımı

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin Xankəndiyə və Şuşaya səfəri ilə bağlı "X" sosial şəbəkə hesabında paylaşım edib.**




"Akkreditə olunmuş diplomatik korpusun nümayəndələri ilə Füzuli hava limanına eniş etdik. Şuşaya və Xankəndiyə gedirik. Biz Xankəndidəki Qarabağ Universitetinin tələbələrinə baş çəkəcəyik. Qarabağın və Şərqi Zəngəzurun münaqişədən sonra yenidən qurulması və transformasiyası heyranedicidir!", - paylaşımda qeyd edilir.

***XQ***

# Diplomatik korpusun nümayəndələri Xankəndidə və Şuşada

**Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri Xankəndi və Şuşa şəhərlərinə səfər edib.**





Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin müşayiət etdiyi xarici diplomatlar əvvəlcə Qarabağ Universitetinə gəliblər.

Hikmət Hacıyev nümayəndə heyətinə Ermənistan–Azərbaycan münaqişəsinin tarixi kökləri, Ermənistanın işğal etdiyi ərazilərdə törətdiyi müharibə cinayətləri barədə məlumat verib. Bildirib ki, Azərbaycanın apardığı düzgün və uğurlu siyasət təkcə münaqişəni sonlandırmadı, eyni zamanda, uzun illər işğal altında qalan torpaqlarımızın geri qayıtması ilə nəticələndi. Bu illər ərzində müharibə cinayətləri törətmiş şəxslər hazırda şəffaf və açıq məhkəmə prosesinə cəlb olunublar. O qeyd edib ki, Azərbaycan beynəlxalq prinsiplərə əsaslanaraq özünün ərazi bütövlüyünü və suverenliyini bərpa edib, Qarabağ və Şərqi Zəngəzur artıq yeni inkişaf mərhələsinə qədəm qoyub.

Qarabağ Universitetinin rektoru Şahin Bayramov çıxışında rəhbərlik etdiyi təhsil ocağı, tədris prosesində əldə edilən uğurlar və qarşıya qoyulan hədəflərdən danışıb.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov bildirib ki, işğaldan azad olunmuş ərazilərdə geniş tikinti-bərpa işləri həyata keçirilir. Yeni müasir yollar çəkilir. Yaşayış məntəqələri elektrik enerjisi, içməli su və təbii qazla təmin edilir. Xankəndi şəhəri və digər yaşayış məntəqələrində sahibkarlar üçün əlverişli mühit formalaşdırılır. Artıq Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonları ərazisində 7 yaşayış məntəqəsində minlərlə insanın daimi məskunlaşması təmin edilib.



Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov çıxışında işğaldan azad olunan ərazilərdə həyata keçirilən minatəmizləmə əməliyyatları və tikinti-quruculuq işləri barədə məlumat verib.

Diplomatik korpusun nümayəndələri sonra Qarabağ Universiteti ilə tanış olub, tədris binası, kitabxana, auditoriya, laboratoriya və sərgi zalına baxış keçirib, incəsənət fakültəsinin müəllim və tələbələrinin ifasında musiqi dinləyiblər. Xarici diplomatlar Xankəndi şəhərinin mərkəzi hissəsi ilə də tanış olub, Zəfər meydanının qarşısında xatirə şəkli çəkdiriblər.

Sonra diplomatik korpusun nümayəndələri Azərbaycan tarixinin və mədəniyyətinin simvolu olan Şuşa şəhərinə səfər ediblər.

Azərbaycan Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov qonaqlara şəhərin tarixi, işğal dövründəki vəziyyəti və hazırda aparılan quruculuq işləri barədə danışıb. Bildirib ki, 30 ilə yaxın işğal dövründə Şuşa şəhərindəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə başlanılıb.

Diplomatik korpusun nümayəndələri şəhərin Qarabağ küçəsində həyata keçirilən tikinti işləri ilə tanış olublar. Məlumat verilib ki, bu küçədə dövlət-özəl tərəfdaşlığı layihələri çərçivəsində ümumilikdə, müxtəlif təyinatlı 10 binanın inşası aparılır. Tikinti işləri şəhərin ümumi görünüşünə uyğun həyata keçirilir.

Nümayəndə heyəti sonra Aşağı Gövhər Ağa məscidinə gəlib. Məlumat verilib ki, Şuşa şəhəri işğal altında olduğu illərdə erməni vandalizminə məruz qalmış Aşağı Gövhər Ağa məscidində aparılan bərpa işləri başa çatıb. XIX əsrdə Kərbəlayi Səfixan Qarabağinin memarlığı ilə ərsəyə gələn Aşağı Gövhər Ağa məscidi İbrahim xanın qızı Gövhər Ağa tərəfindən Şuşada inşa etdirilmiş məscidlərdən birincisi sayılır.

Səfər çərçivəsində xarici diplomatlar Şuşa şəhərində birinci yaşayış kompleksində yaradılan şəraitlə də tanış olublar. Bildirilib ki, təməli 2021-ci ildə qoyulan yaşayış kompleksinin açılışı 2024-cü il mayın 10-da olub. İyirmi üç binadan ibarət yaşayış kompleksində sakinlərin rahat yaşaması üçün hər cür şərait yaradılıb.

***XQ***

# Azərbaycanın həqiqətə söykənən diplomatiyası

**Bakıda akkreditə olunmuş diplomatik korpusların nümayəndələrinin Qarabağa səfəri illərlə eşidilməyən Azərbaycan həqiqətlərinin dünyaya birbaşa, canlı şahidlərin dili ilə çatdırılması baxımından mühüm hadisədir.**



2025-ci il 18 aprel tarixində Bakıda akkreditə olunmuş diplomatik korpus nümayəndələrinin Qarabağa, xüsusilə də Xankəndi və Şuşa şəhərlərinə səfəri — Azərbaycan diplomatiyasının həm informasiya müharibəsində, həm də regional sabitliyin möhkəmləndirilməsində əldə etdiyi yeni uğurun təcəssümüdür. Bu səfər təkcə diplomatik jest deyil, həm də 30 illik münaqişə sonrası yaranmış reallıqların dünya ictimaiyyətinə nümayiş etdirilməsi baxımından strateji və simvolik əhəmiyyətə malikdir və Azərbaycanın 30 illik münaqişədən sonra əldə etdiyi tarixi Qələbəni, onun yaratdığı yeni reallıqları dünya ictimaiyyətinə göstərmək baxımından vacibdir.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev səfərlə bağlı “X” sosial şəbəkə hesabında etdiyi paylaşımda bildirib: “Akkreditə olunmuş diplomatik korpusun nümayəndələri ilə Füzuli Hava Limanına eniş etdik. Şuşaya və Xankəndiyə gedirik. Biz Xankəndidəki Qarabağ Universitetinin tələbələrinə baş çəkəcəyik. Qarabağın və Şərqi Zəngəzurun münaqişədən sonra yenidən qurulması və transformasiyası heyranedicidir!”. Bu cümlələr sadə bir səfərin deyil, Azərbaycanın diplomatik strategiyasının uğurla gerçəkləşdiyini göstərən dərin siyasi mənzərənin xəbərçisidir.

Diplomatik protokol çərçivəsində bu səfər iki istiqamətdə önəmlidir. Birincisi, beynəlxalq münasibətlərdə diplomatik korpusun üzvlərinin bir bölgəyə səfəri həmin ərazidəki statusun, təhlükəsizlik şəraitinin və idarəçilik reallıqlarının tanınması anlamına gəlir. Bu baxımdan Xankəndi, Şuşa və digər Qarabağ şəhərlərinə edilən səfər Azərbaycanın ərazi bütövlüyünün faktiki olaraq beynəlxalq səviyyədə qəbul olunmasının diplomatik siqnalı idi. İkincisi, belə səfərlər səfər edilən dövlətin daxili sabitliyini və məsuliyyətli dövlət idarəçiliyini nümayiş etdirmək üçün mühüm fürsət yaradır. Azərbaycan bu fürsətdən maksimum səmərə ilə istifadə edir.

Prezidentin köməkçisi Hikmət Hacıyev Xankəndidə keçirilən görüş zamanı bildirib ki, Azərbaycan yalnız münaqişəni sonlandırmayıb, eyni zamanda, Cənubi Qafqazda sülh və barışın təməlini qoyub. Onun sözləri ilə desək: “Keçid ədaləti hər post-münaqişə vəziyyətində olduqca vacibdir. Azərbaycan xalqına qarşı törədilmiş cinayətlərin, o cümlədən müharibə cinayətləri və insanlığa qarşı cinayətlərin icraçıları artıq qanun qarşısında cavab verirlər... Azərbaycan Cənubi Qafqaz regionunda beynəlxalq hüquq və ərazi bütövlüyü prinsiplərinə əsaslanan yeni status-kvo yaradıb”. Bu bəyanatlar göstərir ki, Azərbaycan Qələbədən sonra intiqam deyil, ədalət və hüquqi məsuliyyət prinsipi ilə hərəkət edir. Bu isə ölkənin demokratik legitimliyini və beynəlxalq hüquqa sadiqliyini gücləndirən əsas sütunlardan biridir. Azərbaycan bu mərhələdə keçid ədalətinə xüsusi önəm verir. Münaqişə dövründə xalqımıza qarşı törədilən cinayətlərə dair aparılan məhkəmə araşdırmaları, hüquqi prosedurlar və ədalətin təmin olunması istəyi Azərbaycanın beynəlxalq hüquqa və insan hüquqlarına bağlılığını nümayiş etdirir.

Diplomatik nümayəndələrin Qarabağa səfəri informasiya müharibəsi baxımından da strateji əhəmiyyət daşıyır. Müasir dövrdə münaqişələr təkcə cəbhə xəttində deyil, informasiya məkanında, yəni ictimai rəyin formalaşdığı virtual cəbhələrdə də aparılır. Bu səbəbdən informasiya, xüsusilə də obyektiv, yerində müşahidəyə əsaslanan informasiyalar siyasi və diplomatik gücün ayrılmaz hissəsinə çevrilib.

İnformasiya müharibəsi – faktların manipulyasiyası, yalan təbliğat, saxta xəbərlərin yayılması və ictimai rəyə təsir etmək üçün müxtəlif informasiya vasitələrindən istifadə olunmalıdır. Bu müharibə ənənəvi silahlı münaqişələrdən fərqli olaraq zehniyyətlərin və reallıqların formalaşdırılması üzərində qurulur. Bu mənada, informasiya artıq “iti gücə”, – yəni görünməyən, amma təsirli və dağıdıcı bir vasitəyə çevrilib. Azərbaycan 30 ildən artıq müddətdə Ermənistanın informasiya müstəvisində apardığı sistemli və məqsədyönlü dezinformasiya siyasətinə qarşı təkbaşına mübarizə aparmaq məcburiyyətində qalıb.

Dünya ictimaiyyətinə münaqişənin reallıqlarını çatdırmaq üçün kifayət qədər kanallar olmadığından, erməni diasporlarının lobbiçilik imkanları və təbliğat maşını Azərbaycanın səsini çox zaman kölgədə qoyub. Bu səbəbdən obyektiv müşahidəçilərin bölgəyə səfəri təkcə siyasi jest deyil – informasiya balansını bərpa edən mühüm addımdır.

Bu səfərlə Azərbaycan, ilk dəfə olaraq, diplomatik korpus nümayəndələrini Qarabağ reallıqları ilə birbaşa və fiziki ünsiyyətə gətirə bildi. Xarici diplomatlar artıq Azərbaycanın hansı əzab-əziyyətlərdən keçdiyini, Qarabağda qarşılaşdığı dağıntıları, etnik təmizləmələri, dini və mədəni irsə qarşı törədilən vandalizmi, minalanmış əraziləri və məcburi köçkün faciələrini təkcə rəqəmlərdən və hesabatlardan öyrənmir, həm də öz gözləri ilə görürlər. Bu isə informasiya baxımından təhrif olunmuş təsəvvürlərin düzəldilməsi, yanlış stereotiplərin dağıdılması və obyektiv həqiqətlərin diplomatik diskursda yer alması deməkdir. Bu səfərlərin əsas nəticələrindən biri də xarici diplomatların öz ölkələrinə və ya aid olduqları beynəlxalq təşkilatlara verəcəkləri hesabatlardır. Onların müşahidələri əsasında hazırlanacaq sənədlər, danışıqlar zamanı söyləyəcəkləri ifadələr, konfrans və məruzələrdə bölüşəcəkləri təəssüratlar artıq Azərbaycan həqiqətlərinin beynəlxalq tribunaya çıxması anlamına gəlir. Bu zaman Azərbaycan dövləti artıq yalnız bir tərəf kimi deyil, şahidlərin dəstəyinə malik bir reallığın daşıyıcısı kimi çıxış edir. Məhz bu səbəbdən informasiya müharibəsində canlı şahidlik – fotolar, videolar, təəssüratlar və beynəlxalq ekspert rəyləri ilə müşayiət olunan diplomatik tanıma – ən güclü arqumentə çevrilir.

Qarabağa səfər edən diplomatların yaydığı informasiya yumşaq gücün bir forması olaraq Azərbaycanın beynəlxalq nüfuzunu gücləndirir. Bu səfərlər nəticəsində formalaşan pozitiv imic və hüquqi əsaslı mövqe Azərbaycanın regionda barış, inkişaf və yenidənqurma yönümlü diplomatiyasını dəstəkləyir. Bundan sonra beynəlxalq auditoriyada Qarabağ haqqında danışarkən Azərbaycan sadəcə, “iddiaçı tərəf” kimi deyil, dəqiq müşahidə edilən reallıqlarla çıxış edən və sülh quruculuğunda lider mövqedə dayanan bir dövlət kimi qəbul olunacaq. Bu isə informasiya müharibəsində qazanılmış strateji üstünlükdür.

H.Hacıyevin vurğuladığı kimi, Qarabağ və Şərqi Zəngəzur artıq yenidənqurma mərhələsinə qədəm qoyub. Bu, təkcə infrastruktural layihələr deyil, eyni zamanda, sosial, iqtisadi və humanitar inkişafın strateji planlaşdırılmasıdır. Regionun “yaşıl enerji zonası”na çevrilməsi, təmiz texnologiyaların tətbiqi, dayanıqlı kənd təsərrüfatı və turizmin inkişafı Azərbaycanın Qarabağda yaratmaq istədiyi müasir və inklüziv cəmiyyətin təzahürüdür. Diplomatik korpus nümayəndələrinin bu prosesləri yerində izləməsi həm də Azərbaycanın beynəlxalq tərəfdaşlıq çağırışının bir hissəsidir.

Azərbaycan bu səfərlə dünyaya bir daha göstərdi ki, Cənubi Qafqazda formalaşmış yeni status-kvo artıq dəyişməz reallıqdır. Bu status-kvo beynəlxalq hüquqa, dövlətlərin ərazi bütövlüyünə və qarşılıqlı əməkdaşlıq prinsipinə əsaslanır. Bu isə bölgədə uzunmüddətli sülhün yeganə yoludur. Diplomatik nümayəndələrin səfəri həm də bu yeni status-kvonu tanımağın və ona uyğun davranmağın vacibliyinə işarədir. Diplomatların Qarabağ səfəri Azərbaycanın təkcə hərbi deyil, eyni zamanda, diplomatik və siyasi zəfərini möhkəmləndirən addımdır. Onlar artıq yalnız kağız üzərində deyil, real faktlar və görüntülərlə Azərbaycan həqiqətlərinin şahidləridir. Bu da gələcəkdə beynəlxalq müstəvidə Azərbaycanın mövqeyini daha da gücləndirəcək. Azərbaycan dövlətinin məsuliyyətli yanaşması, ədalətli və humanist siyasəti, post-münaqişə mərhələsində sərgilədiyi yenidənqurma və reinteqrasiya səyləri diplomatik səviyyədə yüksək qiymətləndirilir və bu səfər isə həmin qiymətləndirmənin canlı ifadəsidir.

***Şəbnəm ZEYNALOVA,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Müsyö Be xüsusi mükafata “layiqdir”

## *Fransa parlamentarisinin ermənipərəstliyinə sözardı*

**Qondarma “erməni soyqırımı”nın növbəti ildönömü yaxınlaşdıqca, dünyanın ermənipərəstləri özlərinin hay təəssübü notlarını saxta iddianın musiqisinə kökləyirlər. Bu yolu tutan “musiqişünaslardan” biri də Avropa Parlamentinin Nikola Be adlı fransalı deputatıdır. Onun “Armenpress”ə dediklərindəki cəfəng məqamları diqqətə çatdıracağıq. Ancaq əvvəlcə bir nüansa nəzər salaq.**

Məlumdur ki, AP həmişə Azərbaycana qarşı qərəzli mövqe tutub. O da həqiqətdir ki, bu qurum ermənipərəstliyi özünün fəaliyyət istiqamətinə çevirib. İndiyədək AP-nin ölkəmiz əleyhinə çıxardığı qətnamə adlı lakmus kağızları da fikrimizin sübutudur. Eyni zamanda, təsisatın ayrı-ayrı deputatlarının erməni təəssübü üzrə, bir növ, ixtisaslaşdığını söyləyə bilərik. Bu mənada, N.Be hələ “körpə” sayıla bilər.

Beləliklə, “körpə” fransız deyib ki, 1915-ci ilin “erməni soyqırımı”ndan sonra Türkiyənin və Azərbaycanın haylara qarşı ambisiyaları dəyişməyib və Ermənistan yenə eyni təhdid və çağırışlarla üzləşib. “Bir fransız və avropalı olaraq deyə bilərəm ki, biz və Avropa İttifaqı Ermənistanla həmrəyiy və bu, paylaşdığımız ümumi sivilizasiyaya əsaslanır”, – deyən Benin fikirlərinə görünməmiş həyasızlıq tonu verməkdən çəkinmədiyi aşkardır.

Ermənistan erməni xalqı ilə Aİ arasında əlaqə yaradan ilk xristian ölkəsi imiş. Görəsən, bu, necə yanaşmadır? Cavab tapmaq çətindir. Ancaq cənab Benin sərsəmləmələri diqqətə çatdırdıqlarımızla məhdudlaşmır. Onun sözlərinə görə, Ermənistan geosiyasi mövqeyinə görə daim qonşu Azərbaycan və Türkiyə tərəfindən hücuma məruz qalır(?).



“Erməniləri heç vaxt təklikdə qoymayın”, – deyə vay-şivən qaldıran fransız deputat onu da bildirib ki, “erməni soyqırımı”ndan 105 il keçdikdən sonra bu gün dünya eyni problem və təcavüzün təzahürlərinin sahibidir. Hər halda, Benin dilə gətirdiklərinə nəzərən, söhbətin Qarabağda ermənilərə qarşı etnik təmizləmə cəfəngiyyatından getdiyini təxmin etmək çətin deyil. Deməli, deputatın növbəti fikirlərinin beynəlxalq hüquq normalarına tüpürmək olduğunu müəyyənləşdirmək də asandır: “Artsax əsrlər boyu Ermənistan ərazisi olub. İndi oradakı kilsələr, müqəddəs yerlər məscidə çevrilir. Bu, erməni kimliyinin məhv edilməsidir. Avropa strukturları, bəzi ölkələr var ki, öz iqtisadi və siyasi maraqlarına əsaslanırlar. Biz Ermənistanı ciddi şəkildə dəstəkləyərək, bu tendensiyalara məhəl qoymur, erməni xalqını narahat edən məsələləri gündəmə gətiririk”.

Göründüyü kimi, N.Be beynəlxalq hüququ ənənəvi erməni təbliğat aparatından çıxma “şparqalka”ları təkrarlamaqla heçə sayır. Əslində, zavallı fransızın bildirdiklərinin çox qismi yenilik deyil. Yəni, onun istər bəzi ölkələrin maraqları naminə, guya, Azərbaycanın hərəkətlərinə susqun yanaşdıqlarına, istərsə də Fransanı ermənipərəstlik baxımından, necə deyərlər, kontrabasda tək olduğuna dair dediklərinin oxşarını başqa hay təəssübkeşlərinin dilindən də eşitmişik. Ancaq Benin ümumi həyasızlıq ritorikasına gətirdiyi “yenilik” var. Sən demə, Azərbaycan Qarabağdakı kilsələri məscidə çevirirmiş. Hesab edirik ki, fransız parlamentarinin bu ağ yalanı Ermənistan rəhbərliyi tərəfindən xüsusi “qiymətləndirilməlidir”. Təklif edirik ki, gənc Beyə qol-budaqlı cəfəng təfəkkür tərzinə görə Andranikin kəsilmiş qulağının mumiyası, yaxud “ütülmüş Xoren” mükafatı verilsin. Axı adam əməlli-başlı “əziyyət” çəkir. Heç şübhəsiz, onun dini təəssüblü ermənipərəstliyə söykənmiş “əziyyəti” dünyanın, xüsusən Avropanın xristianlığa sitayiş edən çoxluğunu anti-Azərbaycan ritorikasına qarşı alətə çevirməyə hesablanmış ekstremist məqsəd güdən təfriqə cəhdidir.

“Azərbaycanın erməni əsirləri azad etməməsinin”, guya, Ermənistana qarşı təcavüzün növbəti təzahürü olduğundan dəm vuran Benin sözlərinə görə, Ermənistanla Azərbaycan arasında ərazi münaqişəsi yoxdur, ancaq sərhədlərlə bağlı mübahisələr var. “Artsax xalqı” isə öz ərazisində təhlükəsiz yaşamalıdır. Həqiqətən, Ermənistanın Azərbaycana qarşı ərazi iddiası olmasaydı, bu gün Qarabağın erməni sakinləri bölgədə yaşayardılar. Ancaq Benin yanaşması haqqında söz açdığı, ayrıca əlahiddə xalq kimi göstərdiyi Qarabağ ermənilərinin vaxtilə ömür sürdükləri ərazinin beynəlxalq hüquq nöqteyi-nəzərdən Azərbaycana məxsusluğunu danmağı rəhbər tutur. Onu deyə bilərik ki, vicdansızların fərqləndirici nişanları olmur. Onlar elə belələrindən çıxır.

Nəhayət, fransız parlamentari “sözünün Mustafasını” deyə bilib. Onun dediyindən belə çıxır ki, Azərbaycan və Ermənistan arasındakı sülh sazişində ermənilərin təhlükəsizliyi mühüm ilkin şərt olmalıdır. Belə getsə, cənab Beni Ermənistan müxalifətinin görkəmli nümayəndəsi kimi qələmə vermək üçün “əsaslar” yaranacaq. Görəsən, adam barış sazişinin mətninin rəsmi İrəvan tərəfindən təsdiqləndiyini və həmin mətndə Qarabağ erməniləri ilə bağlı bir nöqtənin də olmadığını bilmir? Fikrimizcə, ermənipərəstliyə yeni start vermiş fransız deputat durumdan xəbərdardır. Onun səsləndirdiyi növbəti fikirlər də bunun təsdiqidir.

Benin dedikləri, habelə, sülh müqaviləsi ətrafında anti-Azərbaycan ritorikasını körükləməyə çalışanların dilə gətirdiklərinin təkrarıdır: “Əlbəttə, Ermənistan hökuməti mübahisəli məsələlərdən yayınaraq, sülh müqaviləsini həyata keçirməyə çalışır. Bu anlaşılandır. Lakin Azərbaycan yeni tələblər irəli sürür, prosesə mane olur və hətta Ermənistanın ərazi bütövlüyünə iddialar irəli sürür. Aydındır ki, Azərbaycan yeni ilkin şərtlərlə, əslində, sülh müqaviləsini imzalamaq istəmir. Saziş isə iki mühüm və toxunulmaz komponentə əsaslanmalıdır. Birincisi, Ermənistanın ərazi bütövlüyü, ikincisi erməni xalqının təhlükəsizliyi”.

Qeyd edək ki, son zamanlar anti-Azərbaycan fikirlərin sayının artdığını müşahidə edirik. İstər-istəməz, belə yanaşmalarla Ermənistanın əldə edilmiş razılıqdan boyun qaçırması üçün bəhanə hazırlamaq məqsədi güddüyünə dair rəy formalaşır. Görünür, “plan” belədir: Fransa hakimiyyətinin əli ilə hərəkətə gətirilən Be kimi deputatlar ölkəmizi mənfi yöndə təqdim edirlər. Yaranmış kütləvi antipatiya fonunda rəsmi İrəvan bildirə bilər ki, dünyanın qəzəbini qazanmış ölkə ilə barışa gəlmək mümkünsüzdür.

Heç şübhəsiz, belə sərsəm gedişlər Yelisey sarayının kluarlarında hazırlanır. Beyə bənzər deputatlar isə Fransa administrasiyasının dövlət idarəçiliyi “inqubatorlarında” yetişdirilir. Avropalı parlamentarinin yenidən xristian təəssübkeşliyinə söykənərək ideya qismində dilə gətirdiyi digər məsələlərin də Fransa prezidenti Emmanuel Makronun komandasının aciz direktivləri olduğu şübhəsizdir. O direktivlər ki, Ermənistanı illüziya bataqlığında bacardıqca çox boğmaq mahiyyətini daşıyır. Məsələn, cənab Be bildirir ki, Ermənistan həmişə sülh arzuladığı üçün beynəlxalq ictimaiyyətin və təşkilatların qeyd-şərtsiz dəstəyinə arxalana bilər. Onun sözlərinə görə, “Fransa və xristian dəyərlərini qorumağa sadiq Avropa ölkələri Ermənistanla həmrəydir”. Ən başlıcası isə Ermənistan – Avropa İttifaqı münasibətlərindən danışan fransız parlamentari vurğulayıb ki, avropalılar, xüsusən fransızlar sivilizasiya və xristian dəyərlərini nəzərə alaraq, İrəvana hər zaman hörmət və ehtiram göstərilməsini istəyirlər. Buna görə Ermənistanla siyasi, iqtisadi, maliyyə və ticarət əlaqələri növbəti illərdə xeyli gücləndirilməlidir. Hər halda, Benin səsləndirdiyi fikirlərdə İrəvanın daha çox silahlandırılmasının vacibliyi əsas yer tutur.

Onu da bildirək ki, AP-nin fransalı deputatının Ermənistanla Aİ arasında viza rejiminin liberallaşdırılması baxımından əsaslandırması da özünün həm illüziya motivi, həm də populizmi ilə diqqət çəkir. Guya ki, sözügedən liberallaşma Avropa xalqları ilə ermənilər arasında daha sıx əlaqələrə töhfə verməli imiş: “Ümumi sivilizasiya əsasımız olduğuna görə, viza rejiminin liberallaşdırılmasının tərəfdarıyıq. Eyni zamanda, təhlükəsizlik şəraiti yaradırıq. Amma bütün bunlar təkcə sözdə deyil, həm də əməldə nümayiş etdirilməlidir. Avropa xalqları ilə ermənilər arasında sərbəst gediş-gəlişin asanlaşdırılması işin xüsusilə mühüm tərkib hissəsinə çevrilməlidir. Fransadakı erməni icmasının timsalında bizim yaxşı təcrübəmiz var”.

Sonda bir məqamın da üzərində dayanaq. Benin və sərsəm fikirlər səsləndirən başqa deputatların, eləcə də “köhnə qitə”nin digər vəzifə və status sahiblərinin ermənipərəst baxışlarını tirajlamalarının Cənubi Qafqazda sülh mühitinin qərarlaşmasına mane olduğunu vurğuladıq. Eləcə də bu “mahiyyətin” İrəvanın illüziyasını dərinləşdirməyə şərait yaratdığından söz açdıq. Hesab edirik ki, Beyə bənzər yarımçıq təfəkkürlülərin gündəmi məşğul etmək üçün uydurduqları tezislər hay rəhbərliyinin reallıq hissini tamamilə itirməsinə dəstəkdir. Reallıq hissinin itirilməsi isə Ermənistan adlı dövlətin gələcək mövcudluğu baxımından böyük riskdir. Əgər avropalı müsyö “be”lərin istəkləri budursa, əllərindən gələni ardlarına qoymasınlar.

***Ə.RÜSTƏMOV***
***XQ***

# “Dünyanın kəsişməsi” – İrəvanın qondarma layihəsi

(əvvəli 1-ci səhifədə)



Haşiyə çıxaq ki, “Dünyanın kəsişməsi” Zəngəzur dəhlizi ideyasının ermənisayağı qavramının məhsuludur. Həmin qavrama görə, Azərbaycanın təşəbbüsü Ermənistanın ərazi bütövlüyünü və suverenliyini təhlükə altına alır, sərhəd toxunulmazlığına xələl gətirir. Müvafiq olaraq, “Dünyanın kəsişməsi” rəsmi İrəvan üçün həm də ölkəmizin, guya, işğalçı olduğunu sübuta yetirmək vasitəsidir. Yəni ideyanın beynəlxalq miqyasdakı təbliğatına bu ritorika hakim kəsilib və belə yanaşma “Dünyanın kəsişməsi”nin ancaq siyasi əhəmiyyətini vurğulayır. Hayların qaldırdıqları vay-şivən bu “əhəmiyyəti” ön plana daşıyır. Halbuki, ön planda dayanmalı olan iqtisadi səmərədir.

Nəticə etibarilə, Ermənistan özünün ərazi bütövlüyü və suverenlik klişesi ilə Zəngəzur dəhlizinin real iqtisadi paradiqmasını heçə endirmək yolunu tutur. Baxmayaraq ki, Azərbaycan rəhbərliyi ölkəmizin Ermənistanın sərhədlərini dəyişdirmək niyyətində olmadığını dəfələrlə nəinki vurğulayıb, eyni zamanda, müxtəlif təmaslar zamanı ölkənin yurisdiksiyasına xələl gətirməyəcək formullar irəli sürüb. Amma qarşı tərəf bununla razılaşmayıb.

Bəli, erməni iqtidarının neçə vaxtdır müraciət etmədiyi “Dünyanın kəsişməsi”nə yenidən üz tutmasını təkcə Paşinyanın açıqlaması sübuta yetirmir. Hay hakim komandasına bu “işdə” xaricdəki havadarları da kömək göstərirlər. Bu, öz yerində. Başlıca məqam “Dünyanın kəsişməsi”nin nə üçün məhz indi ortaya atılmasıdır.

Diqqət yetirək, erməni avantürizminin məhsulu olan təşəbbüs regional kommunikasiyaların açılması, daha dəqiq desək, blokadadan çıxarılması ilə əlaqədar gündəmə gətirilir. Əslində, Ermənistan rəhbərliyi məlum olan məsələ üzərinə yenidən qayıtmaq yolunu tutur. Paşinyan və tərəfdarları Azərbaycanın sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü iki şərtin ətrafında gəzişdikləri, müxtəlif manipulyativ hiyləgər təkliflər səsləndirdikləri kimi, bu istiqamətdə də eyni yolu tuturlar. Belə yanaşma mövzunu mahiyyətdən uzaq qeyri-real təkliflərlə gündəmdə saxlamağa hesablanıb. Məqsəd Ermənistanın sülh və əməkdaşlıq xəttinə sadiq, Azərbaycanın isə bundan yayınmaq istəyən, qeyri-konstruktiv dövlət görüntüsünü formalaşdırmaqdır. Bu yolla ölkəmizin iki şərtini də gündəmdən çıxarmaq, əhəmiyyətsizləşdirmək xətti götürülür.

Rəsmi İrəvan populizmi işə salır, Ermənistanı daim təkliflər verən, konfliktdən uzaq durmağa çalışan qiyafəsində təqdim edir ki, Azərbaycanın real yanaşmalarına əhəmiyyətsiz münasibət yaransın. Nikol və tərəfdarları özlərinin destruktiv mövqelərini pərdələməyi də düşünürlər. Daha böyük məqsəd beynəlxalq ictimaiyyətin anti-Azərbaycan köklənişində qalmasıdır.

Ermənistan rəhbərliyinin populizmi çoxtərəflidir. Bunun Azərbaycanın ATƏT-in Minsk qrupunun ləğvi və Ermənistan konstitusiyasına dəyişiklik baxımından meydanda olan təzahürlərindən söz açmışıq. Yəni bildirmişik ki, Paşinyan iqtidarı ən müxtəlif vasitələrlə ölkəmizin irəli sürdüyü iki şərtə qarşı çıxır, beləliklə işğalçılıq və ərazi iddiası üçün hüquqi zəmin saxladığını düşünür. Əvvəldə vurğuladıq ki, “Dünyanın kəsişməsi” də erməni avantürizminin davamı üçün iqtisadi mexanizmdir.

Azərbaycanın məqsədi isə iki gün əvvəl ölkəmizin Xarici işlər naziri Ceyhun Bayramovun da bildirdiyi kimi, Naxçıvana maneəsiz yoldur: “Azərbaycan ümumi kommunikasiyaların açılmasına əlavə olaraq, Qərb bölgələri ilə Naxçıvan arasında əlaqənin qurulmasına xüsusi yanaşma tələb edir. Çünki belə hal yoxdur ki, bir ölkə iki hissəyə parçalanmış olsun. Mən bunun tarixi aspektlərinə toxunmaq istəmirəm. Ermənistan hələ 2020-ci ildə maneəsiz keçid üzrə öhdəlik götürüb (44 günlük müharibəyə son qoyan, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat nəzərdə tutulur – red.) və bu yerinə yetirilməlidir. Azərbaycan üçün bu keçid, sözün əsl mənasında, maneəsiz olmalıdır, heç bir maneə olmamalıdır. Bu elə bir öhdəlik olmalıdır ki, Ermənistanın qanunvericiliyində hər hansı gələcək dəyişikliklər bu vəziyyəti qısa, uzun və ya orta perspektivdə dəyişmək imkanı yaratmasın. Çünki biz bunu bir dəfə yaşamışıq. Sovet dönəmində bizim maneəsiz keçidimiz var idi, amma bu pozuldu və 300 mindən çox əhalisi olan bölgə blokada şəraitində qaldı. Hər hansı siyasi konfiqurasiyanın dəyişməsi elementlərindən asılı olmayaraq, sərbəst və maneəsiz keçidin təmin olunmasını Azərbaycan gözləyir və bu istiqamətdə səylərimiz davam edir”.

Naxçıvana maneəsiz yol Zəngəzur dəhlizi təşəbbüsünün, bu təşəbbüs isə böyük Orta dəhliz ideyasının tərkib hissəsidir. Paşinyanın komandasında Orta dəhliz ideyasının nədən ibarət olduğunu az-çox bilirlər. Anlaşılmayan məqam isə “Dünyanın kəsişməsi”ni bu məsələ ilə əlaqələndirmək, Ermənistanı qlobal dəhlizin mərkəzində təsəvvürə gətirməkdir. Birincisi, rəsmi İrəvanın Orta dəhlizə töhfə baxımından təqdim edəcəyi heç nə yoxdur. Yəni ölkə nə real iqtisadi resursa, nə də xammala malikdir.

İkincisi, Ermənistan otuz ilə yaxın təcavüzkar siyasət yürütməklə regional kommunikasiyaları blokda saxlamış ölkədir. Doğrudur, erməni hakim dairələri işğal edilmiş ərazilərimizi tranzit baxımından istifadə ediblər. Söhbət narkotik tranzitindən gedir ki, bu yolla koçaryanların və sarkisyanların külli-miqdarda vəsait qazandıqları faktdır. İndi belə bir ölkə durub qlobal kommunikasiya habında mərkəzi fiqur iddiasına düşür.

Məlumdur ki, Naxçıvana yol məsələsi 44 günlük müharibənin yekunlarını təsdiqləyən 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda əksini tapıb. Bəyanatın 9-cu bəndində bildirilib: “Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək”.

Qeyd edək ki, N.Paşinyan bu günlərdə üçtərəfli Bəyanatın heç bir yerində Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin məhdudlaşdırılmalı olduğunun yazılmadığını bildirib. Deməli, rəsmi İrəvan çox həyasızcasına bir daha sözügedən sənədə məhəl qoymayacağını açıqlayır. Tipik erməni xislətindən irəli gələn bu yanaşma, eləcə də Nikolun digər dedikləri Naxçıvana yola imkan verməmək üçün ortaya atılmış “Dünyanın kəsişməsi”ni beynəlxalq ictimai rəyə sırımaq üçün fürsət məqsədini daşıyır. Paşinyan bu məqsədlə populist “formul” da düşünüb. Bu “formula” görə, ilk növbədə Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında dəmir yolu əlaqəsi bərpa olunacaqmış. Nikol beynəlmiləl cildə girib barəsində söz açdığı əlaqəyə regional kommunikasiyaların bütün seqmentlərini əlavə edirmiş kimi davranır. Əslində, onun bildirdikləri Ermənistanın Naxçıvana dəmir yolunu şərtlə açmaq istəyinin ifadəsidir. Sən demə, Azərbaycandan Azərbaycana, yəni Naxçıvana Ermənistan ərazisindən qatarlar getdiyi kimi, Ermənistandan Ermənistana yəni Mehridən Yerasxa da qatarlar Azərbaycan ərazisindən keçərək yön almalı imiş.

“Dünyanın kəsişməsi”nə əsaslanmış “formulun” avtomobil yolu seqmentinə gəlincə, Paşinyan bildirir ki, hazırda avtomobil yolu hazır olmadığından, regional kommunikasiyaların tez açılması üçün Laçın–Kornidzor–Marqara marşrutu üzrə hərəkət edilməlidir. Yəni yük daşıyan TIR-lar Azərbaycanın Laçınından Ermənistanın Kornidzoruna daxil olmalı, oradan Türkiyə ilə sərhəddəki Marqaraya yetişməlidirlər. Sanki, 43 kilometrlik Mehri marşrutu üzrə avtomobil yolu çəkmək çətin məsələ imiş. Ancaq hiyləgərlik bununla məhdudlaşmır.

Diqqət yetirək, Nikol Ermənistan ərazisi Mehridən ölkənin digər, özü də Naxçıvan kimi blokadada olmayan ərazisi olan Yerasxa yolu asanlaşdırdığı halda, Laçın–Kornidzor–Marqara marşrutu təklifi ilə ağır tonnajlı yük avtomobillərini dağ yamaclarında hərəkətə gətirməkdən söz açır. Amma onun düşünmədiyi budur: Məqsəd Orta Asiyadan və Çindən daşımaların Türkiyə vasitəsilə Qərbə çatdırılmasıdır. Bu iş hazırda Gürcüstan üzərindən onsuz da həyata keçirilir. Başlıca məqsəd isə daşımaların həyata keçirilməsini maksimum tez zamanda reallaşdırmaq, mövcud istiqamətdə vaxt itkisinin qarşısını almaqdır. Bu baxımdan Naxçıvana yolun alternativi, hər bir halda, yoxdur. Deməli, həmin yol baxımından Azərbaycanın irəli sürdüyü şərt də alternativsizdir. O şərt ki, onun bazasında Ermənistanın 44 günlük müharibə məğlubu olması reallığı dayanır. Yəni ölkə bu şərti həm də üzərinə öhdəlik götürdüyü üçün yerinə yetirməlidir.

Ancaq, necə deyərlər, ayının min oyunu bir armudun başındadır. Ermənistanın hakim komandası “Dünyanın kəsişməsi” və onun müxtəlif “formulları” ilə məhz Naxçıvana quru yoluna imkan vermək istəmir. Paşinyanın təklifi də bundan qaynaqlanır. Hesab edirik ki, rəsmi İrəvanın məqsədi, həmçinin həmin məqsəd naminə tutduğu manipulyativ xətt bəsit mahiyyət daşıdığından kifayət qədər asan oxunur.

Sonda onu da bildirək ki, Ermənistan bütün vasitələrlə Cənubi Qafqazda həm sülh mühitinin formalaşmasına, həm də regionun gerçək real əməkdaşlıq platformasına çevrilməsinə qarşı çıxmağa çalışır. “Dünyanın kəsişməsi” də bu məqsədlə ortaya atılmış ideyadır.

*Ə.CAHANGİROĞLU*
*XQ*

# Budapeşt Brüsselin “hay oyunu”nu pozdu

**Macarıstan Avropa İttifaqının (Aİ) Avropa Sülh Fondu (ASF) vasitəsilə Ermənistana 20 milyon avro məbləğində hərbi yardımın ayrılmasına veto qoyub. Lüksemburqda keçirilən iclasda Aİ-nin xarici siyasət rəhbəri Kaya Kallasın Ermənistana hərbi yardım təklifini Macarıstandan başqa Aİ üzvü ölkələrin xarici işlər nazirləri dəstəkləyiblər.**



Təklif Aİ-yə üzv 27 ölkənin hamısı tərəfindən bəyəniləcəyi təqdirdə qüvvəyə minə bilər. Bununla bağlı Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan bildirib ki, bu məsələ ilə bağlı Aİ ilə danışıqları davam etdirəcək: “Keçən il bu məbləğ 10 milyon avro idi. Bu il isə iki dəfə çoxdur. Biz müsbət qərarın veriləcəyinə ümid edirik”.

Bəli, A.Mirzoyan ümid edir. Macarıstan isə eyni yardımın Azərbaycana da göstərilməsini tələb edir. Əks halda yenə veto qoyacağını bildirir.

Xatırladaq ki, Macarıstan 2024-cü ildə Aİ-nin Ermənistana 10 milyon avroluq hərbi yardımına veto qoymuşdu. O zaman bu ölkənin Xarici və ticarət naziri Peter Siyarto demişdi: “Biz düşünürük ki, Ermənistana ASF-dən 10 milyon yardım ayrılsa, eyni yardım Azərbaycana da verilməlidir”.

Onu da qeyd edək ki, xarici politoloqlar Budapeştin yeni qərarını dəstəkləyir, eyni zamanda, Brüsselin mövqeyini tənqid edirlər. Xüsusilə, professor Attila Hargitai hesab edir ki, yardımların ayrılması zamanı bu və ya digər struktur regionda gedən müharibəni nəzərə alaraq paritetə riayət etməlidir: “Ayrılan vəsait kifayət qədər böyükdür. Hətta Azərbaycanın bu məbləğə ehtiyacı olmasa belə, paritet naminə birtərəfli addımlardan çəkinmək lazımdır”.

O, ASF-nin müharibədə tərəflərdən birinin silahlanması üçün vergi ödəyicilərinin milyonlarla avro vəsaitini ayırmaqla öz adını doğrultmadığını deyib.

Bəs yardım nə üçün nəzərdə tutulub? Diplomatik sənədlərə əsasən, ASF-dən Ermənistana hərbi yardımın məqsədi onun silahlı qüvvələrinin dayanıqlığını artırmaq, habelə böhran və fövqəladə hallarda mülki əhalinin müdafiəsini daha yaxşı təmin etməkdir. Göründüyü kimi, ayrılan vəsait hərbi məqsədlər üçün nəzərdə tutulur. Yəni bu, humanitar yox, hərbi yardımdır. Sülh, sabitlik, təhlükəsizliyə deyil, müharibəyə, Azərbaycanı təxribata çəkməyə xidmət edir.

O da maraqlıdır ki, son zamanlar Bakı ilə İrəvan arasında birbaşa təmasların intensivləşdiyi və bu təmaslar sayəsində müəyyən nəticələrin əldə olunduğu, regional sülhə mane olan məqamların tədricən azaldığı bir vaxtda yardımın yenidən gündəmə gətirilməsi xoş niyyətdən xəbər vermir. Əslində, regionda ikitirəliyə xidmət etməklə gərginliyi artırır. Aİ tərəfindən bu kimi fəaliyyətlər açıq şəkildə birtərəfli və qərəzli xarakter daşıyır, bölgədə “bölücü xətlər” yaratmaq siyasətinə xidmət edir.

İş orasındadır ki, Aİ özü qərəzli qurumdur. Cənubi Qafqazdakı proseslərə yalnız öz maraqları kontekstindən yanaşır, Ermənistanı silahlandıraraq, regional sabitliyin təmin olunmasının qarşısını alır. Təəssüf ki, Aİ hələ də regionda baş verən böhranların və fövqəladə halların Ermənistan tərəfindən törədildiyini görməzdən gəlir. Qurumun müşahidə missiyası isə Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinin erməni bölmələri tərəfindən sistematik atəşə tutulmasına səssiz qalır. Əslində, Aİ missiyası casusluqla məşğul olur, toplanan məlumatları İrəvan və Brüsselə ötürür.

Maraqlıdır ki, regionda sabitliyə və Ermənistanla Azərbaycan arasında etimada töhfə vermək üçün fəaliyyətə başladığını elan edən missiya ötən müddət ərzində qarşısına qoyduğu heç bir hədəfə çatmayıb, əksinə, etimadın yaranmasında əngəl olur, şərti sərhəddə hərbi təxribatlar üçün katalizator rolu oynayır. Şərti sərhəddə atəşkəsin dəfələrlə pozulması da bunun nəticəsidir.

Son vaxtlar haylar tərəfindən şərti sərhəddə təxribat xarakterli hərəkətlərin artması İrəvanın revanşist istəklərini təsdiqləyir.

Regiondakı proseslərdə isə əsas yeri Fransa tutur. Paris öz geosiyasi məqsədlərinə çatmaq üçün Cənubi Qafqazda gərginlik yaratmaqda maraqlıdır. Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı qərəzli mövqe sərgiləyir.

Bu gün Fransa Ermənistanı silahla təmin edir, özünün davamlı anti-Azərbaycan mövqeyi ilə sülh prosesinə xələl gətirir. Paris yaxşı başa düşür ki, sülh sazişinin imzalanması və davamlı sabitlik digər məsələlərlə yanaşı, əsas problemlərin, xüsusilə də Ermənistan konstitusiyasındakı ərazi iddialarının aradan qaldırılmasını, habelə Minsk qrupunun ləğvini tələb edir. Fransa isə sabitlikdə maraqlı deyil. Məqsəd aydındır: İrəvanı şirnikləndirmək, öz tərəfinə çəkmək və sonra əmrlər vermək. Yəni Aİ, bir növ, regionda ara qarışdırmaqla məşğul olur. Aİ tərəfindən Ermənistana 20 milyon avro yardımın ayrılmasının təşəbbüskarı da Fransadır.

Xatırladaq ki, ASF 2021-ci ildə yaradılıb və Aİ-nin blokdan kənara hərbi yardım göndərmək üçün istifadə etdiyi strukturdur. Yarandığı gündən vəsaitlər əsasən Ukraynaya yönəldilib. Lakin 2024-cü ildə 10 milyon avronun Ermənistana köçürülməsi təsdiqlənib. Bu paket əvvəlcə Macarıstan tərəfindən bloklanıb. Budapeşt sonda ölkədə minatəmizləmə əməliyyatlarını dəstəkləmək üçün Bakıya ekvivalent məbləğdə maliyyənin göndərilməsi şərti ilə etirazını geri çəkib.

Hazırda Aİ Macarıstanı yardıma veto qoymamağa inandırmaq üçün əlavə müzakirələr təklif edib. Amma Budapeşt bundan sonra da mövqeyini dəyişməyib. Budapeştin məsələyə belə ayıq yanaşması Aİ-nin ikili standartlarını, eləcə də “Köhnə dünya”nın tez-tez müraciət etdiyi beynəlxalq hüquq prinsiplərinə sadiqliyinin getdikcə daha yersiz olduğunu açıq şəkildə göstərir. Bu, Macarıstanın ölkəmizə qarşı ədalətli mövqeyini təsdiqləyən amildir.



**Mövzu ilə bağlı Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi, politoloq Sultan Zahidov XQ-yə bildirdi:** “Aydın məsələdir ki, Ermənistan bu vəsaitdən öldürücü silah almaq üçün istifadə edə bilər. Bu baxımdan hərbi yardım sülhə xidmət etmir, əksinə, Cənubi Qafqazda yeni münaqişə ocaqları yaradır. Bu dəfə də Macarıstanın Azərbaycana dəstək olduğunu gördük. Özü də qurumun 27-i ölkəsindən yalnız Macarıstan ölkəmizin maraqlarından çıxış etdi”.

S. Zahidov daha sonra qeyd etdi ki, Azərbaycan Prezidenti İlham Əliyev 2014 və 2023-cü illərdə Macarıstanda səfərlərdə olub: “Birinci səfər çərçivəsində iki ölkə arasında strateji tərəfdaşlıq sazişisi, 9 ildən sonra isə Tərəfdaşlıq bəyannaməsi imzalandı. Bu, ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə töhfə verdi. Hazırda ikitərəfli müstəvidə və beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi dəstəkləyirik. Çoxtərəfli platformada, xüsusilə BMT, ATƏT, NATO, Aİ, Şərq Tərəfdaşlığı, Türk Dövlətləri Təşkilatı çərçivəsində iki ölkə arasında davamlı əməkdaşlıq əlaqələri inkişaf etdirilir.

Macarıstan Dağlıq Qarabağ münaqişəsində də Azərbaycanı açıq şəkildə dəstəkləyir. Məsələn, macar şirkətləri Soltanlı yaşayış məntəqəsində tikinti layihələri həyata keçirir. Bu, birgə əməkdaşlığın təzahürüdür.

Budapeşt Bakı ilə enerji sahəsində də əməkdaşlığa böyük əhəmiyyət verir və Avropanın enerji təhlükəsizliyinin təminatında ölkəmizin oynadığı mühüm rolu təqdir edir. Hazırda Azərbaycanın qaz ixrac etdiyi ölkələrdən biri Macarıstandır.

İnanıram ki, Macarıstan və Azərbaycan iki dost və tərəfdaş ölkə kimi bundan sonra da həm ikitərəfli əməkdaşlığı dərinləşdirəcək, həm də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyi bir-birindən əsirgəməyəcəklər”.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Mirzoyanın yanlış təfsirçiliyi

## Erməni nazir indi də Azərbaycan Konstitusiyasının şərhinə girişib

**Ermənistan xarici işlər naziri Ararat Mirzoyan Türkiyə mətbuatına müsahibəsində Azərbaycanla sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli saziş layihəsinin imzalanması prosesi barədə danışıb. O, yenə də əvvəlki fikirlərini təkrarlayıb.**

Əvvəlcə ölkəsinin əsas qanununda Azərbaycana qarşı ərazi iddialarının olması barədə danışan Mirzoyan məsələyə hüquqi şərh verməyə çalışıb. İddia edib ki, bu məsələ ciddi problem yaratmır: "Azərbaycanlı tərəfdaşlarımız daim Ermənistan konstitusiyasına istinad edirlər. Onlar konstitusiyamıza dəyişiklik tələb edirlər. Deyirlər ki, konstitusiyamızda, onun preambulasında bizim Müstəqillik bəyannaməsinə istinad var ki, bu da doğrudur. Onların dediyinə görə, bizim onlara ərazi iddiamız var. Bu, o qədər də doğru deyil, çünki konstitusiyada Müstəqillik bəyannaməsinin yalnız həmin hissələri hüquqi qüvvəyə malikdir. Üstəlik, imzalamaq üzrə olduğumuz sazişdə də bu məsələyə toxunulur. Beləliklə, vəziyyəti tam başa düşmək üçün burada daha ətraflı məlumat verməliyəm".



Erməni nazir iddia edib ki, sülh sazişinə əsasən, tərəflər Sovet İttifaqının dağılması zamanı müttəfiq respublikalar kimi ölkələrimiz arasında mövcud olmuş və sonradan beynəlxalq səviyyədə tanınmış sərhədlərə çevrilmiş sərhədlər daxilində bir-birinin ərazi bütövlüyünü qarşılıqlı olaraq tanıyırlar: "Həmin müddəa Azərbaycan tərəfinin narahatlığını tamamilə aradan qaldırır ki, bu da özlüyündə sazişin mətni üzrə razılığa gəlməyə imkan verir. Eyni zamanda, bu, bizim ideyalarımıza tamamilə uyğundur".

Daha sonra uzun-uzadı təfsirçilik edən nazir əks-arqument gətirməyə çalışıb: "Bu arada bizim də Azərbaycan Konstitusiyası ilə bağlı narahatlıqlarımız var. İcazə verin, bir daha izah edim. Bu, sadəcə, güzgü effekti ilə irəli sürülən iddia deyil. Onların Konstitusiyasında İstiqlal Bəyannaməsinə (Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsi nəzərdə tutulur – S.H.) istinad var. Beləliklə, onlar öz İstiqlal bəyannamələrində müasir Azərbaycan Respublikasının Sovet Azərbaycanının deyil, ondan əvvəl mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu bəyan edirlər. Məlumdur ki, Azərbaycan Xalq Cümhuriyyəti müasir Azərbaycan Respublikasından daha geniş ərazilər üzərində öz suverenliyini elan edib. Onun tərkibinə müasir Ermənistanın suveren ərazilərinin 60 faizdən çox hissəsi daxil idi. O zaman bizim də öz narahatlığımız olduğunu görürük, amma niyə bu məsələni daim gündəmə gətirmirik? Ona görə ki, biz bayaq dediyim kimi, öz konstitusiyamızın nümunəsində olduğu kimi görürük ki, həll yolu sülh müqaviləsindədir. Biz onu imzalayıb problemi həll edirik".

Qeyd edək ki, A.Mirzoyan bu fikirlərini aprelin 11-13-də keçrilən IV Antalya Diplomatiya Forumu çərçivəsində "Cənubi Qafqazda regional əməkdaşlıq üçün çağırışlar və imkanlar" mövzusunda panel müzakirəsində də dilə gətirmişdi. Erməni nazir sanki minnət qoyaraq, oxşar konstitusiya iddialarının Ermənistan tərəfindən də Azərbaycana qarşı qaldırılmasının mümkün olduğunu, lakin İrəvanın belə bir addım atmadığını bildirmişdi.

Mirzoyana cavab verən Xarici işlər naziri Ceyhun Bayramov isə demişdi ki, Azərbaycan Konstitusiyasında Ermənistandan fərqli olaraq hər hansı ərazi iddiası yer almır və əgər belə bir fakt olsaydı, rəsmi İrəvan mütləq bu məsələni qaldırardı.

C.Bayramov vurğulamışdı ki, konstitusiya dəyişikliyi olmadan Ermənistanla sülh sazişinin imzalanması məntiqsizdir. Onun sözlərinə görə, heç bir beynəlxalq razılaşma ölkənin əsas qanununa zidd ola bilməz. Bu baxımdan sülh müqaviləsində Azərbaycanın ərazi bütövlüyü tanınsa belə, o, Ermənistan konstitusiyasına zidd olacağı üçün hüquqi qüvvəsi sual altında qalacaq.

Qeyd edək ki, Ermənistan baş naziri Nikol Paşinyan da ötən il avqustun 31-də keçirdiyi mətbuat konfransında oxşar tezislərlə çıxış etmişdi. Demişdi ki, Azərbaycan Konstitusiyasında Ermənistana qarşı "ərazi iddiaları" var: "Lakin İrəvan Azərbaycan Konstitusiyasının dəyişdirilməsi məsələsini qaldırmır, çünki saziş layihəsində tərəflərin razılaşmanı yerinə yetirməmək üçün öz daxili qanunlarına istinad edə bilməyəcəyi barədə bənd artıq var".

Beləliklə, həm Mirzoyanın, həm də Paşinyanın açıqlamalarından aydın görünür ki, Ermənistan tərəfi oxşar iddialarla çıxış etməyə, bu məsələni yavaş-yavaş gündəmə gətirməyə çalışır. Qarşı tərəfin növbəti dəfə Azərbaycan–Ermənistan normallaşma prosesi, eləcə də bölgədə sülh və təhlükəsizliyin təmin olunması səyləri ilə ziddiyyət təşkil edən belə yanaşması etiraz doğurur. "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında Ermənistana qarşı ərazi iddialarının olması barədə fikir tamamilə yanlışdır. Bu məsələdə Azərbaycan Konstitusiyası ilə Ermənistan konstitusiyası arasında paralellik və bərabərlik aparmaq cəhdi qəbuledilməzdir. Ermənistanın bu arqumentini heç bir beynəlxalq tərəfdaş qəbul etmir və bunun qeyri-ciddi yanaşma olduğunu hər kəs bilir. Hayastanın əsas qanunundan fərqli olaraq, Azərbaycan Konstitusiyasında istinad olunan dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı və 1918-ci il İstiqlal Bəyannaməsində Ermənistana qarşı heç bir ərazi iddiası mövcud deyil. Azərbaycan Xalq Cümhuriyyəti dövründə hansı ərazilərin Azərbaycanın tərkibində olduğu, onların nə zaman Ermənistan tərkibinə qatıldığı isə tarixi faktlardır və bunu danmaq mümkün deyil. Bu məsələ Azərbaycan qanunvericiliyində Ermənistana qarşı ərazi iddialarının olması anlamına gəlmir. Elə məhz bu kimi fikirlərin səsləndirilməsi Ermənistan konstitusiyasına dəyişikliyin sülh sazişinin imzalanmasından öncə baş verdiyinin zərurət olduğunu bir daha vurğulayır.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Fuad ABDULLAYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi, hərbi-siyasi ekspert**

– Ermənistan rəsmiləri son zamanlar hüquqi əsası olmayan bəyanatlarla çıxış edərək 1991-ci il oktyabrın 18-də qəbul olunmuş "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının ikinci maddəsində əksini tapan "Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisidir" ifadəsini Ermənistana qarşı dolayı ərazi iddiasının irəli sürülməsi kimi təsnifatlandırırlar. Qeyd edim ki, Ermənistan tərəfindən səslənən bu cür iddialar ilk növbədə tərəflərin, guya, eyni məsuliyyəti daşıdığını göstərmək cəhdidir və bu bəyanatların hüquqi baxımdan heç bir əsası yoxdur. Çünki Ermənistan konstitusiyasından fərqli olaraq, Azərbaycanın əsas qanununda digər ölkələrin ərazilərinə heç bir iddia yoxdur. Azərbaycanın arqumentləri yalnız xalqın müstəqillik hüququ ilə bağlıdır. Bu məsələdə ölkəmizin mövqeyi aydın və birmənalıdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan heç vaxt hər hansı ölkəyə qarşı ərazi iddialarını öz xarici siyasətinin əsası kimi istifadə etməyib. Ölkəmizin rəsmi sənədləri və bəyanatları hər zaman beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində suverenliyin bərpasına yönəlib. Digər dövlətlərin ərazilərinə dair heç bir istinada yer verilməyib. Buna baxmayaraq, Ermənistan rəsmiləri Azərbaycan Respublikasının varisliyi məsələsini Hayastana ərazi iddiası kimi qələmə verməyə çalışırlar. Ermənistan nümayəndələri bu məsələni sülh müqaviləsinin şərti kimi irəli sürməsələr də, bu cür ritorikanın dövri olaraq ictimai sferada səsləndirilməsi beynəlxalq auditoriya üçün reallığı təhrif edir.

Ümumiyyətlə, bu cür bəyanatlar səsləndirilməzdən əvvəl beynəlxalq hüququn normalarına müraciət olunmalıdır. Məlumat üçün qeyd edim ki, dövlətlərin varisliyi məsələsində nəzərə alınmalı bir neçə əsas konsepsiya mövcuddur.

Bunlardan biri yeni müstəqil dövlət konsepsiyasıdır. Bu konsepsiya varis dövlətin ərazisinin birbaşa sələf dövlətin ərazisi olduğu hallara aiddir. Azərbaycan nümunəsində isə 1991-ci ildə dövlət müstəqilliyi bərpa edilərkən Azərbaycan SSR-nin ərazisi əsas götürülmüşdür. Yəni Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi əsas götürülməmişdir. Bu da o deməkdir ki, varislik məsələsi yalnız dövlətçiliyin bərpasının tarixi və simvolik legitimliyini ifadə edir. Müasir sərhədlərə yenidən baxmaq məqsədi daşımır. Yəni Azərbaycan bununla qonşularına qarşı heç bir iddia irəli sürməyib. Sadəcə olaraq, SSRİ çərçivəsində və 1991-ci ildən sonra beynəlxalq ictimaiyyət tərəfindən tanınmış hüquqi və tarixi sərhədləri daxilində suverenliyini bərpa etdiyini təsdiqləyib.

Üstəlik, beynəlxalq praktikada da göstərilir ki, tarixi varislik ərazi iddiaları ilə eyniləşdirilə bilməz. Deməli, Azərbaycan Xalq Cümhuriyyətinin varisliyini "təhlükə kimi" təqdim etmək cəhdi süni və siyasiləşdirilmiş bir yanaşmadır və bu, sülhə nail olmaq üçün deyil, danışıqlar prosesini uzatmaq məqsədini daşıyır. Qeyd etmək lazımdır ki, bu cür ritorika daha çox siyasi manipulyasiya aləti kimi istifadə olunur. Həqiqət isə budur ki, bununla Ermənistan öz konstitusiyasının preambulasında mövcud olan ərazi iddialarını əsaslandırmağa çalışır.

Sonda onu qeyd edim ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi siyasi ritorikaya deyil, beynəlxalq hüququn prinsiplərinə əsaslanmalıdır. Ermənistan qanunvericiliyində mövcud olan sənədlər onu deməyə əsas verir ki, bu ölkə Azərbaycana qarşı de-yure ərazi iddialarını rəsmiləşdirib və bu, hələ də qalmaqdadır. Qarşılıqlı ərazi iddiaları haqqında bəyanatlar isə iki ölkə arasında yalnız dialoqu çətinləşdirir. Eyni zamanda, danışıqlar prosesinə də mane olur. Zənnimcə, regionda qəti sülhə nail olmaq üçün Ermənistan qanunvericiliyində mövcud olan müəyyən sənədlər ləğv edilməli və ölkənin konstitusiyasının preambulasında ərazi iddiaları ilə bağlı qeydlər dəyişdirilməlidir. Bunlar hamısı beynəlxalq hüquqa və reallığa ziddir. Bütün bunlar aradan qaldırılmalıdır.

### Xuntaçıların məhkəməsində





# Xocalıda dinc insanları öldürən erməni cinayətini boynuna alıb

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, David İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası aprelin 18-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub. İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev əvvəlcə prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib. Sonra zərərçəkmiş şəxslər sərbəst ifadə verib, dövlət ittihamını müdafiə edən prokurorlar, zərərçəkmiş şəxslərin nümayəndələri və müdafiəçilər tərəfindən onlara ünvanlanmış sualları cavablandırıblar.

Zərərçəkmiş şəxs Yaşar Əlməmmədov 1956-cı ildə Xocalı şəhərində anadan olduğunu, orada ailəsi ilə birlikdə yaşadığını bildirib. O, təqsirləndirilən şəxslərdən Bako Sahakyanı, Arkadi Qukasyanı və Madat Babayanı tanıdığını deyib.

Y.Əlməmmədov 1992-ci il fevralın 25-də şəhərin dəmir yolu hissəsində postda olduğunu, saat 20 radələrində Xankəndi istiqamətindən gələn zirehli texnikanın şəhərin ətrafında mövqe tutmağa başladığını, saat 23 radələrində şəhərə hücum edildiyini deyib. Qeyd edib ki, gecə saatlarında Ermənistan silahlı qüvvələri 366-cı motoatıcı alayın iştirakı ilə şəhərə girdikdən sonra o, sakinlərlə birlikdə meşəyə gedib. Erməni hərbçilərin onları atəşə tutmaları nəticəsində çox sayda insan həlak olub.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran Y.Əlməmmədov bildirib ki, fevralın 27-də Pircamal kəndi yaxınlığında onlar girov götürülərək tövləyə aparılıb, bir qədər sonra daha 50 nəfərə yaxın Xocalı sakini oraya gətirilib. Onun sözlərinə görə, əsirlərə misli görünməmiş işgəncə verilib, onu da qarın üstünə uzadaraq döyüblər. Pircamal kəndində iki gün saxlanıldıqdan sonra onlar Xankəndi şəhərinə aparılıb. Daha sonra əsirlər döyülüb işgəncə verilərək martın 1-də Əsgərana gətirilib. Burada polis şöbəsində yanğından mühafizənin rəisi işləmiş Karo adlı erməni dəyənəklə onu huşunu itirənə qədər döyüb. Y.Əlməmmədov 1992-ci il martın 2-də Azərbaycan tərəfinə təhvil verilib.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zərərçəkmiş şəxs əsirlikdə olduğu müddətdə qolunun, barmağının, qabırğalarının, ayağının sındırıldığını və digər xəsarətlər aldığını deyib. Y.Əlməmmədov təqsirləndirilən şəxs Madat Babayanın ona süngü-bıçaqla xəsarət yetirdiyini də bildirərək deyib: "Erməni hərbçilər, şəxsən Madat Babayan özü mənə işgəncə verib. Əsir olan vaxt Madat mənə yaxınlaşdı, "sən türksən" deyib təpiklədi, sonra təhqir etdi. Üstündəki süngü-bıçağı çıxarıb mənə sancdı".

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandırarkən zərərçəkmiş şəxs qeyd edib ki, həmin vaxt Xədicə adlı qadının iki ayağını dizdən aşağı kəsmişdilər: "Xocalıda Axıska türkləri də yaşayırdılar. Madat Babayan, tərkibində olduğu silahlı dəstəsindəki hərbçilər Axıska türkü olan iki qardaşı gözümüzün qabağında güllələyib öldürdülər. Onlar azərbaycanlıların bəzilərini aparıb qəbirlərin üstündə başlarını kəsirdilər, bəzilərini kilsədə asırdılar".

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavab olaraq Y.Əlməmmədov qardaşı Faiq Əlməmmədovun erməni hərbçiləri tərəfindən öldürüldüyünü, digər qardaşı Namiq Əlməmmədovun isə əsir götürüldüyünü, onun indiyədək itkin olduğunu deyib. Məhkəmədə zərərçəkmiş şəxs barəsindəki tibbi-ekspertiza rəyi də elan olunub.

Daha sonra zərərçəkmiş şəxs Sovet Allahverdiyev ifadə verib. 1954-cü ildə Xocalıda anadan olduğunu və orada yaşadığını bildirən S.Allahverdiyev atasının, iki qardaşının və qardaşı oğlunun Xocalı soyqırımı zamanı itkin düşdüyünü, daha iki qardaşının və anasının isə girov götürüldüyünü deyib.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarına cavab olaraq zərərçəkmiş şəxs bildirib: "Onlar fevralın 25-dən 26-na keçən gecə bütün yolları bağlamışdılar ki, çıxa bilməyək, azərbaycanlı olduğumuz üçün bizim hamımıza qarşı soyqırımı törətsinlər. Qətlə yetirilən əhalinin 50 faizi "dəhliz" deyilən ərazidə öldürülənlərdir. Guya, həmin hissəni vermişdilər ki, əhali çıxsın.

Ağdamda meyitləri meşədən gətirirdilər. Oradakı meyitlərin əksəriyyəti tanınmaz halda idi. Başlarının dərisini soymuşdular, beyinləri, başları dağılmışdı. Ancaq paltarından tanıyırdıq". O, Xocalı soyqırımı zamanı qətlə yetirilən şəxslərdən 18 nəfərinin meyitinin 2023-cü ildə Xocalıda tapılan zaman onların ayaqlarının və qollarının məftillə bağlı vəziyyətdə olduğunu da söyləyib.

Məhkəmədə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş vermiş hadisələrlə bağlı müvafiq istintaq hərəkəti protokolları tədqiq olunub. Daha sonra Xocalı soyqırımı ilə bağlı kadrların nümayiş etdiriləcəyi, videomateriallarda həssas məqamların olduğu nəzərə alınaraq, ürəyi zəif olanların zaldan çıxmaları barədə xəbərdarlıq edilib.

Videomateriallarda müxtəlif yaş qrupundan olan kişilərin və qadınların, o cümlədən uşaqların və qocaların meyitlərinin görüntüləri yer alıb. Meyitlərin bir hissəsi dərisi soyulmuş, gözləri çıxarılmış, bəzi əzaları kəsilmiş vəziyyətdə olub. Videonun nümayişi zamanı zalda olanlar kövrəlib.

Təqsirləndirilən şəxslərin də bəziləri videogörüntülərin onlara guya, pis təsir etdiyini öz hərəkətləri ilə nümayişkaranə şəkildə göstəriblər.

Ardınca məhkəmədə Xocalı soyqırımına dair protokollar təqdim edilib. Məhkəmə prosesində digər sənədlərin tədqiqi zamanı fotojurnalist Viktoriya İvlevanın çəkdiyi fotoşəkillər, "İzvestiya" qəzetində Yerevanın hadisəni hərbi nailiyyət kimi qiymətləndirməsi barədə məqalə nümayiş etdirilib.

Habelə Ermənistanın müdafiə naziri və prezidenti olmuş Serj Sarkisyanın britaniyalı jurnalist Tomas De Vala verdiyi və faciənin etnik təmizləmə olduğunu etiraf edən müsahibəsi nümayiş olunub. S.Sarkisyan müsahibə zamanı Xocalıda törədilənlərdən təəssüflənmədiyini bildirib. S.Sarkisyanın fikirlərinə istinad edən dövlət ittihamçısı Tuqay Rəhimli deyib ki, bunlar Ermənistan tərəfindən Xocalı soyqırımının məqsədyönlü, sistemli şəkildə törədildiyini təsdiqləyir.

Prosesdə daha sonra Xocalı soyqırımında iştirakı müəyyən edilmiş təqsirləndirilən şəxs Madat Babayan dindirilib.

O, 1992-ci il fevralın 25-də və 26-da Xocalıda olduğunu təsdiqləyib və deyib: "Bizi oraya dəstə rəhbərimiz aparmışdı. Adı Henrik Tamrazyan idi. Məqsəd o idi ki, azərbaycanlılar Xocalıdan çıxarılsın".

M.Babayan dəstələrində 20 nəfərin olduğunu, başqa dəstələrin də olduğunu deyib. Əlavə edib ki, Rembert Karapetyan, Valeri Sarkisyan adlı dəstə rəhbərlərini xatırlayır. "Bizim dəstənin üzvlərindən isə Valeri Petrosyan, David Qriqoryan, Albert Qriqoryan, Şirin Şirinyan, Spartak Akopyanı xatırlayıram", - deyə o vurğulayıb.

Təqsirləndirilən şəxs Xocalıda bütün əmrləri "Xolostoy" ləqəbli Arkadi Şirinyanın verdiyini deyib və əlavə edib: "Bizə isə əmrləri Vanik Petrosyan verirdi. Silahsız insanlara atəş açıb onların qətlə yetirilməsi əmrini Vanik verib. Vanik və Arkadi insanların barmaqlarını, meyitlərin qulaqlarını kəsirdilər".

M.Babayan dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandırarkən Xocalıya silahlarla gəldiklərini, zirehli texnikalardan istifadə edildiyini təsdiqləyib. Təqsirləndirilən şəxs silahsız insanların qətlində iştirak etdiyini etiraf edib və bildirib: "Səhv etmişik". O, Xocalıda aralarında uşaqların, qocaların və qadınların da olduğu təxminən 150 meyit gördüyünü, meyitlərin erməni hərbçilər tərəfindən maşınlara yığılaraq aparıldığını bildirib.

Bu zaman zərərçəkmiş şəxs Yaşar Əlməmmədov söz alaraq M.Babayana itkin düşmüş qardaşı barədə sual verərək deyib: "Mənim qardaşım Namiqi sənin dəstən apardı. Haraya aparmısan? Qardaşımın yerini de, heç olmasa sümüklərini tapaq. Onun arvadı həmin vaxt hamilə idi, oğlu oldu. İndi qardaşımın oğlunun 33 yaşı var, dərddən başı ağarıb. Qardaşım haradadır? Yerini de!".

M.Babayan isə cavabında Namiq Əlməmmədovu tanımadığını iddia edib. Bu zaman zərərçəkmiş şəxslərin nümayəndəsi Şaiq Hüseynov məhkəməyə müraciət edərək təqsirləndirilən şəxs David İşxanyanın M.Babayana suallara cavab verməsində kömək etməsinə etirazını bildirib.

Məhkəmə iclasına sədrlik edən Zeynal Ağayev D.İşxanyanın yerini dəyişib. Sonra M.Babayanın Xocalı soyqırımı ilə bağlı ibtidai istintaqda verdiyi ifadə elan olunub və ibtidai istintaq zamanı hadisə yerində çəkilmiş videomaterial nümayiş etdirilib.

Məhkəmənin növbəti iclası aprelin 21-nə təyin olunub.

***XQ***

# Milli Məclis Sədrinin Sankt-Peterburq səfəri



**Aprelin 18-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Müstəqil Dövlətlər Birliyinə üzv olan dövlətlərin Parlamentlərarası Assambleyası çərçivəsində 1941–1945-ci illərdə faşizm üzərində Qələbənin 80 illiyinə həsr olunmuş tədbirlər keçirilib.**

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti tədbirlərdə iştirak edib. MDB PA-nın 58-ci plenar iclasının iştirakçıları əvvəlcə Piskaryov memorial məzarlığını ziyarət ediblər. Milli Məclisin Sədri Sahibə Qafarova və MDB-yə üzv dövlətlərin parlament sədrləri memorial məzarlıqda "Ana vətən" abidəsi qarşısına gül çələngləri qoyublar.

Sonra Tavriya sarayında 1941–1945-ci illərdə faşizm üzərində Qələbənin 80 illiyinə həsr olunmuş konsert təşkil olunub. Plenar iclas iştirakçıları konserti izləyiblər.

*

**Həmin gün Milli Məclisin Sədri Sahibə Qafarova Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin Parlamentlərarası Assambleyasının 1941–1945-ci illərdə faşizm üzərində Qələbənin 80 illiyinə həsr olunmuş iclasında çıxış edib.**

Azərbaycan xalqının faşizm üzərində tarixi Qələbədə böyük rolunu xüsusi qeyd edən Milli Məclisin Sədri diqqətə çatdırıb ki, xalqımız cəbhəyə 600 mindən artıq oğul və qızını göndərmişdi. Onlardan 300 mindən çoxu döyüşlərdə həlak oldu. Bu dəhşətli müharibədə göstərdikləri igidliyə görə 130-dan çox azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif olunub. Azərbaycanlı çağırışçılar və könüllülərdən formalaşdırılmış milli atıcı diviziyalar döyüşlərdə görünməmiş igidlik və qəhrəmanlıq nümayiş etdirərək öz adlarını tarixə qızıl hərflərlə yazıblar.

Milli Məclis Sədrinin sözlərinə görə, faşizmə qarşı mübarizədə xalqımız yalnız döyüş meydanlarında deyil, həm də arxa cəbhədə – ordunun ehtiyacları üçün gecə-gündüz çalışaraq qəhrəmanlıq nümayiş etdirib. Həmin dövrdə Azərbaycanın sənaye müəssisələrində 130 adda silah və sursat istehsal olunurdu.

Bu tarixi qələbədə Azərbaycan neftinin böyük rolundan danışan S.Qafarova bildirib ki, müharibə illərində Sovet İttifaqında hasil edilən neftin dörddə üçü, aviasiya benzininin və yüksək keyfiyyətli motor yağlarının isə 85-90 faizi Azərbaycanın payına düşürdü.

Sahibə Qafarova çıxışında bildirib ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılmış Qələbə sayəsində Azərbaycan torpaqlarının 30 illik işğaldan azad edilməsi, ölkənin ərazi bütövlüyünün və suverenliyinin bərpası, bu torpaqlarda həyatın bu gün yenidən canlandırılması xalqımızın ədalətin zəfərinə olan sarsılmaz inamını və onu bərpa etmək əzmini təcəssüm etdirir.

*

**Milli Məclisin Sədri Sahibə Qafarova Sankt-Peterburq şəhərinə işgüzar səfəri çərçivəsində Müstəqil Dövlətlər Birliyinə üzv olan dövlətlərin Parlamentlərarası Assambleyasının Şura və 58-ci plenar iclaslarında iştirak edib.**

İclaslarda ötən dövr ərzində Assambleya çərçivəsində görülmüş işlər, həyata keçirilmiş tədbirlər, həmçinin digər təşkilati məsələlər nəzərdən keçirilib. Sahibə Qafarova Şura iclasında müzakirə olunan mövzular haqqında öz fikirlərini bildirib.

Həmçinin Azərbaycan nümayəndə heyətinin üzvü olan deputatlar Assambleyanın 58-ci plenar və yaz sessiyasının komissiya iclaslarında iştirak və çıxış ediblər.

# Prokurorluq xəbərləri



**Milli Aviasiya Akademiyasında "Rəqəmsal dövr və hüquq. Yeni çağırışlar" mövzusunda mühazirə təşkil olunub.**

Görüşü Milli Aviasiya Akademiyasının birinci prorektoru, professor Ədalət Səmədov açaraq, akademiyanın rektoru, akademik Arif Paşayevin salamlarını çatdırıb və iştirakçılara uğurlar arzulayıb.

Baş prokuror Kamran Əliyev qeyd edib ki, 2021-ci ildən etibarən Baş Prokurorluqla Milli Aviasiya Akademiyası arasında qurulan əməkdaşlıq əlaqələri bu gün uğurla davam edir və yeni məzmunla zənginləşir. Baş prokuror daha sonra "Rəqəmsal dövr və hüquq. Yeni çağırışlar" mövzusunda mühazirə oxuyaraq, rəqəmsallaşmanın hüquq sahəsində yaratdığı imkanlar və qarşıya çıxan çağırışlar barədə geniş məlumat verib.

Mühazirə zamanı rəqəmsallaşma ilə əlaqədar qanunvericiliyə əlavə və dəyişikliklərin edilməsi məqsədilə Baş Prokurorluq tərəfindən hazırlanaraq müzakirə olunması üçün aidiyyəti üzrə göndərilmiş Qanun layihəsi təqdim edilərək, layihədə Cinayət-Prosessual Məcəlləsinə elektron formada sübutların toplanması, kompüter məlumatlarının sübut kimi qəbul edilməsi və mühafizəsi, kompüter sisteminə baxış, axtarış və götürülməsi, elektron cinayət-prosessual fəaliyyətin həyata keçirilməsi, eləcə də digər əlavə və dəyişikliklərin təklif olunduğu bildirilib.

Vurğulanıb ki, bu təkliflər müasir texnologiyaların hüquq-mühafizə fəaliyyətinə tətbiqinin genişləndirilməsi və effektivliyinin artırılmasını hədəfləyir.

Mühazirə zamanı, həmçinin 2023-cü ilin aprel ayından tətbiq olunan "Elektron Prokurorluq" informasiya sisteminin mühüm əhəmiyyət kəsb etdiyi qeyd olunub.

*

**Aprelin 18-də Baş prokuror Kamran Əliyevin iştirakı ilə Pirallahı Rayon Prokurorluğunun yeni inzibati binasının açılış mərasimi keçirilib.**



Əvvəlcə inzibati binada ulu öndər Heydər Əliyevin büstünün önünə gül dəstələri qoyulub, Ümummilli liderin əziz xatirəsi dərin ehtiramla yad olunub.

Sonra iştirakçılar yeni inzibati binada yaradılan müasir iş şəraiti, vətəndaşların qəbulu üçün nəzərdə tutulmuş rahat və funksional infrastrukturla tanış olublar.

Baş prokuror Kamran Əliyev çıxış edərək bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl islahatlar çərçivəsində prokurorluq orqanlarına göstərilən yüksək diqqət və qayğı, hüquq-mühafizə sisteminin inkişafı istiqamətində atılan mühüm addımların bariz nümunəsidir. Qeyd edilib ki, prokurorluq orqanlarının fəaliyyətinin müasir dövrün tələblərinə uyğun qurulması, maddi-texniki bazasının gücləndirilməsi və əməkdaşlar üçün hərtərəfli şəraitin yaradılması dövlətimizin hüquq-mühafizə sisteminə verdiyi önəmin təzahürüdür.

Sonda Baş prokuror Kamran Əliyev kollektivi yeni inzibati binanın istifadəyə verilməsi münasibətilə təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb.

**XQ**

# "Yüksəliş" müsabiqəsinə maraq yüksəlir

**"Yüksəliş" müsabiqəsinə qeydiyyatdan keçən şəxslərdən bakalavriat üzrə 15 min 601 nəfəri Azərbaycanda təhsil alanlardır. Onlardan 713 nəfəri xarici ölkələrdə, 239 nəfəri isə hər ikisində təhsil alır. Bununla yanaşı, magistratura üzrə Azərbaycanda 7016 nəfər, xaricdə 1205, hər ikisində isə 391 nəfər təhsil alır.**

Bunu "Yüksəliş" müsabiqəsinin işçi qrupunun rəhbəri, gənclər və idman nazirinin müavini Fərhad Hacıyev mətbuat konfransında deyib.

İşçi qrupunun rəhbəri qeyd edib ki, bu il doktoranturada təhsil alan iştirakçıların sayında artım var: "Müraciət edən şəxslərdən 921-i Azərbaycanda, 213-ü xarici ölkələrdə, 9 nəfəri isə hər ikisində doktoranturada oxuyur".




Ərazi bölgüsünə nəzər yetirdikdə isə namizədlərin əksəriyyəti Bakı, Abşeron-Xızı və Qarabağ iqtisadi rayonlarından müraciət ediblər: "Müsabiqədə iştirak üçün yaş məhdudiyyəti 21-51 yaşarası müəyyən edilib. Qeydiyyatdan keçənlər arasında 21 yaşını tamamlamış 106 nəfər, 51 yaşını tamamlamış 33 nəfər namizəd yer alır. Müsabiqəyə müraciət edən namizədlərin 56.48 faizi dövlət sektorunda, 41.05 faizi özəl sektorda, 1.49 faizi qeyri-hökumət təşkilatlarında (QHT), 0.98 faizi isə beynəlxalq qurumlarda çalışır".

F.Hacıyev bildirib ki, qarşıda müsabiqənin növbəti mərhələsi olan onlayn mərhələnin Ümumi biliklər üzrə ilk sınaq imtahanı gəlir. Bu mərhələdə iştirakçılara Azərbaycan və dünya üzrə tarix, coğrafiya, ədəbiyyat və mədəniyyət, idarəetmənin əsasları, eləcə də müasir trendləri əhatə edən 4 blok üzrə 25 sual təqdim olunacaq".

## Sosial xəbərlər

### Qayıdışdan sonra 262 nəfər kiçik biznes qurub

**Böyük Qayıdış proqramına uyğun olaraq Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunan ərazilərimizə köçürülən sakinlər üçün fəal məşğulluq tədbirlərini davam etdirir.**



Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən XQ-yə verilən məlumatda bildirilir ki, qurum Füzuli və Cəbrayıl rayonlarında özünüməşğulluq proqramına cəlb olunan bir qrup sakinə seçdikləri biznes fəaliyyəti üzrə avadanlıq verib. Bu dəstəklə proqram iştirakçıları avtotəmizləmə, ət məmulatlarının istehsalı, gözəllik salonu və qəssab xidmətləri yaradıblar. Onlar qurduqları təsərrüfatları genişləndirməyə səy göstərirlər.

Doğma yurdlarına köçürülənlərdən belə kiçik təsərrüfat quranların sayı 262-ə çatıb. Onlardan 66 nəfəri Füzuli və Cəbrayıl rayonlarına köçürülmüş sakinlərdir.

### Qazilərə 610 ədəd protez verilib

**Vətən müharibəsindən sonra Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi müharibə ilə əlaqədar əlil olan 493 hərbçini 610 ədəd yüksək texnologiyalı, son nəsil protezlə təmin edib. 14 hərbçiyə isə 15 ədəd idman protezi verilib.**

Rahatlığı və etibarlığı ilə seçilən yüksək texnologiyalı protezlər qazilərin köməkçi vasitələr olmadan sərbəst, sabit,




inamlı hərəkətinə imkan yaradır. Onlar belə protezlərlə sosial həyata daha tez və rahat qoşulur, idmanla da məşğul olur, yarışlarda iştirak edirlər.

### Türkiyə heyəti DOST Mərkəzində

**Ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının ailə və sosial xidmətlər nazirinin müavini Sevim Sayım Madakın rəhbərlik etdiyi nümayəndə heyəti 5 saylı DOST Mərkəzində olub.**




Burada əhaliyə göstərilən xidmətlərlə, Tibbi-Sosial Ekspert Komissiyasının fəaliyyəti ilə tanış olan qonaqlara DOST konsepsiyasına və sosial sahədə rəqəmsal xidmətlər barədə təqdimatlar edilib.

Qonaqlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Protez-Ortopedik İstehsalat Mərkəzi və Bakı Reabilitasiya Mərkəzi ilə də tanış olublar. Onlara son illər ölkəmizdə reabilitasiya sisteminin müasir tələblərə uyğun qurulduğu, əlillərin bərpa xidmətləri və vasitələri, yüksək texnologiyalı, son nəsil protezlərlə təminatı barədə ətraflı məlumatlar verilib.

Türkiyə heyəti 1 saylı 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisəsində də olub.

### 1 milyarddan çox pensiya ödənişi

**İlin birinci rübündə pensiyaçılara ötən ilə nisbətən 10 faiz (156 milyon manat) çox – 1 milyard 768 milyon manat vəsait ödənilib.**

2025-ci ilin əvvəlindən bütün növ pensiyalar 8,1 faiz indeksləşdirilərək artırılıb. Fevralın 1-dən minimum pensiya 14,3 faiz artımla 280 manatdan 320 manata çatdırılıb.

1-ci rübdə 13 min, 2019-cu ilin əvvəlindən isə 150 min pensiya təyinatı e-sistemlə həyata keçirilib.

### Əlil uşaqlara sosial xidmətlər göstərilir

**Sosial Xidmətlər Agentliyi hazırda 983 uşağa xidmət göstərir. Onlardan 676 nəfəri stasionar, 307 nəfəri isə yarımstasionar formada sosial xidmətlərlə əhatə olunub.**

Bu xidmətlər qurumun Əlilliyi olan şəxslərin Peşə-əmək Reabilitasiyası Mərkəzində, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisələri və uşaq evlərində, Sosial Xidmət mərkəzlərində və digər müəssisələrdə göstərilir.

Müasir yaşayış və reabilitasiya şəraitinə malik həmin müəssisələrdə uşaqlarla bağlı fərdi inkişaf planı tərtib edilir, onlarla iş aparılır və sosial tədbirlərə cəlb edilirlər.

*Zərifə BƏŞİRQIZI*
**XQ**

# Leysan fəsadları aradan qaldırılır



**Fövqəladə Hallar Nazirliyinin qüvvələri tərəfindən intensiv yağışlarla əlaqədar yaranan fəsadların aradan qaldırılması istiqamətində tədbirlər davam etdirilib.**



FHN-in mətbuat xidmətindən verilən məlumata görə, görülən zəruri və təxirəsalınmaz tədbirlər nəticəsində bir çox ərazilərdə su basmış yerlərdən suyun çəkilərək kənarlaşdırılması işləri yekunlaşıb.

Hazırda bəzi istiqamətlərdə su basmış yerlərdən suyun çəkilərək kənarlaşdırılması işləri və digər zəruri təhlükəsizlik tədbirləri görülür.

**XQ**

# Azərbaycan – Çin əməkdaşlığı Böyük İpək yoluna yeni həyat bəxş edir



(əvvəli 1-ci səhifədə)

Azərbaycan–Çin Hökumətlərarası Ticarət – İqtisadi Əməkdaşlıq Komissiyasının Bakıda keçirilən 10-cu iclasında bu barədə ətraflı bəhs edilib. Baş nazirin müavini Şahin Mustafayev Hökumətlərarası Komissiya çərçivəsində aparılan danışıqların dövlət başçılarının verdiyi tapşırıqların icrasını müzakirə etmək, eləcə də iki ölkə arasında münasibətlərin inkişafına dair yaxın perspektivləri müəyyənləşdirmək üçün mühüm platforma rolunu oynadığını bildirib.

Qeyd edək ki, Azərbaycan və Çin arasında münasibətlər hazırda strateji tərəfdaşlıq səviyyəsindədir. Dövlət başçılarının imzaladığı Birgə Bəyannamə isə bu səviyyənin daha da genişlənməsi üçün möhkəm zəmin formalaşdırır.

Son illərdə ölkələr arasında ticarət-iqtisadi əməkdaşlıq davamlı şəkildə inkişaf edib. Məsələn, cari ilin ilk 3 ayında Azərbaycanla Çinin qarşılıqlı ticarətinin həcmi 1,02 milyard dollara (ötən ilin eyni dövrü ilə müqayisədə 37 faiz çox) çatıb. Bu göstəricinin əldə edilməsi isə ticarət-iqtisadi sahədəki əməkdaşlığın yeni inkişaf mərhələsinə daxil olmasını, Çinin Azərbaycanın əsas iqtisadi və ticarət tərəfdaşlarından birinə çevrilməsini şərtləndirib. Eyni zamanda, respublikamızın da Cənubi Qafqazda Çinin ən böyük ticarət tərəfdaşı olmasını sübuta yetirib.

Xatırladaq ki, iki ölkə arasında ticarət dövriyyəsi ötən il 21 faiz (3,7 milyard dollar) olub. Yuxarıda qeyd etdiyimiz kimi, cari ilin ilk 3 ayında isə müsbət dinamika qorunaraq qarşılıqlı ticarət həcmi 37 faizdən (1,02 milyard) çox yüksəlib.

Azərbaycan – Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının sonuncu iclasında sənaye, neft-qaz, neft-kimya, "yaşıl" energetika, yüksək texnologiyalar, innovasiyalar və kosmik sahələrdə investisiya əməkdaşlığında müşahidə olunan müsbət dinamika da xatırladılıb. Çindən Azərbaycana yönəldilən investisiyaların həcminin 940 milyon dollardan çox yüksəldiyi, eyni zamanda, Dövlət Neft Fondunun da daxil olduğu Azərbaycan sərmayələrinin Çinə yatırılan ümumi həcminin, təqribən, 2,1 milyard dollar həcmində olduğu diqqətə çatdırılıb.

Yeri gəlmişkən, bir az əvvəl xatırlatdığımız iclasda işğaldan azad edilən ərazilərdə yaranan yeni reallıqlar fonunda mövcud geniş imkanlar barədə də ətraflı danışılıb. Azərbaycan – Çin Hökumətlərarası Ticarət – İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri, Baş nazirin müavini Şahin Mustafayev Çin rəsmilərinə işğaldan azad olunmuş ərazilərindəki həyata keçirilən müasir infrastruktur layihələri və gələcək iqtisadi perspektivlər haqqında ətraflı məlumat verərək, Çin şirkətlərini bu ərazilərə investisiya yatırmağa dəvət edib.

Qeyd edək ki, aprelin 17-də Pekində dövlətlərarası birgə əməkdaşlıq çərçivəsində Çin – Azərbaycan Sənaye və İnvestisiya Əməkdaşlığının Təşviqi Konfransı keçirilib. Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) ilə Çinin Milli İnkişaf və İslahat Komissiyasının Beynəlxalq Əməkdaşlıq Mərkəzinin təşkilatçılığı ilə keçirilən konfrans 2 gün davam edib. Əsasən ağır, dağ-mədən, kənd təsərrüfatı sənayelərini və s. sahələrin inkişafına yönəldilmiş konfransda hər iki ölkənin yüksək vəzifəli şəxsləri iştirak ediblər.

Konfransda Çin Xalq Respublikasının "DONGFENG Agricultural Machinery" ilə Azərbaycan Respublikasının "İmprotex Qarabağ Sənaye Kompleksi" şirkətləri arasında anlaşma memorandumu imzalanıb. Sənədə əsasən "Dongfeng Agricultural Machinery" şirkəti "İmprotex Qarabağ Sənaye Kompleksi" şirkətinin "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yerləşən istehsal müəssisəsində kənd təsərrüfatı texnikalarının birgə istehsalını həyata keçirəcək.

Burada istehsal olunan texnikanın qonşu ölkələrin bazarlarında da satışı nəzərdə tutulur. Layihə çərçivəsində istehsal və yığım xəttinin istismara verilməsi, habelə müxtəlif kənd təsərrüfatı texnikaları üçün ehtiyat hissələrin, komponentlərin və ləvazimatların da istehsalı həyata keçiriləcək.

Azərbaycan ilə Çin arasında baramaçılığın inkişafı sahəsində səmərəli əməkdaşlıq əlaqələri də qurulub və bu əməkdaşlığın düşmən əsarətindən xilas olunan ərazilərin bərpasında özünü daha qabarıq nümayiş etdirəcəyi gözlənilir. Belə ki, tərəfdaşlar tərəfindən Xocalı şəhərində əkilməsi üçün artıq 130 min tut tingi gətirilib. Layihənin uğurlu nəticələr verəcəyi proqnozlaşdırılır.

İki ölkə arasında "yaşıl" enerji sahəsində əməkdaşlıq strateji prioritet təşkil edir. Baş nazirin müavini Şahin Mustafayevin sözlərinə görə, Azərbaycan bu sahədə böyük potensiala, Çin isə geniş texnoloji resurslara və zəngin təcrübəyə malikdir.

Nəqliyyat və tranzit sahəsində də daim müsbət göstəricilər nəzərə çarpıb. Keçən il Azərbaycan və Çin arasında tranzit daşımalarının həcmi 86 faiz (378 min ton) artıb. Azərbaycanda nəqliyyat infrastrukturunun inkişafı və tranzit potensialının artırılması məqsədilə gerçəkləşdirilən təşəbbüslər (Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı – Tbilisi – Qars dəmir yolu xətti və digər nəqliyyat dəhlizləri kimi layihələr) də Çindən Avropaya və əks istiqamətə ən qısa və səmərəli marşrutu təşkil edib.

Çin Xalq Respublikasının kommersiya nazirinin müavini Lin Ci ölkəsinin Azərbaycanla iqtisadi əlaqələrə xüsusi əhəmiyyət verdiyini vurğulayıb. O, Çinin Azərbaycan istehsalı olan məhsulların idxal həcmini və çeşidini genişləndirməkdə maraqlı olduğunu qeyd edərək, xüsusilə nar məhsulları və şərabın Çində alıcıların böyük rəğbətini qazandığını diqqətə çatdırıb. Eləcə də quş əti, fındıq və badamın Çinə ixracı üçün geniş imkanların olduğunu bildirib.

Yeri gəlmişkən, Azərbaycan–Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının 10-cu iclasında İT, kosmik sənaye, yüksək texnologiyalar, səhiyyə və turizm sahələrində əməkdaşlığın dərinləşdirilməsi imkanları da geniş müzakirə olunub. Yaxın vaxtlarda Azərbaycan Prezidenti İlham Əliyevin Çinə planlaşdırılan səfərinin iki ölkə arasındakı münasibətləri yeni mərhələyə yüksəldəcəyinə əminlik ifadə edilib. Çin Xalq Respublikasının kommersiya nazirinin müavini, Çinin ticarət üzrə beynəlxalq nümayəndəsi Lin Ci ölkəsinin Qafqaz regionunda Azərbaycanla əməkdaşlığa xüsusi önəm verdiyini və milli-iqtisadi maraqlara uyğun bütün təşəbbüsləri dəstəklədiklərini vurğulayıb.

## Ekspert rəyi



*Eyyub KƏRİMLİ,*
*iqtisadçı-ekspert*

Ötən ilin iqtisadi göstəricilərinə diqqət yetirsək, Azərbaycan – Çin arasında 3,7 milyard dollar (2023-cü illə müqayisədə 20,7 faiz çox) ticarət dövriyyəsinin mövcudluğunu görə bilərik. Hazırda Çin ölkəmizin əsas idxal tərəfdaşlarından biridir. Respublikamıza idxal olunan malların 17,8 faizi Çinin payına düşür. Dost ölkədən Azərbaycana 3,1 milyard dollarlıq, respublikamızdan isə Çinə 14 milyon dollarlıq mal ixrac edilir. Təəssüf ki, ötən il ölkəmizdən Çinə idxal 2023-cü illə müqayisədə 80,5 faiz azalıb.

İki ölkə Orta Dəhliz çərçivəsində də ciddi əməkdaşlıq edir. Çin logistika imkanlarının genişləndirilməsində maraqlı olan ölkələrdəndir. ABŞ-ın tətbiq etdiyi tarif siyasəti Çinin ölkəmizə marağını getdikcə artıracaq. Gələcəkdə iqtisadi əlaqələr daha da genişlənəcək.

Prezident İlham Əliyev bu günlərdə ADA Universitetində "Yeni dünya nizamına doğru" mövzusunda keçirilən beynəlxalq forumdakı çıxışında Azərbaycanın hazırda Çin şirkətləri ilə səmərəli əməkdaşlıq müstəvisində çoxsaylı layihələr gerçəkləşdirdiyini, dost ölkənin özəl qurumlarının müxtəlif sahələrdə, o cümlədən "yaşıl" enerji sahəsində strateji tərəfdaş olmağa dəvət edildiyini bildirib. Prezident İlham Əliyev, eyni zamanda, əlavə edib ki, Azərbaycan "yaşıl" ictimai nəqliyyat vasitələri buraxan Çin şirkəti müəyyənləşdirilib və bu il artıq ilk belə avtobusların istifadəyə veriləcəyi nəzərdə tutulub. Bununla yanaşı, Çin şirkətlərinin hazırladıqları Günəş panellərinin də Azərbaycanda başqa ölkələrin sərmayəsi ilə tikilən stansiyalarda istifadə olunması diqqətdə saxlanılıb. Eyni zamanda, artıq xeyli vaxtdır ki, Çin şirkətləri ilə "yaşıl" enerji sahəsinə birbaşa sərmayə yatırılması istiqamətində danışıqlara başlanılıb.

Qeyd edim ki, Azərbaycan Çin ilə nəqliyyat–logistikaya dair qlobal təşəbbüslər müstəvisində sıx əməkdaşlıq qurub. Hər iki dövlət "Bir kəmər, bir yol" layihəsinin mühüm hissəsi olan Orta Dəhlizin infrastrukturunun inkişafına əhəmiyyətli investisiyalar yatırıb.

# Türkiyə hökuməti ölkəmizlə qaz sazişini təsdiq edib

**Türkiyə hökuməti Azərbaycanla qaz sahəsində əməkdaşlığa dair Sazişi təsdiqləyib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bununla bağlı imzaladığı müvafiq sənəd cümə günü, aprelin 18-də Türkiyə hökumətinin rəsmi qəzetində – "Resmi Gazete"də dərc olunub.**

Qeyd edək ki, iki qardaş ölkə arasında qaz sahəsində əməkdaşlıq haqqında hökumətlərarası Saziş 2024-cü il mayın 14-də İstanbulda imzalanıb.


18 Nisan 2025 CUMA Resmi Gazete Sayı : 32874

MİLLETLERARASI ANDLAŞMA

Karar Sayısı: 9741

14 Mayıs 2024 tarihinde İstanbul'da imzalanan ve 7544 sayılı Kanunla onaylanması uygun bulunan ekli "Türkiye Cumhuriyeti Hükümeti ile Azerbaycan Cumhuriyeti Hükümeti Arasında Doğal Gaz Alanına İlişkin İş Birliği Anlaşması"nın onaylanması, 9 sayılı Cumhurbaşkanlığı Kararnamesinin 2 nci ve 3 üncü maddeleri gereğince karar verilmiştir.

17 Nisan 2025

Recep Tayyip ERDOĞAN

# Dövlət Neft Fondunun xəzinəsi zənginləşir




**2025-ci il mart ayının 31-nə Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) aktivləri əvvəlki ilin sonuna (60 milyard 31,4 milyon ABŞ dolları) nisbətən 4,5 faiz artaraq 62 milyard 740,2 milyon ABŞ dolları təşkil edib. Fonddan verilən məlumata görə, cari ilin yanvar-mart ayları ərzində qurumun büdcə gəlirləri 3 milyard 249,2 milyon manat, büdcə xərcləri isə 3 milyard 643,3 milyon manat təşkil edib.**

Bu ilin birinci rübündə Azərbaycan Dövlət Neft Fondunun "Azəri–Çıraq–Günəşli" (AÇG) yataqlar blokundan və "Şahdəniz" qaz-kondensat yatağından (qaz və kondensatın satışından) gəlirləri 2 milyard 183,5 milyon manat təşkil edib. Bunun da 2 milyard 1,6 milyon manatı AÇG-nin, 181,9 milyon manatı isə "Şahdəniz" yatağının payına düşüb. Ümumilikdə isə, fondun gəlirləri ötən ilin müvafiq dövrünə nisbətən 15,85 faiz azalıb.

2025-ci ilin yanvar-mart ayları ərzində ARDNF-nin neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 3 milyard 17,2 milyon manat, o cümlədən, mənfəət neftinin və qazın satışından 2 milyard 251,9 milyon manat, bonus ödənişləri və tranzit gəlirləri isə 765,3 milyon manat təşkil edib. Bununla yanaşı, hesabat dövründə ARDNF vəsaitlərinin idarə olunmasından 232 milyon manat gəlir əldə edib.

Fonddan verilən məlumata görə, valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı qurumun büdcədənkənar gəliri hesabat dövrü üzrə 4 milyard 999 milyon manat təşkil edib. Hesabat dövrü ərzində ARDNF-nin 2025-ci il büdcəsinin icrası çərçivəsində 3 milyard 620,3 milyon manat vəsait dövlət büdcəsinə transfert edilib. Bununla yanaşı, cari ilin yanvar-mart aylarında "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşməsinə 1,1 milyon manat, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2028-ci illər üçün Dövlət Proqramı" nın maliyyələşməsinə isə 14,9 milyon manat yönəldilib. Sözügedən dövrdə, ARDNF-nin idarə edilməsi ilə bağlı xərcləri isə 7 milyon manat təşkil edib.

Bu ilin yanvar-mart aylarında Dövlət Neft Fondunun cəmi investisiya portfeli ötən ilin eyni dövrü ilə müqayisədə 9,5 faiz və ya 5 milyard 435,4 milyon ABŞ dolları artıb. Ümumi investisiya portfelinin 42,6 faizini istiqraz və pul bazarı alətləri (26 milyard 603,5 milyon dollar), 24,8 faizini səhmlər (15 milyard 487,5 milyon dollar), 6,8 faizini daşınmaz əmlak (4 milyard 246,6 milyon dollar), 25,8 faizini isə qızıl (16,1 milyard dollar) təşkil edir.

Xatırladaq ki, 1999-cu ilin dekabr ayında təsis edilmiş Azərbaycan Respublikası Dövlət Neft Fondunun missiyası tükənən təbii sərvətlərdən əldə olunan gəlirlərin toplanması və Azərbaycan xalqının bugünkü və gələcək nəsillərinin daimi gəlir mənbəyinə çevrilməsidir. ARDNF-nin yaradılmasında əsas məqsəd ölkənin neft sərvətlərinin səmərəli və məqsədyönlü idarə edilməsinə şərait yaratmaqdır.

# Köhnə avtomobilini gətir, yenisini apar!



## İndiyədək 2 min 700 "qoca" maşın yollardan yığışdırılıb

**Ölkəmizdə köhnə, istismara yararsız nəqliyyat vasitələrinin utilizasiyaya verilməsi prosesi getdikcə sürətlənir. Bugünlərdə "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti indiyədək utilizasiyaya verilən nəqliyyat vasitələrinin sayı və ödənişlərin həcmi ilə bağlı açıqlama yayıb.**

Bildirilib ki, "Təmiz Şəhər"in operatorluğu ilə ötən ilin oktyabr ayında həyata keçirilməyə başlanmış utilizasiya proqramı çərçivəsində indiyə qədər 2 min 700-ə yaxın nəqliyyat vasitəsi utilizasiyaya verilib və bu rəqəm hər gün artmaqdadır. Proqram iştirakçılarına nəqliyyat vasitələrinin təsnifatına uyğun olaraq, ümumilikdə, 2 min 614 təsdiqedici sənəd verilib. Onların da 1528-i güzəşt və birdəfəlik ödənişlərin edilməsi ilə bağlı olub.

Qurumun məlumatına görə, artıq 118 ədəd yerli istehsal yeni nəqliyyat vasitəsinin güzəştlə satışı həyata keçirilib, 278 min manatdan çox birdəfəlik ödəniş isə ərizəçilərin bank hesabına ödənilib. Qeyd olunub ki, mövcud tələblərə əsasən, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən qaydada əvvəlcə nəqliyyat vasitəsi dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmalıdır. Daha sonra zəruri məlumatlar istifadəyə verilmiş www.nvu.gov.az elektron portalına daxil edilərək ərizəçiyə göndərilən elektron məlumat əsasında nəqliyyat vasitəsi qəbul məntəqəsinə təhvil verilməlidir.

Xatırladaq ki, ölkəmizdə nəqliyyat vasitələrinin utilizasiyaya verilməsi könüllülük prinsipi əsasında aparılır və məcburi xarakter daşımır.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# “Erməni soyqırımı”: uydurmalar və gerçəklər

## *110 illik yalanın, böhtanın mahiyyəti və hədəfi*



*Musa QASIMLI,*
*AMEA-nın müxbir üzvü, professor*

### Böyük müharibə və ilk qırğınlar

Dünyanı yenidən bölmək, ucuz xammal mənbələri və əlverişli satış bazarları uğrunda aparılan ədalətsiz, işğalçı, imperialist müharibələr – o zaman deyildiyi kimi, Böyük müharibə və ya Birinci dünya müharibəsi 1914-cü il iyulun 28-də başladı. Avqustun 1-də Almaniya Rusiyaya müharibə elan etdi. Rusiya imperatoru II Nikolay Almaniya ilə müharibənin başlanması haqqında manifest verərək, slavyan xalqlarını müdafiə edəcəyini bildirdi. Az sonra Fransa və İngiltərə də müharibəyə qatıldılar. Rusiya və Almaniya arasında müharibə başlanan kimi, Moskvada almanlara qarşı qırğınlar törədildi. Daxili işlər naziri Nikolay Maklakovun əmrinə əsasən orduda xidmət edən alman və avstriya-macar mənşəli şəxslər hərbi əsirlər elan edildlər. Onlar dərhal həbs olunmalı, Rusiyanın Avropa hissəsindən və Qafqazdan Vyatkaya, Voloqdaya, Orenburq quberniyasına, Sibirdən Yakutiyaya sürgün edilməli, casusluqda şübhəli bilinən şəxslər isə məhkəməyə verilməli idilər.

Böyük Britaniya da müharibəyə qatılan kimi, Londonda və ölkənin digər yaşayış məntəqələrində almanlara qarşı qırğınlar törədildi. Bunlar ilk qırğınlar idi.

### Ermənilər Osmanlı dövlətində

Bir-birinə qarşı döyüşən Antanta və Üçlər İttifaqı dövlətləri Osmanlını müharibəyə qoşmaq üçün diplomatik-siyasi səylər edirdilər. Dünyanın böyük dövlətlərindən biri olan Osmanlı hələ müharibəyə qatılmasa da, həm Osmanlı, həm də Rusiya ərazisində yaşayan ermənilərin türk düşmənçiliyinin həddi-hüdudu yox idi. Onlar müharibəyə hazırlaşır və əlverişli an gözləyirdilər. Bununla bağlı olaraq Qafqaz canişini İllarion Vorontsov-Daşkovun mülki işlər üzrə köməkçisi N.Peterson 1914-cü il 9 avqust tarixli 1457 №li tamamilə məxfi və şəxsən məktubunda Bakı qubernatoru V.V.Alışevskiyə yazırdı:“Ermənilər türk-erməni məsələsini növbəyə qoymaq üçün imkan qazanmaq istəyirlər”.

Müharibə başladıqdan az sonra ermənilərin katolikosu V Gevorq Qafqaz canişini İ.Vorontsov-Daşkova 1914-cü il 18/5 avqust tarixində göndərdiyi 1131 №li məktubunda bütün erməni əhalisinin Türkiyə əleyhinə müharibəyə susadığını bildirərək, onların silahlandırılmasına və təşkilatlanmasına dair təkliflərini söylədi. Bunun müqabilində ermənilər üçün islahatların aparılmasını xahiş etdi.



Amazasp dəstə üzvləri ilə birlikdə (1915-ci il)

V Gevorqun təkliflərinin yerinə yetirilməsini arzuolunan hesab edən İ.Vorontsov-Daşkov 1914-cü il 22/9 avqust tarixli 1955 №li məxfi məktubu ilə onları Nazirlər Şurasının sədri İvan Qoremıkinə göndərdi. İ. Qoremıkin isə məktubu xarici işlər naziri Sergey Sazonova yolladı. S. Sazonov 1914-cü il 30/17 avqust tarixli 587 №li məxfi məktubunda Nazirlər Şurasının sədri İ. Qoremıkinə Qafqaz canişininin məktubunda qaldırılan məsələ ilə əlaqədar yazırdı:

“Türkiyə əleyhinə Qafqazın erməni əhalisinin xəlvəti qaldırılmasının və cəlb edilməsinin tamamilə başa düşülən olmasını nəzərə alaraq hökumətin Türkiyəyə münasibətdə siyasəti və erməni xalqının gələcəyinə dair baxışları ilə bu xalqın nümayəndələrini daha ətraflı tanış etmək məqsədəuyğun olardı. Bununla belə, həm ermənilərlə, həm də kürdlərlə ən sıx münasibətlər saxlamaq lazımdır ki, Türkiyə ilə münasibətlər kəsilərsə, mövcud halda onlardan istifadə etmək mümkün olsun. Bu baxımdan sərhəddən silah-sursat keçirmək və münasibətlər kəsildikdə və ya kəsilməsi qaçılmaz olduqda onların xaricdəki əhaliyə paylanması üçün hər cür hazırlıq işləri görmək arzuediləndir.”

Müharibəyə qədər “Daşnaksütyun” partiyasını təqib edən çarizm hərbi əməliyyatlar başlanan kimi onun üzvlərini sürgünlərdən geri gətirdi və həbsxanalardan azad etdi. Buna müsbət münasibət bildirən İ.Vorontsov-Daşkov imperator II Nikolaya yazdığı məktubunda daşnaklar üzərində məhkəmə proseslərini pislədi, çarizmin erməniləri himayə etməklə həm Rusiya, həm də Türkiyədə özünə etibarlı təbəə qazanacağını bildirdi.

Tiflis quberniya jandarma idarəsinin rəisi 1914-cü il avqustun 25-də 4272 №li tamamilə məxfi məktubunda Rusiya Daxili İşlər Nazirliyinin Polis Departamentinə yazırdı:

“Türkiyə də Rusiyaya müharibə elan edəcəkdir. Türkiyə erməniləri Qafqaz erməniləri ilə əlaqə qururlar. Türkiyə erməniləri güclü silahlanırlar və Rusiyaya kömək edəcəklər. Qələbədən sonra Türkiyə Ermənistanının muxtariyyəti məsələsini qoyacaqlar.”

Qafqaz daşnaklarının sentyabr ayında Tiflisdə keçirilən toplantısında Türkiyə ilə mübarizə aparmaq üçün ermənilərdən ibarət milis dəstələrinin hazırlanması haqqında məsələ müzakirə edildi. Qafqaz rayon mühafizə bölməsi rəisinin 1914-cü ilin sentyabr ayı üçün məlumatında yazılırdı: “Artıq sentyabr ayında Türkiyə ilə sərhədə zinvorlar göndərildi.”

Bakı Erməni Mədəniyyət İttifaqının Mərkəzi Komitəsi orduya çağırılanların ailələrinə yardım məqsədilə sentyabrın 20-də müraciət etdi. İanələr Bakıdakı Torqovı küçəsinin (indiki Nizami küçəsi - M.Q.) tinində Million küçəsində yerləşən Mədəniyyət İttifaqının binasında komitənin katibi Aleksandr Bahaduryansa verilirdi. Erməni təşkilatları müharibənin yekununda “erməni məsələsi”nin həllinə ümid edirdilər. Ermənilərin “Mşak” (zəhmətkeş) qəzetinin 1914-cü il 1 oktyabr tarixli sayında dərc edilmiş “Biz nəyi xahiş etməliyik?” adlı məqalədə yazılırdı:

“Erməni məsələsini İsrael Ori (1658-1711-ci illərdə yaşamış erməni ictimai xadimi nəzərdə tutulur – M.Q.) başladı. Erməni məsələsinin müəllifi Rusiyadır. Müharibənin yekununda biz bu məsələnin həllinə nail olmalıyıq.”

Daşnakların Tiflisdə nəşr etdirdikləri “Orizon” (Şəfəq) qəzetinin 1914-cü il 7 oktyabr tarixli sayında dərc olunmuş “Ermənilər və cari vəziyyət” adlı məqaləsində yazılırdı: “Rus–türk fəlakətində bizim rus silahına böyük köməyimiz sadəcə vətəndaş vəzifəsi ilə bağlı deyildir, yüksək siyasi məqsədlərimizə xidmət edir.”

“Daşnaksütyun”un yaradıcılarından biri və daşnak Ermənistanın baş naziri olmuş Ov. Kaçaznuni sonralar etiraf edirdi ki, 1914-cü ilin payızında hələ Türkiyə müharibə aparan dövlətlər ailəsinə qatılmamış və buna hazırlaşmamış Cənubi Qafqazda erməni “könüllü dəstələri” böyük hay-küy və enerji ilə təşkil edilməyə başlandı. Erməni “könüllü dəstələri” yaradılaraq türklərə qarşı çıxış etdilər. Biz sözsüz, Rusiyaya istiqamətlənmişdik. Biz əsas olmadan qələbəyə aludə olmuşduq. Biz inanırdıq ki, çar hökuməti sədaqətimiz, əzablarımız və köməyimiz üçün bizə muxtariyyət verəcəkdir. Bu muxtariyyət Türkiyənin azad olan erməni vilayətlərindən və Cənubi Qafqaz Ermənistanından ibarət olacaqdır. Ov.Kaçaznuni yazırdı ki, biz arzularımızı başqaları ilə bağlayırdıq. Həmişə hansısa məktub (İ.Vorontsov-Daşkovun katolikosa cavab məktubu – M.Q.) göstərilirdi. Bunu biz gələcəkdə öz hüquqlarımızı tələb edən və haqlarımızı qoruyan əsas kimi qəbul edirdik. Bununla belə, bu məktub çox ustalıqla tərtib edilərək ümumi və başdan-başa qeyri-müəyyən mülahizələrdən başqa bir şey deyildi, onları istənilən kimi mənalandırmaq olardı.

Deməli, Osmanlı dövləti hələ müharibəyə qatılmamış həm Rusiya, həm də Osmanlıda yaşayan ermənilər avantüra yolunu tutdular.

### Erməni silahlı dəstələrinin hazırlanması

Rusiya ilə Osmanlı arasında müharibənin başlanması yalnız an məsələsi idi. Belə bir an gəlib çatdı. Oktyabrın 17-də türk donanması Novorossiysk limanını bombardman etdikdən bir neçə gün sonra – oktyabrın 20-də imperator II Nikolay bütün Rusiya təbəələrinə müraciət etdi. Müraciətdə deyilirdi ki, rus əsgəri artıq Dunay sularını, Balkan zirvələrini, Plevne çöllərini, Ədirnə və Ərzurumu, Mərmərə dənizinin sahillərini və Çarqradın (İstanbul nəzərdə tutulurdu – M.Q.) ətrafını görmüşdür. Türkiyə ilə müharibə başlamışdır.

Bundan sonra “Daşnaksütyun” partiyasının imperator II Nikolaya müraciətində yazılırdı: “Bizim əziz vətənimizin payına rus silahının və Rusiyanın Şərqdə tarixi vəzifələrinin yerinə yetirilməsi sınağı düşür. Qoy rus bayrağı Bosfor və Dardaneldə azad dalğalansın. Əlahəzrət hökmdar, qoy sizin iradənizlə Türkiyə zülmü altında olan xalqlar azadlıq alsınlar.”

Beləliklə, çar Rusiyası, erməni kilsəsi, erməni terror-siyasi təşkilatları Osmanlı dövləti əleyhinə birləşdilər.

Müharibə başlanan kimi, Qafqaz canişini İ.Vorontsov-Daşkov Tiflis şəhər başçısı erməni Aleksandr Xatisovu, Gürcüstan və İmeretiya erməni kilsəsinin rəhbəri yepiskop Mesrop Ter-Movsesyanı yanına çağıraraq “könüllü erməni dəstələri”nin təşkil edilməsi arzusunu bildirdi. Bu silahlı dəstələr çarizmin maliyyə, təşkilatı və maddi yardımları ilə hazırlanacaq, hərbi əməliyyatlar meydanında dövlət vəsaiti hesabına təmin olunacaqdılar. İmperator hökuməti erməni dəstələrinin təşkili məqsədilə ilkin olaraq 242 min 900 rubl vəsait ayırdı.

Bolqarıstandan Tiflisə gələn Andranik Ozanyan Qafqaz canişini ilə görüşərək başında durduğu dəstə üçün onun sərəncamına uyğun olaraq bir neçə min tüfəng aldı. Andranik daha sonra Qafqaz Hərbi Dairəsinin Qərargahına getdi. Ona hərbi orden verildi.

“Türkiyədə yaşayan qardaşlarının azad edilməsi” kimi demoqoji şüarlar altında Rusiyanın müxtəlif yerlərindən və bəzi xarici ölkələrdən Cənubi Qafqaza gələn ermənilərdən yaradılan silahlı dəstələrlə çar ordusunun cərgələri doldurulurdu. Onların əksəriyyəti terrorçu idi.

Çarizm sənədlərində yazıldığı kimi, silahlı dəstələrin başına Andranik məşhur terrorçuları təyin etdi. Birinci erməni drujinasına Andranikin özü, ikincisinə Drastamat (Dro) Kanayan, üçüncüsünə Keri, dördüncüsünə Amazasp Srvançtyan başçılıq edirdilər. Beşinci dəstə də quruldu. Hamısı birlikdə Ararat dəstəsi adlanırdı. Ümumi rəhbəri Vardan idi. Daha sonra İşxanın komandirliyi altında yeni dəstə yaradıldı. Ona Tapon dəstəsi adı verildi. Dəstələri çarizm təchiz edirdi.



Andranik dəstə üzvləri ilə birlikdə (1915-ci il)

Noyabrın 1-də rus ordusu Türkiyə sərhədini keçdi. Rusiya noyabrın 2-də Türkiyəyə müharibə elan etdi. Müharibənin başlanması ermənilərin ümidlərini artırdı. Silahlı dəstələrin təşkili üçün ermənilərin Mərkəzi Komitəsi və Erməni drujinalarının bölüşdürülməsi komitəsi quruldu. Mərkəzi komitənin tərkibinə tanınmış ermənilər daxil edildilər. Drujinaların bölüşdürlməsi komitəsi erməniləri toplayır, təlim keçir və cəbhəyə göndərirdi. İki üzvündən biri daşnak olan bu komitənin Tiflis, İrəvan, İqdır və Vanda bölmələri var idi. Qısa müddət ərzində Qafqazda 18 yaşından 40 yaşadək olan ermənilərin səfərbərliyi keçirildi. Bakı Erməni Mədəniyyət İttifaqının Mərkəzi Komitəsi müharibədə “vətənpərvərlik işinə” yardım” məqsədilə kampaniyaya başladı. Bütövlükdə, ermənilər Bakıda yalnız bir ay ərzində 18 min 804 rubl 81 qəpik pul topladılar. Cənubi Qafqazda yeni cəmiyyətlər quruldu.

Aparılan təbliğat nəticəsində Osmanlı ordusunda xidmət edən erməni əsgərlər silahları ilə birlikdə kütləvi şəkildə Rusiya tərəfinə keçməyə başladılar. Ermənilər bir neçə cəbhədə müharibə aparan Osmanlı dövlətinə xəyanət edərək onu arxadan vurdular. Vanda silah və sursat anbarı yaradıldı. Van işğal edildikdən sonra “Daşnaksütyun” kürdləri və türkləri soyub-talamaq və məhv etmək əmrini verdi. Erməni dəstələri dinc türk, müsəlman əhalinin yaşadıqları kəndlərə girərək kütləvi surətdə onları qırır, ərzaqlarını qarət edir, evlərini yandırırdılar. Bundan sonra həmin kəndlərə rus ordusu daxil olurdu.

### Erməni vəhşiliyinə çarizmin münasibəti

Mülki əhalini qarət edən erməni dəstələrinin topladığı qəniməti tutub aldığı üçün daşnaklar rus komandanlığına nifrət edirdilər. Onlar 5 min nəfərlik jandarma dəstələri qurub Türkiyənin Şərq vilayətlərində yerli hakimiyyəti əllərinə keçirməyə, silahlıların sayını 40 min nəfərə çatdırmağa çalışırdılar.

Rusiya ordu komandanlığının mövqeyi daşnakları şübhələndirdiyi üçün daşnak Rostomu Fransa və İngiltərə dairələrinin “erməni məsələsi”nə münasibətini öyrənmək üçün göndərdilər. Ermənilər müharibənin sonunda sülh müqaviləsi bağlanarkən muxtariyyət alacaqlarına ümid edirdilər. Rostom Londonda İngiltərənin xarici işlər naziri Edvard Qrey ilə görüşdü. O, müharibənin yekununda ermənilərə muxtariyyət verilməsi üçün çalışacağını dedi. Rusiyanın isə işğal etdiyi “Türkiyə Ermənistanı”nı ermənilərə vermək istəmədiyi məlum olduqda ruh düşkünlüyü yarandı. Erməni dəstələri arasında əhval-ruhiyyəni yüksəltmək üçün Tiflisdən yepiskop Mesrop və İrəvandan yepiskop Xoren drujinaların yanına getdilər. Onlar drujinaçılara dedilər ki, ələ keçirdikləri silahları rus ordusuna verməsinlər, əgər Rusiya muxtariyyət verməsə, ermənilər əldə silah onun uğrunda döyüşəcəklər. Erməni kilsə xadimləri bildirdilər: “Böyük Ermənistan ideyasının həyata keçirilməsinə mane olmamaq üçün ermənilər silahı tatarlara (azərbaycanlılara-M.Q.) qarşı işlədə bilərlər.”

1914-cü ilin noyabrın əvvəllərində yepiskop Mesrop, ermənilərin ziyalı hesab etdikləri şair Ovanes Tumanyan, dramaturq Aleksandr Şirvanzadə, Xununyans seminariyasının direktoru Nersesyan da hərbi əməliyyatlar bölgəsinə getdilər. Bununla erməni ziyalıları da düşmənçiliyin qızışdırılmasındakı əvvəlki rollarını davam etdirdilər. Türkiyədə ermənilərlə türklər arasında münasibətlərin kəskinləşməsi ilə əlaqədar olaraq “Mşak” qəzeti yazırdı: “Sən demə, biz – Rusiya erməniləri öz taktikamızla və yersiz bəyanatlarımızla Türkiyədəki qardaşlarımızın vəziyyətini ağırlaşdırırıq. Biz gərək bütün səylərimizlə elə edək ki, xarici mətbuatda yazıldığı kimi, onsuz da ağır olan Türkiyə ermənilərinin vəziyyətini ağırlaşdırmayaq.”

Buna baxmayaraq, ermənilərin cəbhəyə göndərilməsi artdı. Noyabrın 5-də Bakıdan 80, noyabrın 6-da 120, Mərvdən isə 25 nəfər erməni türklərlə döyüşmək üçün cəbhəyə yola düşdü. “Mşak” qəzeti yazırdı ki, 1914-cü ilin noyabrında 700 nəfər silahlı “qnçakçı” dağlara keçərək Türkiyəyə qarşı hərbi əməliyyatlara başladı. Zeytun erməniləri də türklərə qarşı qırğınlar törətdilər. Noyabrın əvvəllərində “Dro”, “Suren əfəndi” deyilən Drastamat Kanayanın rəhbərlik etdiyi 500 nəfərlik dəstə İqdırdan Bəyazidə getdi. Dro 1907-ci ildə Aleksandropolda general-leytenant Maqsud Əlixanov-Avarskini və Sürməli qəzasının rəisi, podpolkovnik Boquslavskini öldürməklə məşhurlaşmışdı.

Noyabr ayında Suxumidən 300 nəfər erməni Arşak, Artun, Bazar və Sarkisin rəhbərliyi altında erməni silahlı dəstələrinə qoşulmaq üçün Cənubi Azərbaycana yola düşdü. “Mşak” qəzeti “könüllülərin” daha 100 nəfərinin oraya gedəcəyini yazırdı. Qəzetin məlumatına görə, həmin ilin noyabrında Andranikin dəstələri Cənubi Azərbaycan tərəfdən türklərə qarşı əməliyyatlara başladı. Onları Urmiyədəki rus ordusunun komandanı, general Ç. salamlayaraq uğurlar arzuladı. Fəaliyyəti rus qərargahı tərəfindən yüksək qiymətləndirilən Andranik yüksək mükafata və qızıl silaha, dəstəsinin 121 üzvü isə “Georgi xaçı”na layiq görüldü. Yeni silahlı dəstələrin hazırlanması işi daha da genişləndirildi.

Katolikos V Gevorqun tapşırığı ilə Qafqaz diyarı hüdudlarında noyabrın sonunda ermənilər üçün yardım toplandı. Tiflisdə qurulan “Erməni qızları komitəsi” yaralılara xidmət göstərir, təbliğat aparır və əsgər ailələrinə yardım edirdi.

### Erməni silahlı dəstələri Rusiya əleyhinə planlar qurdular

Rusiya erməni silahlı dəstələrini hazırlasa da erməni terror-siyasi təşkilatlarını və kilsəsini yalnız öz maraqları düşündürürdü. Döyüşlərə erməni silahlı dəstələrini hazırlayıb göndərən erməni mərkəzləri çarizm hakimiyyət orqanları ilə birlikdə gələcək Ermənistana dair layihələr hazırlamağa başladılar. 1914-cü ilin noyabr ayında ermənilərin Tiflisdəki mərkəzi bürosu Ermənistanda özünüidarəetmənin layihəsini aşağıdakı kimi formalaşdırdı:

“Türkiyənin erməni vilayətləri bir yerdə Rusiyanın ali prorektoratlığında birləşdirilir. Mərkəzi inzibati şəxs xristian dininə itaət edən yüksək rütbəli general-qubernator olur. Geniş yerli islahatlar keçirilir. Sərhədləri dəyişdirilən erməni vilayətləri belə təşkil edilir: şimalda rus hüdudları; cənubda Aralıq dənizi. Beləliklə, onların tərkibinə Kilikiya (Çuxuroba – M.Q.) daxil olur.”

“Kaspi” qəzetinin 1914-cü il 18 noyabr tarixli 259 №li sayında yazılırdı ki, 6 vilayətdə – Ərzurum, Van, Bitlis, Harbert, Diyarbəkir və Sivasda ermənilər yığcam halda yaşayırlar. Digər iki vilayətdə – Adananın cənubunda və Trapezundun şimalında (Trabzon-M.Q.) ermənilər 40-50 faizə qədərdir. Bütün 6 vilayətdə 1 milyon 18 min erməni yaşayır. Digər 1 milyon 82 min erməni isə pərakəndə halda bütün Türkiyə ərazisində yaşayır. Heç yerdə Adanada və Trapezunda olduğu kimi çoxluq təşkil etmirlər. Beləliklə, Türkiyədəki bütün ermənilərin sayı 2 milyon 100 min nəfərə çatır. Hələ 1882-ci ildə İstanbuldakı erməni patrixanasının dərc etdiyi statistik məlumata görə, Türkiyədəki ermənilərin sayı 2 milyon 600 min nəfərə qədər idi. Bunun da 1 milyon 680 min nəfəri həmin altı vilayətdə yaşayırdı.

Əlbəttə, rəqəmlər xeyli şişirdilmişdi və gerçəkliyi əks etdirmirdi.

Bu zaman erməniləri ümidləndirən bir hadisə baş verdi. 1914-cü il noyabrın 26-da imperator II Nikolay Tiflisə gəldi. Dəvət olunan katolikos V Gevorq Eçmiadzindən çıxaraq onun qəbuluna getdi. Söhbət zamanı Osmanlının məğlub edilməsinin, erməni istəklərinin həllinin vacibliyi və silahlı dəstələrin vahid mərkəzdə təşkili barədə razılıq əldə edildi. Katolikosun Tiflisə gəlişi ilə eyni vaxtda erməni silahlı dəstələrinin döyüş meydanlarına göndərilməsi daha da artdı. Dekabrın 5-də Aramın rəhbərliyi altında “erməni könüllülərinin” bir hissəsi Xoya, oradan da Dilmana keçdi.

İmperatorla görüşdən sonra V Gevorq dekabrın 7-də Tiflisdə ermənilər qarşısında etdiyi çıxışında dedi: “İmperator II Nikolay onunla görüşəndə bildirmişdir ki, Böyük Pyotrun zamanından başlayaraq, Rusiya erməni xalqının müdafiəçisidir və indi Türkiyədə erməni xalqının azad edilməsi üçün çalışır. Erməni xalqı həmişə Rusiyaya sadiq qalmışdır və indiki tarixi şəraitdə qüdrətli rus ordusunun düşmən üzərində qələbəsi üçün bütün qüvvəsini verməlidir.”

İ.Vorontsov-Daşkov dekabrın 17-də İ.Qoremıkinə göndərdiyi teleqramında yazırdı ki, Türkiyənin Cənubi Qafqazda böyük siyasi maraqlarından başqa, Bakıda nəhəng neft mədənləri vardır. Onların türklər tərəfindən tutulması dövlətə böyük ziyan vurar. Canişin dövlət orqanlarının Tiflisdən köçürülməsini təklif edirdi. İ.Vorontsov-Daşkov dekabrın 21-də İ.Qoremıkinə göndərdiyi teleqramda yazırdı ki, türk ordusunun hücumları qarşısında bizim azsaylı Qafqaz ordumuz tab gətirə bilməz, türk ordusuna müsəlmanların rəğbəti artır. Ona görə də erməni silahlı dəstələrinin qurulmasına diqqət daha da artırıldı. Dekabr ayında “Priaz. Kr” qəzetində V Gevorqun və Qriqor X. Çalxuşyanın erməni komitələrinə belə müraciəti dərc olundu:

“Bununla, bütün erməni komitələrinin diqqətinə çatdırırıq ki, bundan sonra erməni könüllülərinin təlimi, ekipajlaşdırılması və zəruri olan bütün hər şeylə təchiz edilməsi yalnız Tiflisdə həyata keçiriləcəkdir. Burada hökumət bizim könüllülərin ehtiyaclarına geniş kömək edir. Ona görə də Tiflis bürosunun sərəncamına uyğun olaraq bütün erməni komitələrindən yerli xərclərdən imtina olunmasını xahiş edirik. Çünki vəsaitə kəskin ehtiyac vardır və ianələri təcili olaraq Tiflis bürosunun sədri Samson Stepanoviç Arutunovun adına göndərməyi xahiş edirik” (Qriboyedov küçəsi, Tiflis).

Tehran erməniləri də silahlı dəstələrə yardımda xüsusi fəallıq göstərdilər. Bolqarıstan, Rumıniya və digər ölkələrdən gələn ermənilər 1000 nəfərlik dəstə ilə dekabrın 19-da rus–türk cəbhəsinə yollandılar. Sonralar erməni tarixçisi A.Lalayan yazırdı ki, 1914-cü ilin əvvəlindən 1915-ci ilin sonunadək “Daşnaksütyun” 10 min nəfərlik “könüllü dəstə” yaradaraq Türkiyəyə qarşı döyüşə göndərdi. Bütövlükdə, Birinci dünya müharibəsi illərində 40 min erməni silahlısı dinc müsəlman, türk əhalisini kütləvi şəkildə qətlə yetirib.

**(ardı var)**

# Elmlər Akademiyası XX əsrdə tarixi zərurətdən yarandı






Ümummilli lider Heydər Əliyev akademik Yusif Məmmədəliyevin heykəlinin açılış mərasimində – 16 sentyabr 1998-ci il.

**Arif HƏŞİMOV, akademik**

(əvvəli ötən saylarımızda)

**SSRİ Elmlər Akademiyası nümayəndə heyətinin rəhbəri akademik D.S.Korjanskinin oxuduğu ittifaq EA-nın təbrik məktubunda deyilirdi:**

“Azərbaycan SSR Elmlər Akademiyasının mövcud olduğu bütün illər ərzində onun göstərdiyi fəaliyyətin xüsusiyyəti bundan ibarətdir ki, Azərbaycan alimləri respublikanın sənayesi və kənd təsərrüfatı ilə sıx və bilavasitə əlaqə saxlayır, elmi-tədqiqat işlərinin xalqın mənafeyinə tabe etdirməyə çalışır...

Əmin olduğumuzu bildiririk ki, Azərbaycan SSR Elmlər Akademiyasının alimləri öz yeni tədqiqatları və elmi kəşfləri ilə qabaqcıl sovet elminin daha da tərəqqi etməsinə yardım göstərəcəklər. Azərbaycan xalqına və Azərbaycan alimlərinə respublikanın xalq təsərrüfatını, elm və mədəniyyətini böyük Vətənimizin rifahı üçün inkişaf etdirmək sahəsində yeni-yeni yaradıcılıq müvəffəqiyyətləri arzu edirik”.

Ukrayna SSR Elmlər Akademiyasının həqiqi üzvü İ.Z.Ştokalo, Belarusiya SSR Elmlər Akademiyasının həqiqi üzvü N.F.Yermolenko, Özbəkistan SSR Elmlər Akademiyası Kimya İnstitutunun direktoru X.U.Usmanov, Gürcüstan SSR Elmlər Akademiyasının prezidenti, akademik N.İ.Musxelişvili, Ermənistan SSR Elmlər Akademiyası prezidentinin müavini A.L.Mikoyan, Türkmənistan SSR Elmlər Akademiyası prezidentinin müavini O.N.Məmmədniyazov, Qırğızıstan SSR Elmlər Akademiyasının Geologiya İnstitutunun direktoru M.M.Adışev, Tacikistan SSR Elmlər Akademiyası prezidentinin müavini A.P.Nedavetski, Estoniya SSR Elmlər Akademiyasının həqiqi üzvü A.Y.Koort, SSRİ Elmlər Akademiyası Dağıstan Filialı Rəyasət Heyətinin sədri X.P.Əmirxanov da sessiyada təbrik nitqi söyləmişlər.

Azərbaycan KP MK Elm və mədəniyyət şöbəsinin müdiri A.S.Bayramov sessiyanın iştirakçılarını Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti, Azərbaycan SSR Nazirlər Kabineti və Azərbaycan KP NK adından, Neft sənayesi nazirinin müavini İ.M.Əsədov respublikanın Neft Sənayesi Nazirliyi adından təbrik nitqi söyləmişlər.

Sessiya SSRİ Tibb Elmləri Akademiyasından, SSRİ Arxitektura Akademiyasından, Litva SSR Elmlər Akademiyasından, Moskva Dövlət Universitetindən, SSRİ Elmlər Akademiyasının Neft İnstitutundan, habelə başqa elmi idarələrdən və alimlərdən təbrik teleqramları almışdır. Akademik A.Y.Koort Estoniya Elmlər Akademiyasının Azərbaycan xalqının görkəmli nümayəndələrinin dünya mədəni xəzinəsinə verdikləri böyük töhfələrdən bəhs olunan səmimi təbrikini səsləndirmişdir.

Elmlər Akademiyasında akademiyanın və onun institutlarının elmi əsərlərindən ibarət sərgi açılmışdır. Sessiya 4 gün davam etmişdir. Ümumi iclaslarda və bölmə iclaslarında əsas elmi problemlərə və akademiya alimlərinin yaradıqları əsərlərə dair 65 məruzə dinlənilmişdir. Elmi sessiya iştirakçıları və qonaqlar aprelin 24-də Azərbaycan paytaxtının görməli yerlərini səyahət etmiş, muzeyləri ilə tanış olmuşlar.

Aprelin 25-də, ikinci plenar iclasda Azərbaycan SSR Elmlər Akademiyası bölmələrinin elmi-katibləri sessiya iştirakçılarına müvafiq elm sahələrinin respublikanın inkişafı və qarşıda duran vəzifələrinə həsr olunmuş məruzələrini təqdim etmişlər.

Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü Səməd Vurğun Vəkilov “Respublikada ictimai elmlərin inkişafı və vəzifələri”, akademik M.A. Qaşqay “Respublikada geoloji-coğrafi və kimya elmlərinin vəziyyəti və perspektivləri”, akademik A.İ.Qarayev “Biologiya və kənd təsərrüfatı elmləri sahəsində aparılan tədqiqat işlərinin yekunları və respublika elmi idarələrinin vəzifələri haqqında” məruzələrlə çıxış etmişdir. Akademik M.F.Nağıyev fizika-texnika elmləri sahəsində aparılan işlərin nəticələrinə və onların inkişaf perspektivlərinə dair hesabat təqdim etmişdir. Texnika elmləri doktoru, professor Əfəndizadə fizika-texnika elmlərinin inkişaf etdirilməsi sahəsində görülən işlərin nəticələri haqqında məruzə etmişdir. Aprelin 25-də axşam və 26-da bölmələrin iclasları davam etdirilmişdir. Bununla Azərbaycan SSR Elmlər Akademiyasının sessiyası qurtarmışdır.

Azərbaycanda Sovet hakimiyyətinin yaradılmasının 35-ci ildönümü və Azərbaycan SSR Elmlər Akademiyasının 10-cu ildönümü ilə əlaqədar olaraq akademiyanın keçirdiyi elmi sessiya aprelin 27-də qurtarmışdır.

Sessiyanın işində Azərbaycan alimləri, onlarla birlikdə qardaş respublikaların alimləri – SSRİ Elmlər Akademiyasının, Ukrayna, Belarusiya, Özbəkistan, Gürcüstan, Ermənistan, Qırğızıstan, Türkmənistan, Tacikistan, Estoniya Elmlər Akademiyalarının və SSRİ Elmlər Akademiyası Dağıstan filialının nümayəndə heyətləri iştirak etmişlər.

Ümumi iclaslarda edilən məruzələrdən əlavə, geologiya-kimya elmləri bölməsinin, fizika-texnika elmləri bölməsinin, biologiya və kənd təsərrüfatı elmləri bölməsinin, ictimai elmlər bölməsinin iclaslarında alimlərin işlərinin əsas problemləri və ən mühüm nəticələri barəsində 61 məruzə dinlənilmiş və müzakirə edilmişdir.

Sessiyanın iştirakçıları son iclasda qətnamə qəbul etmişlər. Qətnamədə elmi işi daha da yaxşılaşdırmaq, onun təcrübə ilə əlaqəsini qüvvətləndirmək, Kommunist partiyasının və Sovet hökumətinin sovet elmi qarşısında qoyduqları vəzifələrlə əlaqədar olaraq xalq təsərrüfatının inkişafına yardım göstərmək yolları müəyyən edilmişdir. Qəbul olunan qətnamə sovet elmi siyasətinin əsas komponentlərini – elmin iqtisadi inkişafla uzlaşdırılması və tətbiqi nəticələrin önə çəkilməsini Azərbaycan kontekstində formalaşdırmışdır.

Akademiyanın prezidenti M.M.Əliyev sessiyanı bağlayarkən qısa son söz söyləmiş və qardaş respublikaların akademiyalarından gəlmiş alimlərə sessiyanın işində iştirak etdiklərinə görə səmimi təşəkkürünü bildirmişdir.

Sessiyanın gedişi barədə bu geniş məlumat “Kommunist” qəzetinin (indiki “Xalq qəzeti”– red.) 1955-ci il aprel nömrələrindən götürülmüşdür. Azərbaycan SSR Elmlər Akademiyasının 10 illiyi münasibətilə 23–27 aprel 1955-ci il tarixində keçirilmiş Azərbaycan SSR Elmlər Akademiyasının



elmi sessiyasının hesabatı “1945–1955. Azərbaycan SSR Elmlər Akademiyasının 10 illiyi. Elmi sessiya, 23–27 aprel 1955-ci il. Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, Bakı, 1957” kitabında da öz əksini tapmışdır.



Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti, akademik Yusif Məmmədəliyevin Rəyasət Heyətində çıxışı.

Hazırda Akademiyada aparılan islahatların fundamental prioritetlərindən biri də AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin təşəbbüsü ilə ölkəmizin tarixinin o dövrünün əlamətləri ilə bərabər, şəxsiyyətlərinin də sovet dövrünün yanaşmasından fərqli öyrənilməsidir. Onlar bu tarixi yaradan şəxsiyyətlər kimi əks olunmalıdırlar.

AMEA-nın keçdiyi tarixi yola nəzər saldıqda onun üzvlərinin fəaliyyətinə, yeri gəldikcə müraciət etmək lazımdır. Belə bir şəxsiyyətlərdən biri də ümummilli lider Heydər Əliyevin qardaşı, görkəmli alim, akademik Həsən Əliyevdir. Böyük qürur hissi ilə qeyd etməliyik ki, keçən əsrdə iqtisadi fəaliyyətin ekosistemin ekoloji tutumundan kənara çıxmasının gözlənilən fəsadlarına dair ilk çağırışları edən də akademik Həsən Əliyev olmuşdur. Bu, həm də onun sübutudur ki, Azərbaycanda “yaşıl təfəkkür”ün, ekoloji düşüncənin tarixi heç də son onilliklərdəki dünyanın yeni çağırışları ilə bağlı deyildir. Bizim elmi fikir tariximizdə belə mütərəqqi yanaşmalar xeyli əvvəlki dövrlərə təsadüf edir.

SSRİ EA və müttəfiq respublikaların elmlər akademiyaları arasında ilk dəfə olaraq 1955-ci ildə Azərbaycan EA Rəyasət Heyətinin nəzdində Təbiəti Mühafizə Komissiyası təşkil edilmiş və bu komissiyaya Həsən Əliyev başçılıq etmişdir. 1955-ci ildən başlayaraq, təbiətin qorunması ilə əlaqədar dövri mətbuatda çox sanballı məqalələr çap edilmişdir.

Azərbaycanın görkəmli Xalq şairi Məmməd Araz akademik Həsən Əliyev haqqında “Böyük alim, böyük insan” məqaləsində yazmışdır: “Vaxtilə Yer üzündə əhalinin indikindən xeyli az olduğu bir zamanda insanın təbiətə təsiri zəif idi. Dünya əhalisinin çoxaldığı, insanın fəal qüvvə olduğu bir dövrdə, H.Ə. Əliyevin yazdığı kimi, tənasüb pozulur, təbiət bir növ “məğlub kimi” geri çəkilir. Lakin insan “bu qələbəsinə görə” döşünə döyməməlidir. Çünki insanın bioloji dövrana təsiri təbiətin zənginləşməsinə xidmət etmirsə, deməli, göyə atılmış daşın altından qaçmaq çox da asan olmayacaq. Müəllif respublikamız daxilində ətraf mühiti vərəqləyir, onun təbii mənzərəsinin xəritəsini göz önünə gətirməklə, əlvan rənglərdən danışmaqla bərabər, bu əlvanlığın pozulmaq qorxusundan da həyəcanla söhbət açır”.

Akademik Əliyev Həsən Əlirza oğlu 1978-ci ildə təbiətin mühafizəsi və Azərbaycanın təbii ehtiyatlarından səmərəli istifadə üzrə kompleks işlərinə görə Respublika Dövlət Mükafatına layiq görülmüşdür.

## Birinci dövrün təhlili

Akademiyanın ilk onilliyində əldə olunan elmi nailiyyətlər (ilk fundamental lüğətlərin tərtibi, ikicildlik “Azərbaycan tarixi”, çoxcildlik “Azərbaycan ədəbiyyatı tarixi” və s.) ölkədə elmin nüfuzunu artırdı, cəmiyyətdə milli intellektual özünüdərkin möhkəmlənməsinə xidmət etdi. Həmin dövrdə elm bir tərəfdən sovet ideologiyasının tələblərinə uyğunlaşmalı, digər tərəfdən milli-mədəni irsi qoruyub təbliğ etməli idi. AMEA bu çətin tarazlığı qorumaqla həm dövlətin ehtiyac duyduğu tətbiqi tədqiqatları həyata keçirir, həm də Azərbaycan xalqının tarixini, dilini, ədəbiyyatını sistemli şəkildə öyrənərək cəmiyyətin milli şüurunu zənginləşdirirdi.

Sosial baxımdan, elm kütlələrin nəzərində cəlbedici sahəyə çevrilmiş, gənc nəsildə elmə maraq artmışdı; ideoloji baxımdan isə akademiya apardığı tədqiqatlarla klassik irsimizi dövrün sosialist ideallarına uyğun şəkildə təhlil etsə də, mahiyyət etibarilə milli kimliyi yaşatmağa töhfə verirdi. Bu dövrün təcrübəsi göstərir ki, elmi inkişafın ilkin mərhələsində əldə edilən nəticələr sonrakı onilliklər üçün möhkəm təməl rolunu oynayır.

## AMEA-nın ikinci onilliyi

Azərbaycanda 1945-ci ildə Elmlər Akademiyasının təsis edilməsi İkinci Dünya müharibəsinin bitməsi dövrü ilə əlaqələndirilsə də, bu qurumun təsisinin əsasında böyük dövlətlərin qaşısında çox dərin elmi tutumlu silahların, o cümlədən nüvə silahlarının yaradılması və onlardan istifadə, ilk növbədə, onların uzaq məsafədə yerləşən ərazilərə çatdırılması problemləri dayanırdı.

ABŞ-ın İkinci Dünya müharibəsinin sonunda Yaponiyaya 2 ədəd atom bombası atması artıq dünyada elmi tutumlu problemlərə baxışda yeni yanaşmaları ortaya qoydu. Çox təcrübəli alimlər bu işlərə cəlb olunurdu. Eyni zamanda, nəzərə alınırdı ki, müharibənin törətdiyi ən böyük fəlakətlərdən biri də istər təbiət, istərsə də humanitar elmlər sahəsində yüksəkixtisaslı kadr çatışmazlığıdır. Təbiidir ki, burada müharibədən əvvəlki repressiyada itirilən kadr potensialı haqqında açıq şəkildə danışılmasa da, bu, özünü bütün sahələrdə çox aydın şəkildə göstərirdi.

Ölkədə məsələnin həllini SSRİ-nin öz elmi potensialını qoruyub saxlaya bilmiş elmi-tədqiqat institutlarına və ali təhsil müəssisələrinə müharibədən yenicə qayıtmış, arxa cəbhədə fəaliyyət göstərmiş mütəxəssislərin, müəyyən qədər tədqiqat aparmaq təcrübəsi olan gənclərin qeyd olunan qurumlara məqsədli tədqiqatlar aparmaq (aspirantura və elmlər doktorluğu üzrə doktorantura) üçün cəlb edilməsində görürdülər.

Müharibədən əvvəl və 1945–1955-ci illərdə qeyd olunan elmi-tədqiqat institutlarına və ali təhsil müəssisələrinə sonralar Azərbaycan Elmlər Akademiyasının üzvləri olacaq onlarla mütəxəssis göndərilmişdir. Onlardan həqiqi üzv olacaq bir neçəsini – H.M.Abdullayev, B.A.Ağayev,Z.M.Bünyadov, M.C.Cavadzadə, Ç.M.Cuvarlı, M.M.Dadaşzadə, R.S.Əfəndiyev, M.H.Əli-zadə, Z.Ə.Əliyeva, Ə.Ə.Əlizadə, İ.A.Hüseynov, M.Ə.İbrahimov, F.Q.Köçərli, M.Ə.Məmmədyarov, M.Ə.Musayev, C.B.Quliyev, Ə.M.Quliyev, Ə.C.Sultanov və başqalarını göstərmək olar. Göndərilənlərdən sonralar müxbir üzv seçilənlərin sayı da ümumi siyahıda heç də az deyildir.

Akademiyanın sonrakı onilliklərində də məqsədli tədqiqatlara göndərilənlərin sayının əvvəlkindən xeyli çox olması ilə yanaşı, müharibədən əvvəl və 1945–1955-ci illərdə ezam edilən mütəxəssislər – yeni nəsil alimlər də Azərbaycana qayıtdıqdan sonra öz elmi məktəblərini yaratdılar və gələcək tədqiqatlar üçün yüksəkixtisaslı kadr hazırlığını müvəffəqiyyətlə həyata keçirdilər. Beləliklə, demək olar ki, sonrakı onilliklərin kadr potensialı ilk onilliyin hesabına yaradılmışdır və bu faktı akademiyanın birinci onillikdə əldə etdiyi nailiyyətlər sırasına daxil etmək məqsədəuyğundur.

Yuxarıda şərh olunanları daha da əyani şəkildə göstərmək məqsədilə Azərbaycanda fizika elmi məktəbinin tarixi ilə bağlı olan bəzi əlamətdar hadisələri qeyd etmək yerinə düşərdi.

SSRİ Elmlər Akademiyasının müxbir üzvü, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü H.İ.Əmirxanov “A.F.İoffe haqqında xatirələr” kitabında yazır: “Mən 1935-ci ilin sonunda Azərbaycan Neft İnstitutunun fizika kafedrasının assistenti kimi Leninqrada gəldim. 1936-cı ildə Abram Fedoroviçlə ilk görüşümdən sonra Leninqraddan Bakıya qayıdarkən mənimlə birgə gənc fizik R.Q.Həsənov da qayıdırdı (hazırda o, Azərbaycan Dövlət Universitetinin maddə strukturu kafedrasına rəhbərlik edir). O, tez-tez Bakıya qayıtmağımızı xatırlayır və deyir ki, Leninqraddan mənimlə birlikdə yarımkeçiriciləri də gətirib”.

Həqiqətən də, həmin dövrdən Azərbaycan SSR Elmlər Akademiyasının Fizika İnstitutu yarımkeçiricilər fizikası üzrə elmi tədqiqatlar aparır və hazırda ölkəyə bir çox kəşflər və ixtiralar bəxş etmiş böyük elmi müəssisədir. Bu institutun direktoru, Azərbaycan SSR Elmlər Akademiyasının akademiki H.B.Abdullayev də Leninqradda doktorantura təhsili almış, A.F.İoffenin köməyi və dəstəyindən yararlanmışdır. Bu fakt Azərbaycanın elmi kadrlara sistemli şəkildə investisiya etdiyini və SSRİ-nin aparıcı elmi mərkəzləri ilə sıx əməkdaşlıq etdiyini sübut edir.

Görkəmli sovet alimi, akademik A.F.İoffenin və onun rəhbərlik etdiyi Leninqrad Fizika-Texnika İnstitutunun AMEA Fizika İnstitutunun inkişafındakı və kadr hazırlığındakı xidmətləri nəzərə alınaraq 2008-ci ildə Fizika-Texnika İnstitutunun 90 illik yubileyinə və akademik H.M.Abdullayevin xatirəsinə ithaf olunmuş “Azərbaycan fiziklərinin Sankt-Peterburq Fiztexi haqqında” xatirələr toplusu hazırlanaraq nəşr edilmişdir. Məcmuədə Leninqrad (indiki Sankt-Peterburq) A.F.İoffe adına Fizika-Texnika İnstitutunda aspirantura, doktorantura və təcrübə keçən alimlərimizin, o cümlədən akademiklər H.M.Abdullayevin, H.İ.Əmirxanovun, M.İ.Əliyevin, B.M.Əsgərovun, A.Ş.Mehdiyevin, B.H.Tağıyevin, T.C.Cəfərovun və digərlərinin təəssüratları verilmişdir.

## 20 illik yubiley

Yubileylə bağlı qeyd olunan nailiyyətlər, elmi məhsuldarlığın artması və elmi fəaliyyətin ümumrespublika səviyyəsində sosial tanınmasının göstəricisidir.

– AMEA-nın müxbir üzvü V.F.Neqreyev və geologiya-minerologiya elmləri namizədi F.İ.Səmədov Azərbaycan SSR-də dəniz neft yataqlarının hərtərəfli işlənməsinə görə 1961-ci ildə Lenin mükafatına layiq görülmüşlər.

– Azərbaycan SSR EA-nın Botanika İnstitutunun şöbə müdiri, akademik V.İ.Ulyanişev 1964-cü ildə 3 cildlik “Azərbaycan mikroflorası” elmi əsərlər toplusuna görə elm üzrə Lenin mükafatına layiq görülmüşdür.

– “Sovet incəsənətinin inkişafı sahəsində böyük xidmətlərinə görə” bəstəkar Fikrət Məşədi Cəmil oğlu Əmirova SSRİ Xalq artisti adı verilmişdir.

– Azərbaycan Ali Soveti Rəyasət Heyətinin 17 aprel 1965-ci il tarixli Fərmanı ilə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan SSR Mədəniyyət Nazirliyi Arxitektura və İncəsənət İnstitutunun direktoru Mikayıl Ələskər oğlu Hüseynov “Azərbaycan arxitekturasının inkişafındakı xidmətlərinə, səmərəli elmi-pedaqoji fəaliyyətinə görə və anadan olmasının 60 illiyi ilə əlaqədar olaraq” Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmişdir.

**(ardı var)**

**Mikayıl Hüseynov – 120**

# Çağdaş memarlıq məktəbinin yaradıcısı

## *Dünya şöhrətli sənətkarın irsi klassikaya çevrilib*

**Görkəmli memar Mikayıl Hüseynov XX əsr arxitektura tarixində xüsusi yeri olan sənətkarlardandır. O, müasir Bakı şəhəri memarlığının ən yaxşı nümunələrinin müəllifi olub. Eyni zamanda, Berlin, Moskva, Düşənbə şəhərlərində Şərq milli koloritli və ornamentləri ilə seçilən, bənzərsiz abidə və binalarının layihələri ona məxsusdur.**



Paytaxt sakinləri və qonaqlar, demək olar ki, hər gün akademik Mikayıl Hüseynovun memar təxəyyülünün məhsulu olan gözəl binaları görürlər. Amma çoxları bilmir ki, Bakıda Azərbaycan Sənaye İnstutu, Politexnik İnstitutu, Elmi-tədqiqat İnstitutu, Azərbaycan Dövlət Universiteti, Elmlər Akademiyasının yeni binası, Azərbaycan Dövlət Konservatoriyası, Dövlət Pedoqoji Universiteti kimi elm mərkəzlərini, Azərbaycan Milli Kitabxanasını, Nizami Kino Mərkəzi və Ədəbiyyat muzeyi kimi əhəmiyyətli binaları, "Azərbaycan" və "Abşeron" mehmanxanalarını məhz o layihələndirib.

Paytaxtı bəzəyən Nizami Gəncəvinin, Həzi Aslanovun, Səməd Vurğunun, Mehdi Hüseynzadənin, Üzeyir Hacıbəyovun, Məhəmməd Füzulinin abidələri də bu sıradadır. Bu abidələri memarın layihələri əsasında heykəltəraş Fuad Əbdürrəhmanov hazırlayıb. Heykəltəraş Pinxos Sabsayın Bakıda Əbdürrəhim bəy Haqverdiyev və Qazaxda Səməd Vurğun abidələrinin layihə müəllifi də Mikayıl Hüseynovdur. Ümumiyyətlə, ölkəmizin digər şəhərlərində də bir çox yaşayış evləri, ictimai binalar, mədəniyyət və elm ocaqları onun yadigarlarıdır.

Mikayıl Hüseynovun zəngin elmi irsi də var. Onun Şirvanşahlar sarayına və Bakının digər memarlıq abidələrinə həsr olunmuş elmi-nəzəri əsərləri memarlıq tarixinin öyrənilməsində böyük əhəmiyyət daşıyır. "Divan-xana", "Xan sarayı", "Nizami dövründə Azərbaycan memarlığının ümumi icmalı", "Azərbaycan memarlığı III-XIX əsrlərdə", "Azərbaycan memarlıq abidələrinin bərpası məsələləri" və sair kitabları Bakıda və Moskvada nəşr olunub.

Memarın həyatında sınaq dolu ibrətamiz hadisələr də az olmayıb. Məsələn, Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin əməkdaşı Esmira Məmmədova yazır: "1939-cu ildə Hökumət Evi"nin tikintisi ilə əlaqədar müsabiqəinin yekun iclasında Mircəfər Bağırov başda olmaqla, respublikanın bütün rəhbərliyi iştirak edirdi. Daxili İşlər komissarı (naziri) Stepan Yemelyanov Mikayıl Hüseynovun Sov.İKP üzvü olmadığı faktın qabardaraq, onun təqdim etdiyi layihədə sovet dövlətinin qurucusu Leninin heykəlinin binanın aşağı hissəsində (indiki Azadlıq meydanına baxan postament üzərində) yerləşdirilməsinə etirazını bildirir. Bu sözlərdən sonra salon sükuta qərq olur. Hamının nəzərləri Hüseynova dikilir. Yaranmış sükutu M.Bağırov pozur və deyir:

***– Yoldaş Hüseynov, sizə tutulan irad çox ciddidir. Bu barədə nə deyə bilərsiniz?***

O, dərhal ayağa qalxır və təmkinlə deyir:

***– Dahi rəhbərin heykəlinin binanın aşağı hissəsində qoyulmasını bilərəkdən təklif edirəm (bu sözlərdən sonra vəziyyət bir az da gərginləşir). Çünki proletariatın rəhbəri Lenin yoldaş heç vaxt zəhmətkeşlərdən uzaq olmayıb. Ona görə də layihəmdə heykəli kütləyə daha yaxın yerdə qoymuşam.***

M.Bağırov gənc memarın bu cavabından sonra ona heç bir söz demir. Ancaq baxışlarından hiss olunur ki, cavabdan razı qalıb. Buna baxmayaraq, məlum səbəblər üzündən Hüseynovun təqdim etdiyi layihə təsdiqlənmir. Mütəxəssislər qeyd edirlər ki, onların layihəsi daha təkmil və əzəmətli idi. Müsabiqədə 1-ci yer Moskva münsiflər heyəti tərəfindən Lev Rudnevə verilir"...

Müstəsna xidmətlərinə görə Hüseynov bir çox orden və medallarla təltif olunmuş, fəxri adlara layiq görülmüşdür. Ömrünün son ili olan 1992-ci ildə alimin təşəbbüsü ilə Beynəlxalq Şərq Memarlıq Akademiyası yaradılmış və ilk prezident Mikayıl Hüseynov olmuşdur. Azərbaycanı dünyaya tanıdan, klassikimiz M.Hüseynov həmin ilin iyununda Beynəlxalq Memarlar Akademiyasının Moskva şöbəsinin fəxri üzvü seçilmişdir.

İngiltərə kraliçası II Yelizavetanın himayəsi altında olan "Böyük Britaniya Asiya Cəmiyyəti" tərəfindən 1985-ci ildə təşkil edilən "Bakının memarlığı" sərgisində akademik M.Hüseynovun əsərləri nümayiş etdirilmiş, sərgi materiallarına keçirilən baxış və müzakirələrdən sonra o, Böyük Britaniya və İrlandiya Krallığının Asiya cəmiyyətinin fəxri üzvü olmuşdur.

Ömrünün böyük bir hissəsini memarlq elminin və inşaat texnikasının inkişafına həsr etmiş Mikayıl Hüseynovun məzarı Bakıdakı Fəxri xiyabandadır. Azərbaycan incəsənəti, Bakı memarlığı üçün onun çəkdiyi zəhmətin, atdığı addımların misli yoxdur.

***Ə.ƏLİYEV***
***XQ***

**Tədqiqatçı və ictimai xadim Adıgözəl Məmmədovun Azərbaycan tarixində görkəmli iz qoymuş dövlət və partiya xadimi, diplomat, tibb elmləri doktoru, professor, Əməkdar həkim Əziz Əliyevin ictimai və siyasi fəaliyyətinə həsr olunan "Böyük Azərbaycan naminə" kitabı ingilisdilli oxuculara təqdim olunub.**

# Əziz Əliyev fenomeni ingilis dilində




Müəllif arxiv sənədlərinə əsaslanaraq, Əziz Əliyevin Cənubi Azərbaycanda və Dağıstanda işlədiyi illəri ictimai dövriyyəyə yenicə buraxılmış arxiv sənədlərinə istinad edərək işıqlandırır, o dövrün hadisələrinə yeni baxış bucağından nəzər salır.

Xüsusilə, kitabda qeyd olunur ki, müharibənin qızğın vaxtında, Moskvadakı müəyyən qüvvələr Qafqaz xalqlarının Orta Asiyaya köçürülməsi məsələsini SSRİ Dövlət Müdafiə Şurası qarşısında qoymağa hazırlaşırdılar və ilk seçim Dağıstan xalqlarının üzərinə düşürdü.

Belə bir "perspektiv"in qarşısının alınmasında Dağıstan Vilayət Partiya Komitəsinin I katibi Əziz Əliyevin qətiyyəti böyük rol oynayıb. Müharibə illərində və müharibədən sonra bu respublikada sürgünə səbəb olacaq heç bir neqativ fakt meydana çıxmayıb. Dağıstan xalqlarının köçürülməsi məsələsi bir daha qaldırılmayıb.

Bu tədqiqat əsərində tariximizin bir çox gizli səhifələrinə də işıq salınıb.

***XQ***

**Xalidə Hasilova – 105**

**Yazıçı Xalidə Hasilova 1920-ci il aprelin 19-da güllər diyarı Zaqatalada dünyaya göz açıb. Elə yaradıcılığı da çiçəkli bir bağçaya bənzəyir. Əsasən, uşaq və gənclərin həyatından heç vaxt təravətini itirməyən maraqlı əsərlər yazıb.**



# Uşaq ədəbiyyatından qadın mətbuatına söz körpüsü

Onun hekayələrindən biri "Çiçək dənizi" adlanır. Düzənliyə gəzintiyə çıxan uşaqlar oranı dəniz adlandırırlar. Çünki meh vuran çiçəklər dəniz kimi ləpələnir, ətrafa xoş rayihə yayırdı. Uşaqlar çoxlu zəncirotu, zəngçiçəyi, kəklikotu yığıb məktəbə və evə aparırlar. Müəllimləri onlara Vətən torpağının möcüzəli bitkilərinin gözəllik yaratdığını və sağlamlığa xeyrini bədii dillə izah edirlər. Uşaqların həm gözəllikləri duyması, həm də maariflənməsi baxımından maraqlı hekayədir.

"Atlas yarpaqlar", "Yasəmən budağı" – adlarından da göründüyü kimi, tala-tala çiçəkləri olan Zaqatala bu bölgənin övladı olan ünlü qələm sahibinin yaradıcılığına təbii bir gözəllik gətirib. Xalidə Hasilova orta məktəbdən sonra Zaqatala Pedaqoji Texnikumunu bitirib və Leninqrad Universitetinin filologiya fakültəsinə daxil olub. Amma İkinci Dünya müharibəsi başlananda Bakıya gələrək, təhsilini Azərbaycan Dövlət Universitetində (indiki BDU) davam etdirib.

Müxtəlif illərdə "Uşaqgəncnəşr"də redaktor, "Azərbaycan qadını" jurnalında ədəbi işçi və baş redaktor olub. Bir müddət "Göyərçin" jurnalına da rəhbərlik edib. Azərbaycan qadınlarının həyatından bəhs edən "Hamı doğmadır mənə", "İnsan ömrü bir nəğmədir" pyeslərini (başqa dram əsərləri də var), "Sular durulur", "Kaman", "Çəhrayı rəng", "Çətin yollar boyunca", "Nəğməli Könül" və s. povestlərini yazıb.

Bu sətirlərin müəllifi hələ uşaq ikən Xalidə Hasilovanın nağıl-hekayələrini Xalq artisti Aydın Qaradağlının ifasında radiodan dinləyib. "Saatsaz qarğa" və "Cəmilə" adlanan o hekayələri dinləyəndə səs salan qardaşlarıma təpinməyim də yadımdadır. Əlcəzairli adaşı ilə tanış olan balaca Cəmilənin onunla dostluğunun nəqli son dərəcə təbii idi. Qızcığaz yeni rəfiqəsinə anası kimi təyyarə bələdçisi olmaq istədiyini bildirəndə adaşı uşaq sadəlövhlüyü ilə deyir: "Təyyarə ilə Əlcəzairə gələr, evimizin üstündən keçəndə əl edərsən, səni görərəm".

Maraqlı nəsr əsərlərinin müəllifi kimi tanınan yazıçının 1950-ci ildə çapdan çıxmış ilk kitabının adı "Kiçik hekayələr" olub. Sonra "İlk məktub", "Lalənin kitabı", "İki yoldaş", "Onun taleyi", "Nəğməli könül", "Məhəbbət olmayanda", "Çətin yollar boyunca", "Xoruzlu dəsmal" və s. kitabları çap edilib. "Ucqar bir kənddə" romanı, "Ana fəryadı" povesti ciddi ədəbiyyat nümunələri kimi diqqət çəkib.

Eyni zamanda, o, kiçik yaşlı uşaqlar üçün tərcümələri ilə də ədəbiyyatımızı zənginləşdirib. N.Nosovanın "Şən ailə", N.Tixonovun "İgid partizan", İ.Pereranın "Zənci balası Atolo", Ə.Nesinin "İndiki uşaqlar möcüzədir", M.Bayramın "Günəş gözlü Mustafa Kamal" kitabları bu qəbildəndir. Yazıçının öz əsərləri də SSRİ-nin bir sıra xalqlarının, eləcə də xarici ölkə xalqlarının dillərinə tərcümə edilərək layiqincə qiymətləndirilib. Xalidə Hasilova dərin təhlili nəzəri məqalələrin də müəllifidir ki, onların əksəriyyəti uşaq ədəbiyyatı problemlərinə həsr edilib. Bunlardan "Uşaq ədəbiyyatında ədəbi tənqid haqqında", "Gözəl duyğular", "Uşaqlara yüksək keyfiyyətli əsərlər verək", "Ədəbiyyat və tərbiyə"ni göstərmək olar.

Hələ 1970-ci ildə onun 50 illik yubileyi ilə bağlı keçirilən tədbirlərdə iştirak edən ümummilli lider Heydər Əliyev Xalidə Hasilovanın ünvanına xoş sözlər söyləyərək onu "Azərbaycan qadın yazıçılarının ən fəallarından biri" kimi dəyərləndirib və "Şərəf nişanı" ordeninə layiq görüb. Ulu öndər 1980-ci ildə Xalidə Hasilovanı "Qırmızı əmək bayrağı" ordeni ilə də təltif edib.

Əməkdar mədəniyyət işçisi olan yazıçının yaradıcılığı rəngarəngliyi, mövzu dairəsinin genişliyi ilə seçilib. O, həyat hadisələrinə dərindən nüfuz edir, mövzunu düşünərək seçir, xarakterik obrazlar yaradırdı.

***Ə.DOSTƏLİ***
***XQ***

# Soydaşımızın Estoniya rəsmləri Dubayda

**Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində "World Art Dubai 2025" adlı beynəlxalq rəsm sərgisi keçirilir. Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Estoniyada fəaliyyət göstərən "Buta Art Studio" Azərbaycan Yaradıcılıq Mərkəzinin rəhbəri, rəssam Rövşən Nur da həmin rəsm sərgisində iştirak edir.**




Yaxın Şərq regionunun ən irimiqyaslı incəsənət tədbirlərindən biri hesab olunan sərgidə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının məzunu Rövşən Nurun milli ənənəvi motivləri müasir bədii ifadə vasitələri ilə birləşdirilərək, təsirli obrazlarla müxtəlif mədəniyyətlərdən olan izləyicilərə təqdim edilir.

Qeyd edək ki, bundan əvvəl də Azərbaycan tarixi, mədəniyyəti və incəsənətinin zəngin irsini tanıtmaq məqsədilə Rövşən Nurun dünyanın müxtəlif ölkələrində fərdi sərgiləri keçirilib. Ötən ilin aprelində onun "Azərbaycan naxışları" Vaşinqtonda sənətsevərləri heyran edib.

***XQ***

**Yeni nəşrlər**

# "ULDUZ"un aprel töhfəsi

**Azərbaycan Yazıçılar Birliyinin "Ulduz" ədəbi-bədii jurnalının aprel sayı işıq üzü görüb. Oxucuların, xüsusilə də gənc ədəbiyyatsevərlərin hər zaman maraqla izlədikləri dərginin bu sayı da müxtəlif rubrikalar altında verilmiş bədii-publisistik yazılarla zəngindir.**



İlk səhifələrdə Aqşin Evrənin "Özüylə söhbəti və şeirləri" verilib. "Nəsr" rubrikasında Cavid Zeynallının, Mirmehdi Ağaoğlunun, Nuray Nəzərovanın, Məhliqa Eyvazqızının, Oğuz Ayvazın, Maya İmranın hekayələri təqdim olunub. "Yazı masası"nda isə Taleh Mansur Xalq yazıçısı Çingiz Abdullayevlə həmsöhbət olub.

Qulu Ağsəs "Nəsrin ...mərtəbəsi"ndə gənc yazıçı Məmməd Məmmədlinin kitabından söz açıb. "Şeir vaxtı"nda Sahibə Yusif, Təranə Dəmir, Namiq Dəlidağlı, Aysel Fikrət, Adil Həsənoğlu və Şəhriyar Heydərdir. Havar Şəfiyeva və Cabir Həsənin şeirləri də bu saydadır.

Jurnalın "Təbriz eli" rubrikasında Əli Çağlanın "Şahmat" əsəri dərc edilib. "Tribuna"da Azər Fəraqi "Ürfan ədəbiyyatı İslamın budaq dili"ndən söz açırb. "Tənqid"də isə filologiya elmləri doktoru Vaqif Yusifli "Zövlədən Ufaya: Baloğlan Cəlil" yazısı ilə Başqırdıstanda yaşayan şair soydaşımızın yaradıcılığını incələyib.

"Sənət", "Tərcümə saatı", "Debüt", "Dərgidə kitab", "Dərgidə sərgi" rubrikaları da maraqlıdır.

# "İRS" ərəb dilində

**Beynəlxalq Azərbaycan jurnalı olan "İRS"in ərəb dilində nəşr olunan 15-ci sayı oxucuların ixtiyarına verilib.**




Bu nömrədəki "COP29 konfransı – daha yaxşı kainat üçün birlikdə olaq" başlıqlı yazıda Bakıda keçirilmiş bu qlobal əhəmiyyətli iqlim tədbiri və onun nəticələrinə nəzər salınıb. Mərakeşli jurnalist Şueyb Brhaddanın "Azərbaycan – Qafqazın mirvarisi. Mələklər də onu sevir", misirli tədqiqatçı Əhməd Adboh Tarabikin "Şuşa – Qafqazda mədəniyyətin beşiyi" adlı məqalələri də jurnalda yer alıb.

"ICESCO və Azərbaycan: mükəmməl tərəfdaşlıq nümunəsi" adlı məqalədə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlığın istiqamətləri və birgə mədəni-elmi fəaliyyətdə ilhamverici örnəyə çevrilməsi qeyd olunub. "Azərbaycan – tolerantlıq və sülh içində birgəyaşayış ölkəsi" adlı yazıda ölkəmizin bu sahədə qlobal nümunəyə çevrildiyi barədə ətraflı şəkildə danışılır.

Göründüyü kimi, bu dəfə də "İRS" jurnalı Azərbaycanın böyük irsinə dair nadir materiallarla xarici oxucu auditoriyasının görüşünə gəlib.

***XQ***

XQ-nin şərhi

# "Öncə Amerika": Supergüc təcridetmə siyasətinə qayıdırmı?

**Amerika Birləşmiş Ştatlarının xarici siyasəti tarix boyu bir sıra dəyişikliklərə məruz qalıb, müxtəlif dövrlərdə fərqli prioritetlər əsasında formalaşıb. Bu siyasətlərin içində xüsusi yer tutan təcridçilik konsepsiyası ABŞ-ın beynəlxalq münaqişələrdən və siyasi ittifaqlardan uzaq qalmaq niyyəti ilə xarakterizə olunur. Xüsusilə, XVIII və XIX əsrlərdə formalaşan bu strategiya uzun müddət Amerika siyasətinin əsas sütunlarından biri olub. Təcridçilik, təkcə xarici siyasət deyil, həm də Amerikanın milli kimliyi və strateji təhlükəsizlik anlayışının bir parçası kimi meydana çıxıb.**



Bəs təcridçiliyin ideoloji və siyasi əsasları nədən ibarətdir? Amerika təcridçiliyi ideoloji cəhətdən ölkə müstəqillik qazandıqdan sonra formalaşmağa başlayıb. 1796-cı ildə Prezident Corc Vaşinqtonun vida müraciəti bu siyasətin təməl daşı sayılır. C.Vaşinqton ABŞ-ın Avropa siyasətlərindən uzaq durmasını, daim sabit və neytral mövqe tutmasını tövsiyə edirdi: "Xarici dünyanın istənilən hissəsi ilə daimi ittifaqlardan çəkinmək bizim əsl siyasətimizdir". Onun bu fikirləri yeni yaranmış dövlətin öz təhlükəsizliyini təmin etmək və daxili inkişafını sürətləndirmək istəyi ilə bağlı idi.

Bu yanaşma daha sonra 1823-cü ildə Prezident Ceyms Monro tərəfindən irəli sürülən Monro Doktrinası ilə siyasi mahiyyət qazandı. Monro Doktrinası Avropa dövlətlərinə ABŞ-ın qərb yarımkürəsindəki işlərinə qarışmamasını, əvəzində isə ABŞ-ın da Avropanın daxili işlərinə qarışmayacağını bəyan edirdi: "Amerika qitələri... bundan sonra heç bir Avropa dövləti tərəfindən gələcək müstəmləkəçilik subyektləri kimi qəbul edilməyəcək". Bu doktrina Amerika təcridçiliyinin rəsmi ideoloji ifadəsi kimi qəbul olunur.

Ümumiyyətlə, XIX əsr boyunca ABŞ əsas diqqətini daxili genişlənmə və iqtisadi inkişaf məsələlərinə yönəldib. "Manifest Destiny" (Aşkar Tale) adlı ideoloji yanaşma ölkənin qərbə doğru genişlənməsini və yeni ərazilərin birləşdirilməsini qanuniləşdirirdi. Bu dövrdə ABŞ xarici siyasətdə fəallıq göstərməyərək əsasən ticarət əlaqələri və diplomatik balans siyasəti ilə kifayətlənib. ABŞ-ın hərbi-siyasi ittifaqlardan qaçması onun təcridçiliyə sadiqliyini göstərən əsas faktorlardan biri olub.

Ancaq 1914-cü ildə başlayan Birinci Dünya müharibəsi ABŞ üçün yeni bir sınaq dövrü oldu. Prezident Vudro Vilson ilk mərhələdə neytrallığı qorumağa çalışsa da, 1917-ci ildə ABŞ müharibəyə qoşuldu. Müharibədən sonra Vilson beynəlxalq sülh və təhlükəsizliyi təmin etmək məqsədilə Millətlər Liqasını təşviq etsə də, ABŞ Senatı bu ideyanı qəbul etmədi və ölkə təşkilata üzv olmadı. Bu, təcridçiliyin hələ də ABŞ siyasətində güclü olduğunu göstərən mühüm göstərici idi.

1930-cu illərdə ABŞ-da təcridçilik siyasəti yenidən gücləndi. Konqres tərəfindən qəbul olunan Neytrallıq Aktları ABŞ-ın xarici münaqişələrə qarışmasının qarşısını almağı hədəfləyirdi. Lakin 1939-cu ildə İkinci Dünya müharibəsinin başlanması və xüsusilə 1941-ci ildə Yaponiyanın Pörl-Harbora hücumu ABŞ-ın bu siyasətə yenidən baxmasına gətirib çıxartdı. ABŞ müharibəyə qoşulduqdan sonra təcridçilik siyasəti faktiki olaraq sona çatdı. Bundan sonra ölkə beynəlxalq təhlükəsizlik və diplomatiyada aktiv rol almağa başladı.

Təcridçilik siyasəti rəsmi olaraq İkinci Dünya müharibəsindən sonra bitmiş olsa da, onun ideyaları müasir ABŞ siyasətində zaman-zaman yenidən aktuallaşır. Xüsusilə Donald Trampın prezidentliyi dövründə "America First" (Öncə Amerika) şüarı altında ABŞ-ın beynəlxalq təşkilatlardan çıxması və ikitərəfli razılaşmalara üstünlük verməsi təcridçiliyin yeni formasını gündəmə gətirib. Bu, ABŞ cəmiyyətində və siyasətində təcridçiliyin hələ də müəyyən təsir gücünə malik olduğunu sübut edir.

Amerika təcridçilik siyasəti uzun və mürəkkəb bir tarixi mərhələdir. Bu siyasət ABŞ-ın daxili inkişafına və təhlükəsizliyinə xidmət etsə də, qlobal dəyişikliklər və təhlükələr qarşısında zamanla yerini daha fəal və müdaxiləyə açıq xarici siyasətə verib. Təcridçilik ideyası bir dövr üçün zəruri və funksional olsa da, XXI əsrdə qloballaşan dünyada onun klassik forması ilə davam etməsi mümkün deyil. Buna baxmayaraq, ABŞ-ın beynəlxalq sistemdəki mövqeyi dəyişdikcə, təcridçilik ritorikası və yanaşması yenidən gündəmə gələ bilər. ABŞ-ın sabiq dövlət katibi Henri Kissencer bununla bağlı yazırdı: "Birləşmiş Ştatlar tarixi boyu təcridçilik və səlibçi müdaxiləçilik arasında tərəddüd edib". Buna görə də gələcəkdə ABŞ-ın geosiyasi mövqeyi bu siyasətin yenidən aktuallaşması və ya tamamilə aradan qalxması ilə müəyyən ediləcək.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

# "Ürəyin qanı ilə" yazılan tarix

## *Faşizm qurbanı olmuş Belarus yazarları*

**Dünən Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin təşkilatçılığı və Belarus Ədəbiyyat Tarixi Dövlət Muzeyinin əməkdaşlığı çərçivəsində "Ürəyin qanı ilə" adlı ədəbi-sənədli sərginin açılışı olub. Ekspozisiya 1941–1945-ci illər Böyük Vətən müharibəsində qəhrəmancasına həlak olmuş Belarus yazıçılarının xatirəsinə həsr olunub.**



Açılış mərasimində Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov Azərbaycan ilə Belarus arasında bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də əlaqələrin sürətlə inkişaf etdiyini bildirib. O, faşizm üzərində qələbənin 80-ci ildönümü və Ədəbiyyat Muzeyinin 80 illiyi ərəfəsində təşkil olunan sərginin əhəmiyyətini qeyd edib, layihənin mədəniyyət sahəsində çalışanlar üçün böyük bayram olduğunu deyib.

Akademik bugünkü sərginin Milli Azərbaycan Ədəbiyyatı Muzeyi ilə Belarus Dövlət Ədəbiyyat Tarixi Muzeyi arasında imzalanmış əməkdaşlıq memorandumuna əsasən təşkil olunduğunu diqqətə çatdırıb. O, Azərbaycan–Belarus mədəni əlaqələrinin gələcək illərdə daha da inkişaf edəcəyinə, yeni layihələrin gerçəkləşəcəyinə inamını ifadə edib.

Mərasimdə iştirak edən Belarusun ölkəmizdəki səfirinin müavini Vladimir Çuşev, Belarus Dövlət Ədəbiyyat Tarixi Muzeyinin direktoru Sergey Usik, həmin muzeyin direktor müavini Olesya Kuznetsova və "Turpressklub" şirkətlər qrupunun sədri Anatoliy Kovalyov iki ölkə arasında mədəni əlaqələrə töhfə olan layihənin əhəmiyyətini vurğulayıblar.

Qeyd edək ki, müxtəlif sahələrdə çalışan Belarus ədiblərinə həsr edilmiş sərgidə həmin dövrün şahidi olmuş yazıçıların müharibədə iştirakını əks etdirən əsərlər, onların mətbuat səhifələrində dərc olunmuş məqalə və yazıları təqdim olunur. Sərgilənən bütün materialların orijinal nüsxələri Belarus Ədəbiyyat Tarixi Dövlət Muzeyinin fondlarında mühafizə olunur. Sərginin açılışında elm və mədəniyyət xadimləri, Belarusun Azərbaycandakı səfirliyinin və ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri iştirak ediblər.

*Qabil YUSİFOĞLU*
*XQ*

# Britaniyada ölkəmizin enerji hədəfləri müzakirə edilib



**Aberdin Universitetindəki Azərbaycan Cəmiyyəti, Britaniya–Azərbaycan Mədəniyyət Mərkəzinin dəstəyi ilə "Gələcəyi idarə etmək: Azərbaycanda enerji keçid hədəfləri, texnologiya yenilikləri və çağırışlar" adlı toplantı keçirib.**

Mədəniyyət Mərkəzinin təsisçisi Billurə Bayramova - Bernardın XQ-yə verdiyi məlumata görə, məclisdə alimlər, sənaye mütəxəssisləri və tələbələr Azərbaycanın enerji keçidi ilə bağlı siyasətini və potensialını müzakirə ediblər. Azərbaycanda enerji keçidinin hədəfləri, texnoloji yeniliklər və çətinliklər diqqət mərkəzində olub.

Azərbaycan Cəmiyyətinin prezidenti İbrahim Xasıyev ölkəmizin enerji gələcəyi ilə bağlı dinamik mübadiləyə verdiyi önəmi açıqlayıb. Sonra Aberdin Universitetindən doktor Alfonso Martinez-Felipe və professor Alexander Kemp, enerji şirkəti təmsilçisi Fərizə Əliyeva və ADA Universitetinin prorektoru Fariz İsmayılzadə təqdimatlar ediblər. Onlar dekarbonizasiya strategiyaları, hidrogenin enerji qarışığında rolu və Aberdinin bu sahədə təcrübəsindən söz açıblar.

Panel iclaslarda bərpaolunan enerji məqsədlərinin uzunmüddətli təsirləri və sektorun gələcəyini formalaşdıran texnoloji yeniliklər araşdırılıb. Toplantı iştirakçıları maraqlı sual-cavab sessiyasında da iştirak ediblər.

*Z.HÜSEYNOVA*
*XQ*

Yaxın-uzaq ölkələr

**Qətər deyəndə, ilk növbədə isti qumlu səhralar, orada ard-arda düzülüb gedən dəvələr, eləcə də zəngin neft və qaz pulları hesabına inşa edilən göydələnlər göz önünə gəlir. Bəs bu dost ölkə barədə daha nələri bilirik? Ondan başlayaq ki, Qətərin ərazisi əsasən yağıntılara həsrət qalan səhralardan ibarətdir. Ərazidə bir dənə olsun ilboyu axan çay yoxdur. Əhali içməli su kimi şirinləşdirilmiş dəniz suyundan istifadə edir.**

# Qətər: Rifah və şükranlıq dövləti



İqlimi quru subtropikdir. Yayda havanın temperaturu hətta 46 dərəcə selsiyədək yüksəlir. Heyvanat aləmi zəngin deyil, amma burada cüyürün ağ oriks adlanan gözəl bir növü var ki, məğrur duruşuna iki göz istəyir ki, tamaşa etsin. Bundan başqa, ərazidə strauslara da rast gəlinir. Səhralarda, təbii ki, sürünənlər və gəmiricilər daha çoxdur.

Son hesablamalara görə, ölkədə 2,8 milyona yaxın insan yaşayır. Bundan yalnız 12 faizə qədəri yerli əhalidir. Qalanları Pakistan, Hindistan, İran, eləcə də digər yaxın-uzaq ölkələrdən ruzi dalınca gələn miqrantlardır.

Qətər ərəb dövlətidir, təbii ki, ərəb dili dövlət dilidir, ingilis dili isə ikinci dil sayılır. Əhalinin böyük əksəriyyəti paytaxt Doha və onun ətrafındakı qəsəbələrdə məskunlaşıb. Qətər neft və təbii qaz ehtiyatlarına görə, dünyanın ən zəngin ölkələrindəndir. Çox varlı dövlətdir. Adambaşı düşən gəlirə (88 min ABŞ dolları) görə dünyada ilk yeri tutur. Son illər Qətərdə müasir neft emalı, kimya, eləcə də metallurgiya zavodları inşa edilib. Əvvəllər yerli sakinlər əsasən dənizdən mirvari çıxararaq satmaqla məşğul olub.

Kənd təsərrüfatı zəif inkişaf etmişdir. Səhra həyatına alışmış bir çox yerli qəbilələr hələ də ənənəvi olaraq səhraların dərinliklərində dəvə, qoyu və keçi sürüləri saxlayırlar. Lakin heyvandarlıqla məşğul olanların sayı ilbəil azalır. Aqrar sektor əhalinin ərzağa olan ehtiyacının yalnız 10 faizini ödəyə bilir. Qalan zəruri ərzaq məhsulları idxal edilir.

Ərazisi cəmi 12 min kilometr olan Qətər ölkəmizdən 7 dəfə kiçikdir. Ölkəni avtomobillə bu başdan o başa cəmi 1 saata keçmək mümkündür. Ən böyük şəhəri əhalinin əksəriyyətinin məskunlaşdığı paytaxt Dohadır,.

"Qatar Airways" dünyanın ən təhlükəsiz aviaşirkətlərindən biridir və İspaniyanın məşhur "Barselona" futbol klubunun sponsorudur. Nəhəng "Hamad" aeroportu sutkada yüzlərlə təyyarəni qəbul edərək yola salır. Nüfuzlu "Əl-Cəzirə" telekanalı 1996-cı ildə yaradılıb və dünyanın ən nüfuzlu telekanallarından sayılır.

Siyasi quruluşuna görə mütləq monarxiyadır. Qatar Əmiri Tamim bin Hamad Al Tani eyni zamanda Ali Baş Komandan sayılır. Dövlətin idarə olunmasında monarxa Nazirlər Kabineti kömək edir. Ölkədə siyasi partiyaların fəaliyyətinə icazə verilmir. Küfr danışmaq cinayət sayılır və sərt şəkildə cəzalandırılır.

Xatırladaq ki, 2017-ci ilin iyunda Qətərdə diplomatik böhran yaşanıb. Belə ki, Səudiyyə Ərəbistanı başda olmaqla bir çox ərəb dövlətləri Dohanı bir sıra beynəlxalq terror təşkilatları, xüsusilə də "Əl-Nüsra" ilə əlaqələrdə suçladılar. Rəqibləri Qətəri qurudan və dənizdən tam mühasirəyə aldılar. Lakin Türkiyənin hərtərəfli dəstəyi sayəsində iqtidar taxt-tacını qoruyub saxlaya bildi.

Qətərdə son onillər ərzində dövlət vəsaiti hesabına ölkədə çox sayda orta məktəb, kollec, universitet, eləcə də elmi-tədqiqat instututları açılıb. İstedadlı gənclər dövlət hesabına təhsillərini davam etdirmək üçün nüfuzlu Qərb universitetlərinə göndərəlir. Qətərdə əmin-amanlıqdır. Oğurluq və qarət halları demək olar ki, olmur.

2022-ci ilin noyabr və dekabr aylarında Qətərdə futbol üzrə növbəti dünya çempionatı keçirilib. Dövlət bu layihəyə 220 milyard dollar vəsait qoymuşdur. Bu, əvvəlki 5 dünya çempionatının xərclərindən 4 dəfə çoxdur. Bu yerdə deyirlər ki, varlığa nə darlıq?!

Müstəqil Azərbaycan ilə Qətər Dövləti arasında diplomatik əlaqələr 14 sentyabr 1994-cü il tarixində yaradılmışdır. Qeyd etmək lazımdır ki, istər ikitərəfli əsasda, istərsə də beynəlxalq təsisatlar çərçivəsində Qətər Dövləti Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü daim dəstəkləmişdir.

Qeyd edək ki, bu il aprelin 10-dan 13-dək Bakıda Qətər Mədəniyyəti Günləri keçirilib. Bundan əvvəl anoloji tədbir 2009-cu ilin iyun ayında keçirilib. 2024-cü ilin fevralında Dohada Azərbaycan Mədəniyyəti Günləri təşkil olunub.

*Məsaim ABDULLAYEV,*
*Fidan SALMANOVA,*
*XQ*

"Finex Kredit" BOKT ASC səhmdarlarının nəzərinə!

22 may 2025-ci il saat 12.00-da Bakı şəhəri, S.Rüstəm küçəsi 11 nömrəli ünvanda "Finex Kredit" BOKT ASC səhmdarlarının növbədənkənar illik ümumi yığıncağı keçiriləcəkdir.

***Gündəlikdəki məsələlər:***

**1.** Nizamnamə kapitalı barədə müzakirə.

**2.** 2024-cü ilin maliyyə-təsərrüfat yekunlarına dair kənar auditin hesabatı üzrə müzakirə.

**3.** Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələlərlə bağlı sənədlərlə hər həftənin çərşənbə axşamı günləri saat 12.00-dək tanış ola bilərlər.

**Əlaqə telefonu – (+994 12) 440-56-15.**
**E-mail – info@finexkredit.az**
**Ünvan – Bakı şəhəri, S.Rüstəm küçəsi 11.**

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*tabeliyindəki idarələrə tikinti materiallarının satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 28 aprel 2025-ci il saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu – (012) 404-37-00, daxili:1242**
**Ünvan – AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 77 (30771) 19 aprel 2025-ci il, şənbə

İdman

## Dünya gimnastları Bakıda



**Aprelin 18-də Bakıda 39 ölkədən gimnastların iştirakı ilə bədii gimnastika üzrə Dünya Kubokuna start verilib.**

Aprelin 20-dək davam edəcək yarışda idmançılar ayrı-ayrı alətlər və çoxnövçülük üzrə öz bacarıqlarını nümayiş etdirirlər. Azərbaycanı fərdi proqramda çıxış edən Kamilla Seyidzadə ilə Zöhrə Cəfərova və qrup hərəkətləri komandası təmsil edir.

Dünya kubokunda mübarizə aparan bir sıra titullu gimnastlar arasında Olimpiya çempionu Darya Varfolomeyeva (Almaniya), olimpiadanın bürünc mükafatçısı Sofia Raffaelli (İtaliya), mütləq Avropa çempionu Stiliana Nikolova, Çinin Olimpiya çempionu olan qrup hərəkətləri komandası və başqaları var.

Ənənəyə uyğun olaraq bu kubokda da ən çox icra xalını toplamış gimnast və qrup komandasına “AGF Trophy” kuboku təqdim olunacaq.

## Gimnastımız bürünc medal qazanıb



**Azərbaycan gimnastı Selcan Mahsudova Belarusun Vitebsk şəhərində keçirilən beynəlxalq turnirdə uğurla çıxış edib.**

Azərbaycan Gimnastika Federasiyasının mətbuat xidmətinin məlumatına görə, təmsilçimiz batut gimnastikası növündə toplamda 55.540 xal toplyıb. O, bu nəticə ilə bürünc medala layiq görülüb.

## Füzuli sakinləri “Prezident kuboku”na qoşulacaqlar




**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş “Prezident Kuboku-2025” beynəlxalq reqatası çərçivəsində Füzuli sakinləri üçün xüsusi tədbir keçiriləcək.**

Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasından bildiriblər ki, proqram çərçivəsində peşəkar avarçəkənlərin nümunəvi çıxışları, uşaq və yeniyetmələr üçün viktorinalar təşkil olunacaq. Sakinlər də avarçəkmə qayıqları və trenajorlarda özünü sınamaq imkanı əldə edəcəklər.

Qeyd edək ki, tədbir aprelin 28-də Köndələnçay su anbarında təşkil ediləcək.

***L.QURBANOVA***
***XQ***

✓ ***Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidməti tərəfindən Süleymanov Rəşad Dilqəm oğlunun adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

# Ağırlıqqaldıranımızın Avropa qələbəsi

## İsa Rüstəmov çempionatdan 3 medalla qayıdıb




**Azərbaycan ağırlıqqaldırma komandası idmansevərləri daha bir uğurla sevindirib. Avropanın ən güclü atletlərinin mübarizə apardığı qitə çempionatında yığmamızın üzvü İsa Rüstəmov gümüş medal alıb. Atletimiz birdən qaldırma hərəkətində 138 kiloqram nəticə göstərərək bürünc medala sahib olub. Təkanla qaldırma hərəkətində 170 kiloqram ağırlığı başı üzərinə qaldıran İsa fəxri kürsünün birinci pilləsinə yüksəlib. Toplamda 308 kiloqram nəticəyə imza atan idmançımız yekun sıralamada 2-ci olub və 2 hərəkətin cəmində Avropa çempionatının gümüş mükafatını qazanıb.**

Qitə çempionatında gümüş medal qazanmış atletimiz dünən Vətənə qayıdıb. Onu Heydər Əliyev Beynəlxalq Aeroportunda yaxınları, federasiya rəsmiləri və idman ictimaiyyətinin nümayəndələri qarşılayıblar.

**Ağırlıqqaldırma Federasiyasının vitse-prezidenti Firdovsi Umudov “Xalq qəzeti”nə açıqlamasında 23 yaşadək idmançıların Avropa birinciliyində qalib olmuş İsa Rüstəmovun böyüklərin yarışında da ümidləri doğrultduğunu bildirdi:**

– İsa Rüstəmov 73 kiloqram çəki dərəcəsində Gürcüstanda keçirilmiş “Kakhi Cup” turnirində fəxri kürsünün birinci pilləsinə qalxmışdı. Bu dəfə 67 kiloqram çəki dərəcəsində Avropa çempionatında 1 qızıl, 1 gümüş və 1 bürünc medal qazandı. Peşəkar idmanda 3 aya 6 kiloqram çəki azaltmaq və uğur qazanmaq çox böyük zəhmət tələb edir. Təbii ki, bu düzgün qurulmuş işin nəticəsidir.

Bir məsələyə xüsusi diqqət çəkmək istəyirəm. Son 2 Avropa çempionatında 2 müxtəlif yerli idmançı ilə medal qazandıq. Yaxın keçmişə baxsaq, bu, ilk belə tendensiyadır. Bu gün Ağırlıqqaldırma Federasiyasının rəhbərliyi atletlərin hazırlığının yüksək səviyyədə olması üçün lazım olan bütün şəraiti yaradıb. İdmançıların inkişaf dinamikası daim nəzarətdə saxlanılır. Məşqçilər korpusuna müvafiq tapşırıqlar verilir. Atletlər arasında perspektiv vəd edən idmançılar az deyil. Nəticələr daim təhlil olunur. Məqsəd ölkəmizi layiqincə təmsil edən idmançılar yetişdirməkdir.

**Qurum rəsmisi onu da qeyd etdi ki, federasiya yarışlarda qazanılan uğurlarla yanaşı, beynəlxalq əlaqələrin qurulması istiqamətində də fəaliyyətini davam etdirir:**

– Əsas məqsəd odur ki, ağırlıqqaldırma idman növü ölkəmizdə kütləviləşsin. Bununla belə keyfiyyət hər zaman kəmiyyətdən daha vacibdir. Avropa çempionatına İsa Rüstəmov yollandı və Vətənə 3 medalla qayıtdı.

Firdovsi Umudov zədə səbəbindən reabilitasiya dövrü keçən Dadaş Dadaşbəyli və İsa Rüstəmovla yanaşı, digər idmançılarımızın gələn il start götürəcək lisenziya xarakterli yarışlara hazırlaşdıqlarını bildirdi:

– İstəyirik ki, onlar ən vacib yarışlara qədər formalarının pik nöqtəsində olsunlar. Bizim üçün əsas olan nizam-intizam qaydalarına riayət və sağlam rəqabət mühitidir. Hansı idmançıların hazırlıq səviyyəsi yüksəkdirsə onlar da ölkəmizi təmsil etmək şansı qazanacaqlar.

İsa Rüstəmov qitə çempionatından Vətənə medalla qayıtdığı üçün sevincinin həddi-hüdudu olmadığını bildirdi:

– Yarışda bir qədər həyəcanlı idim. Üzərimə düşən məsuliyyəti başa düşürdüm. Əsas məqsəd Vətənə medalla qayıtmaq idi. Turnirdə rəqabət yüksək idi. Qətənin ən güclülərinin yarışında medal qazandığım üçün çox sevinirəm. Düşünürəm ki, bu bir başlanğıcdır. Qarşıda digər mühüm yarışlar var. Arzum nüfuzlu beynəlxalq yarışlarda qələbə qazanıb, bayrağımızı yüksəklərdə dalğalandırmaqdır.

İ.Rüstəmov əldə etdiyi nailiyyətlərə görə federasiya rəhbərliyinə və məşqçilərə minnətdar olduğunu dedi:

– Federasiya rəhbərliyi və məşqçilərin sayəsində yarışa yaxşı hazırlaşmışdıq. Uğurların əldə edilməsində əməyi keçən hər kəsə minnətdaram. Vətənə medalla qayıtdığım üçün qürur hissi keçirirəm.

***Leyla QURBANOVA***
***XQ***

Futbol tariximizdən

## “Neftçi”nin unudulmaz 11 metrliyi

**Bu ilin payızında 26-cı SSRİ çempionatının güclülər dəstəsində keçirilmiş “Neftçi” – “Volqa” (Qorki) görüşünün 61 “yaşı” tamam olacaq. Çempionatın vida turuna təsadüf etmiş və 1964-cü il noyabrın 3-də baş tutmuş bu oyunun qiyməti hər iki rəqib üçün son dərəcə yüksək idi – qalib komanda növbəti mövsümdə də elitada oynamaq hüququnu özündə saxlayacaq, uduzan kollektiv isə güclülər dəstəsinə əlvida deyəcəkdi.**



**Şəkildə: “Neftçi” – 66”. Oturanlar sırasında sağdan birinci V. Hacıyevdir.**

Görünür, gənc yaşlarımda tələbə yoldaşlarımla birlikdə izlədiyim oyun xüsusi əhəmiyyətinə, bir də ki, onun taleyini həll edən penaltiyə görə yadımda yaxşı qalıb.

Həmin il 17 komandanın mübarizə apardığı çempionatda son 4 pillədə qalan klublar “yüksək cəmiyyət”lə vidalaşacaqdı. “Neftçi” bu aqibəti yaşamamaq üçün mütləq qalib gəlməli idi, volqalıları isə heç-heçə də qane edirdi.

Respublika stadionunun tribunalarından 35 min tamaşaçının şahidlik etdiyi görüşdə əsasən müdafiə futboluna üstünlük verən qonaqlar uzun müddət meydan sahiblərinin hücumlarının qarşısını ala bilsələr də, ikinci hissənin ortalarında sürətlə onların cərimə meydançasına daxil olan Anatoli Banişevskini yolverilməz fəndlə dayandırdılar, minskli hakim V. Xodin də tərəddüd etmədən 11 metrlik zərbə nöqtəsini göstərdi.

Penaltini yerinə yetirmək məsuliyyətini yarımmüdafiəçi Valeri Hacıyev öz üzərinə götürdü. Dərhal da komanda yoldaşları təsəvvürolunmaz sevinclə onu bağırlarına basdılar. Dəqiq zərbə, hadisələrin sonrakı gedişinin göstərdiyi kimi, “Neftçi”yə 1:0 hesablı qələbə qazandırıb, onu güclülər dəstəsində saxladı, “Volqa”nın isə bütün ümidlərini alt-üst etdi.

Nəticədə, Azərbaycan paytaxtı futbolçuları, Kutaisinin “Torpedo” komandası və “Volqa” finişə hərəyə 27 xalla çatdılar. “Neftçi” topların daha yaxşı fərqinə görə bu rəqiblərini qabaqlayıb, 12-ci oldu. Gürcüstan futbolçuları da (13-cü yer) öz vəzifələrini yerinə yetirdilər. 14-cü nəticə göstərən “Volqa” və 15-17-ci pillələrin sahibləri “Kayrat” (Alma-Ata), “Şinnik” (Yaroslavl) və “Moldova” (Kişinyov) isə güclülər dəstəsi ilə vidalaşdılar.

Həmişəki kimi, “Volqa” ilə görüşdə də texnikalı oyunu, dəqiq ötürmələri, həlledici anda soyuqqanlılığını itirməyib, məsuliyyəti öz üzərinə götürmək bacarığı ilə yadda qalan 1966-cı il 28-ci SSRİ çempionatının bürünc mükafatçısı, rəhmətlik Valeri Hacıyev (2016-cı ildə 75 yaşında vəfat etmişdir) bu yaxınlarda 88 yaşı tamam olmuş “Neftçi”nin ən parlaq simalarından biri idi.

O, 1960-cı ildən 1972-ci ilədək komandamızın heyətində SSRİ çempionatlarının güclülər dəstəsində 197 oyunun iştirakçısı və 23 qolun müəllifi olmuşdur. “Volqa” ilə görüşdən iki il sonra isə 25 yaşlı Valeri komanda yoldaşları ilə birlikdə 1966-cı il çempionatının bürünc medallarını bayram etmişdir.

Qorki təmsilçisi ilə finala bərabər matçda “Neftçi” belə heyətdə oynamışdır: Vyaçeslav Şexov, Ravil Cəlilov, Vladimir Bruxti, Yaşar Babayev, Aleksandr Trofimov, Boris Falkovski, Valeri Hacıyev, Kazbek Tuayev, Anatoli Banişevski, Yuri Kuznetsov, Eduard Markarov (Nadir Eynullayev, 24).

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

HAVA

## Buludlu və yağmursuz şənbə...

Milli Hidrometeorologiya Xidmətindən bildirilib ki, Bakıda və Abşeron yarımadasında aprelin 19-da hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq, cənub-şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 8-10° isti, gündüz 15-20° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 768 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 70-75 faiz, gündüz 45-50 faiz olacaq.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi şərq rayonlarında qısamüddətli yağıntılı olacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 5-9° isti, gündüz 17-22° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 10-15° isti olacaq.



***Q.QASIMOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3433
SİFARİŞ 747
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00